www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20-26 mart 2015-ci il Cümə № 62 (6090) Qiyməti 40 qəpik

**Novruz bayramınız mübarək!**

## Gündəm

### Cəbhədə böyük savaş - 20 erməni əsgəri öldürüldü



TANAP-ın təməlinin qoyulmasından dərhal sonra düşmən ölkə cəbhədə məkrli planlara əl atmağa başlayıb; Azərbaycan Ordusu ermənilərin təxribatlarının qarşısını alıb

yazısı səh.4-də

### Sülh sazişindən imtina edən İrəvan təlaş içərisindədir

yazısı səh.11-də

### "Qızıl əfv" ümidi indi də maya qaldı

yazısı səh.3-də

### ABŞ səfiri Azərbaycanda demokratiya məsələsini dördüncü sıraya qoyub

yazısı səh.9-da

### "Bakı-2015"in ilk biletini İlham Əliyev aldı

yazısı səh.4-də

### Hicab məhbusu dustaq ölümünə etiraza görə hələ də karsda saxlanılır

yazısı səh.12-də

### Putin sirli xəstəliyindən sonra ilk dəfə Moskvanı tərk edir

yazısı səh.9-da

### Müsavatda sədrlik uğrunda mübarizə istefalara səbəb oldu

yazısı səh.8-də

### Kollec tələbəsinin əməliyyat zamanı ölümünün təfərrüatları üzə çıxdı

yazısı səh.12-də

### Bayram günlərinin iqtisadiyyata təsiri - günə 57 milyon ziyan...

yazısı səh.10-da

### Bakıda minlərlə insan tıxacda qaldı

yazısı səh.15-də

## Bank sektorunun "boz kardinal"ının qəfil istefasının şok səbəbləri

# CAHANGİR HACIYEVƏ QARŞI "QARA KƏMƏR" ƏMƏLİYYATI

Beynəlxalq Bankın səhmlərinin satışa çıxarılacağına sayılı günlər qalmış İdarə Heyəti sədrinin "səhhəti ilə bağlı istefası" müəmmaları daha da artırır; onun son 14 illik fəaliyyətinin ciddi araşdırılacağı və "cəriməni" artıqlaması ilə ödəyəcəyi iddia olunur; ölkənin ən varlı oliqarxlarından birini nə gözləyir?




yazısı səh.5-də

## Aslan Aslanovun oğlunun adı yeni qalmaqalda

Turqay Aslanovun "avtoş"luq etdiyi "KİA" markalı maşını cərimə meydançasına aparılıb; sabiq nazir müavininin əmlaklarını adına rəsmiləşdirdiyi şəxsin kimliyi bilindi

yazısı səh.10-da



*Hafiz Məmmədov:*

**"Yəni mən o günə qalmışam ki, 100 min tapıb maaş verməyim?"**

yazısı səh.7-də



*Orxan Əyyubzadə:*

**"Ömrümdən 10 ay aldılar..."**

yazısı səh.7-də



**ATV-nin vitse-prezidentinin həyat yoldaşı intihar etdi**

yazısı səh.4-də

# 20-26 mart 2015

# İlham Əliyev Novruz şənliyində



**Azərbaycan prezidenti İlham Əliyev martın 19-da Bakıda keçirilən Novruz şənliklərində iştirak edib. Dövlət başçısı, xanımı və ailə üzvləri əvvəlcə Qız qalasının qarşısındakı meydana gəliblər. Milli geyimli uşaqlar prezident İlham Əliyevi və xanımını Novruz bayramı münasibətilə təbrik ediblər.**

Prezident İlham Əliyev Novruz tonqalını alovlandırıb. Dövlət başçısı bayram şənliyində nitq söyləyib.

Sonra Azərbaycan prezidenti və ailə üzvləri Dənizkənarı Milli Parka gəliblər. Dövlət başçısını və xanımını Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşılayıblar. Kosa və Keçəl prezident İlham Əliyevi və ailə üzvlərini bayram münasibətilə təbrik ediblər.

Dövlət başçısı və ailə üzvləri bərəkətli Azərbaycan torpağında yetişdirilən məhsulların bayram şənliyi çərçivəsində təşkil edilmiş sərgisi ilə tanış olublar.

Prezident İlham Əliyev və ailə üzvləri Azərbaycan xalçalarının nümunələrinə də baxıblar. Azərbaycan prezidenti İlham Əliyev və Mehriban Əliyeva bayram şənliyində "Bakı-2015" birinci Avropa Oyunlarına həsr olunmuş stendlərin qarşısında idmançıların çıxışlarını da izləyiblər.

# Əfv sərəncamının icrası başa çatdı

**Azərbaycan prezidentinin imzaladığı əfv sərəncamının icrası başa çatıb. Bu barədə APA-ya Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib. Xatırladaq ki, prezident İlham Əliyevin martın 18-də imzaladığı sərəncam ümumilikdə 101 nəfərə şamil edilib.**

Sərəncama əsasən, azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 90 nəfər cəzanın çəkilməmiş hissəsindən, 4 nəfər islah işləri, 7 nəfər isə cərimə cəzasından azad edilib.

Əfv olunanlar arasında Demokratiyanın Tədrisi Mərkəzinin (SMDT) icraçı direktoru Bəşir Süleymanlı, ilahiyyatçı Anar Qasımlı, 2012-ci ildə Təhsil Nazirliyinin qarşısında "Hicaba azadlıq" adı ilə keçirilən aksiyada tutulan Ramil Vəliyev və "NİDA" Vətəndaş Hərəkatının üzvü Orxan Eyyubzadə də var.

# Nazir daha bir rəis müavinini işdən çıxardı

**Dövlət Baytarlıq Nəzarəti Xidmətinin (DBNX) rəis müavini Emin Şahbazov vəzifəsindən azad olunub. Bunu APA-ya açıqlamasında DBNX mətbuat xidmətinin rəhbəri Yolçu Xanvəli deyib. "Emin Şahbazov öz ərizəsi ilə təqaüdə çıxıb. Rəis müavini postuna gələcək namizədin kimliyi isə kənd təsərrüfatı nazirinin müvafiq əmrindən sonra bəlli olacaq" - deyə Y.Xanvəli bildirib.**

DBNX-nin rəis müavini vəzifəsinin müvəqqəti icrası da heç kimə həvalə edilməyib.

Qeyd edək ki, nazir Heydər Əsədov bundan bir neçə gün əvvəl də Kənd Təsərrüfatı Nazirliyinin tərkibinə daxil olan 10 müəssisənin fəaliyyətini qadağan edib. Virtualaz.org saytının da xəbər verdiyi kimi, Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti respublikanın müxtəlif bölgələrində bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin idxalı və satışı ilə məşğul olan 39 obyektdə monitorinq keçirib. Yoxlama zamanı bəlli olub ki, müəssisələrdə 700 kiloqramdan artıq qeydiyyatdan keçməmiş, keyfiyyətsiz, standartlara cavab verməyən, mənşəyi məlum olmayan pestisidlər və aqrokimyəvi maddələr satılır. Həmin maddələrin satışı qadağan etdirilərək, dövriyyədən çıxarılıb, 10 müəssisənin fəaliyyəti isə dayandırılıb, onların rəhbərləri işdən çıxarılıb.

# Bakı Qrupunun yaradılması baş tutmadı

**ATƏT Parlament Assambleyasının Ukraynadakı böhranın həlli ilə bağlı Bakı Qrupunun yaradılması baş tutmayıb. Azərbaycanın ATƏT nümayəndə heyətinin rəhbəri, Milli Məclisin sədr müavni Bahar Muradova APA-ya açıqlamasında bildirib ki, qərar verildiyi vaxtdan xeyli müddət keçməsinə və məsələnin dəfələrlə gündəmə gətirilməsinə baxmayaraq, bu mexanizmin işə düşməsi alınmayıb.**

B. Muradova deyib ki, qrupun yaradılmasına qərar verildikdən sonra ATƏT PA-nın rəhbəri dəyişib və yeni rəhbərlik mexanizmin işə düşməsi üçün qəti addım atmayıb: "Qurumun son sessiyasında biz bu məsələni yenidən gündəmə gətirdik və qərarın həyata keçirilməsini istədik. Lakin reaksiya verilmədi və beləliklə, Bakı Qrupu yaradılmadı".

Qeyd edək ki, ATƏT PA-nın Bakıda keçirilən 23-cü yay sessiyasında Ukrayna böhranının həlli ilə bağlı Bakı Qrupunun yaradılması barədə qərar qəbul olunmuşdu.

## Başsağlığı

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divanı Mingəçevir şəhər təşkilatının sədri Nurəddin Rüstəmliyə anası**
**Qənirə xanımın**
**vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Müsavat Partiyası Mingəçevir şəhər təşkilatının üzvləri təşkilatın sədri Nurəddin Rüstəmliyə anası**
**Qənirə xanımın**
**vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**

# Həccə gedən zəvvarlara xəbərdarlıq ediləcək



**Azərbaycandan bu il Həcc ziyarətinə gedəcək zəvvarlara ziyarət zamanı bəzi əməllərə yol verilməməsi barədə xəbərdarlıq ediləcək. Xəbərdarlığı pozanlar Səudiyyə Ərəbistanının qanunları çərçivəsində cəzalandırılacaq.**

Bu barədə APA-ya Qafqaz Müsəlmanları İdarəsindən məlumat verilib. İdarədən bildirilib ki, Səudiyyə Ərəbistanının tələbinə əsasən pasportlarında İsrail dövlətinin vizası aşkarlanan zəvvarlar Həccə buraxılmayacaqları üçün onların sənədləri qəbul edilməyəcək.

Xəbərdarlıq zəvvarlara paylanacaq viza sənədləri arasında olacaq. Zəvvarlar xəbərdarlıqla tanış olduqlarına dair imza atacaqlar. Xəbərdarlığın mahiyyəti ondan ibarətdir ki, ziyarət zamanı zəvvarlar spirtli içki qəbul etməməli, zinaya yol verməməli, hansısa siyasi və dini təriqətə qoşulmamalı, ölümə səbəb olan və digər ziyanverici hərəkətlərdən, eyni zamanda hər hansı siyasi aksiyalardan uzaq durmalıdırlar. Narkotik, zina, spirtli içki qəbuletmə və oğurluq əməllərinə görə şallaq, əl kəsilmə, daşqalaq olunma və müəyyən ağırlaşdırıcı hallarda ölüm cəzası da nəzərdə tutulur.

Qeyd edək ki, bu il Azərbaycandan Həccə 2700 zəvvarın aparılması nəzərdə tutulub. Bu il qiymətlərdə artım olduğu nəzərə çarpır. Sənədlərin qəbulu yalnız QMİ-də aparılır. Yaxın Şərqdəki vəziyyətlə əlaqədar olaraq ziyarət yalnız təyyarə reysləri ilə baş tutacaq.



# "Nemtsovun qətlinə görə 5 milyon rubl ödənilib"

**Rusiyalı müxalif siyasətçi Boris Nemtsov "Charlie Hebdo" jurnalının dərc etdiyi karikaturalara dair mövqeyinə görə qətlə yetirilib.**

Virtualaz.org saytı xəbər verir ki, "Rosbalt" agentliyi bu barədə B.Nemtsovun qətlinə dair istintaq materiallarına istinadən xəbər verir.

Məlumatda deyilir ki, onun öldürülməsi əməliyyatına 5 milyon rubl ayrılıb.

İstintaq materiallarına əsasən 2015-ci il yanvarın ortalarında Zaud Dadayev, Anzor Qubaşev və Beslan Şavanov "istintaq tərəfindən müəyyən edilməmiş şəxslərdən" Boris Nemtsovun qətlini planlaşdırmaq və həyata keçirmək barədə sifariş alıblar. Sifarişçi bunu "Nemtsovun Fransa jurnalında dərc edilən karikaturaları fəal şəkildə dəstəkləməsi" ilə əsaslandırıb. İstintaq hesab edir ki, Nemtsovun qətlində şübhəli bilinən Zaur Dadayev onun dini baxışlarını bölüşən müəyyən şəxslərin sifarişi əsasında hərəkət edib.

Agentlik "kimliyi müəyyən edilməmiş sifarişçi"nin Dadayevin xidmət etdiyi "Şimal" batalyonunun döyüşçüsü, Çeçenistanın Şelkovsk rayonu daxili işlər idarəsi rəisinin qohumu Ruslan Qeremeyev ola biləcəyini yazır.

İddia olunur ki, Dadayev, Qubaşev və Şavanov fevralın əvvəllərində Nemtsovu izləməyə başlayıblar. Fevralın 27-də Şavanov Nemtsovu izləyib və onun marşrutunu Dadayevə çatdırıb. Özü isə Qubaşevlə və hələ istintaqa müəyyən olmayan şəxslərlə birlikdə ətraf əraziyə nəzarət edib, qətlin icraçısını qoruyub.

Dadayev Nemtsovu güllələyəndən sonra Qubaşev avtomobilinə minərək hadisə yerindən qaçıb.

# Sumqayıtda faciə: biri araqdan, o biri qazdan öldü

**Sumqayıtda ölümlə nəticələnən iki bədbəxt hadisə baş verib. Lent.az-ın Daxili İşlər Nazirliyinin saytına istinadən məlumatına görə, martın 18-də Sumqayıt şəhərindən şəhər sakini Xalid Zeynalov alkoqoldan zəhərlənmə ilə xəstəxanaya gətirilib və orada ölüb.**

Bundan başqa, Sumqayıt şəhərində yaşayan Kərəm Şirinov evində dəm qazından zəhərlənərək ölüb.

Hər iki faktla bağlı araşdırma aparılır.




# «Azercell» dünyanın aparıcı idarəçi və iqtisadçıları ilə birgə sammitə qatıldı

**Qlobal iqtisadiyyatın əsas sektorlarını təmsil edən yüksək vəzifəli rəhbərlərin, iqtisadçıların, tənzimləyicilərin və dövlət qulluqçularının iştirakı ilə "The Economist Events" tərəfindən təşkil olunan Azərbaycan İnvestisiya Sammiti keçirilib. Bu sammit keçid iqtisadiyyatı olan dövlətin qarşısında duran əsas perspektiv, imkanlar və çağırışları müzakirə etmək üçün Bakıda dünyanın aparıcı idarəçi və iqtisadçılarını bir araya gətirib. "The Economist" jurnalının redaktoru Con Endryusun (John Andrews) sədrliyi altında keçən müzakirələrdə telekommunaksiya,bank, texnologiya, investisiya, istehsalat və təhsil sektorlarının aparıcı nümayəndələri iştirak edib. Forumda Enerji sektoru - növbəti fəsil: Azərbaycanın iqtisadi qüdrətinin əsasının inkişafı, Neft iqtisadiyyatı çərçivəsindən kənar: rəqabətqabiliyyətli mikroəsasın yaradılması,İnnovasiyalar, sahibkarlıq və diversifikasiya: maneələrin aradan qaldırılması, Rəqəmsal əsr: yeni iqtisadiyyat şəraitində texnologiya və telekommunikasiyalarınrolu kimi mövzularda çıxışlar edilib.**

**Azərbaycan rabitə bazarının lider mobil operatoru «Azercell Telekom MMC»nin Prezidenti vəzifəsini icra edən Vahid Mürsəliyev də forumda panel müzakirələrdə iştirak edib. Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyaları nazirliyi tərəfindən rəsmi olaraq foruma dəvət alan Vahid Mürsəliyev "Dönüş nöqtəsi: Azərbaycanı Texnologiyalarla İrəli Aparan Gələcək" mövzusunda Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyaları nazirinin müavini Elmir Vəlizadə, Azərbaycan Respublikası Təhsil nazirinin müavini Əziz Bayramov, «SINAM» şirkətinin prezidenti Elçin Əliyev və Azərbaycan Futuroloqlar Cəmiyyətinin təsisçisi və sədri Reyhan Hüseynova ilə müzakirələrə qatılıb.**

**Qeyd edək ki, «Azercell» hər zaman ölkənin telekommunikasiya sektoruna bir parçası olduğu TeliaSonera şirkətlər qrupunun ən qabaqcıl texnoloji nailiyyətlərini gətirmiş olub. 2012-ci ildə ölkədə ilk dəfə 4G texnologiyasını istifadəyə verən «Azercell» İKT sahəsində innovati layihələri dəstəkləyərək özünün Barama mərkəzində onların reallaşmasına şərait yaradır. Məlumat üçün bildirək ki, «Azercell» 2014-cü il ərzində Azərbaycanda telekommunikasiyanın inkişafına təqribən 57 milyon manat, ölkədə fəaliyyət göstərdiyi 18 il ərzində isə 1.67 milyard manat sərmayə yatırıb. «Azercell» ölkənin qeyri-neft sektorunun ən böyük sərmayədarı olmaqda davam edir.**

**Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.**



# Ərdoğan kürd liderə "ağlını itirib" dedi

**PKK terror təşkilatının siyasi qolu hesab olunan HDP-nin Çanaqqala zəfərinin yüzüncü ildönümü üçün nəşr etdiyi mesajda "Osmanlı kukla idi",- deməsi Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanı hirsləndirib. Musavat.com-un Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, Ərdoğanın HDP həmsədri Selaheddin Demirtaşa cavabı gecikməyib: "Şüurunu itirib!"**

Ərdoğan yüz il əvvəlki dövrün Osmanlı hökumətini "kukla" olmaqla günahlandıran HDP-yə hirslənib: "Bu gün bəziləri savaşımızı ciddi qəbul etmir. Bəzi özünü bilməzlər tarixini kiçildir. Onların etdikləri Çanaqqala zəfərini əsla kölgəyə sala bilməz".

**Onun sözlərinə görə, HDP-nin mesajı ölkəyə və millətə düşmənçilikdir:** "Biz 2015-ci ili, şanlı mücadilələrimizin, zəfərlərimizin 100-cü ildönümü kimi qeyd edərkən, bəziləri də bu ili Türkiyə əleyhdarlığının, Türkiyə düşmənliyinin bayrağına çevirmək istəyirlər. Erməni diasporu dünyanın hər yerində soyqırım iddialarına əsaslanan kampaniyaları Türkiyə düşmənliyini geniş cəmiyyət qruplarına aşılamağa çalışır. Bu kampaniyaların məqsədi tarixin bir dövründə ermənilərin acı yaşadığını göstərmək niyyətidir. Bu, birbaşa ölkəmizə və millətimizə düşmənçilik etməkdir. Məqsəd həqiqəti tapmaq deyil, Türkiyəyə hücum etmək, zərər verməkdir, başqa bir şey yoxdur. Bizim bu mövzuda kimsəyə verəcək bir hesabımız yoxdur. Biz yalnız öz millətimizin son 100-150 illik yaşadığı ağrıların arxasına düşsək, erməni iddialarından qat-qat daha çox söyləyəcək sözümüz, soruşacaq hesabımız çıxar".

**Ərdoğan erməni diasporuna da səslənib:** "Ey erməni diasporu, ey Ermənistan rəhbərliyi, gəlin, buyurun bizim arxivlərimizə. Sizin nə qədər sənədiniz var? Çıxarın sənədlərinizi, tarixçilərinizi, danışsınlar".

# Keçmiş siyasi məhbusa iş vermirlər

**Keçmiş siyasi məhbusların cəmiyyətə inteqrasiyası, iş məsələsində yaşadığı problemlər hər zaman gündəmdədir. NİDA-nın ötən əfv fərmanı ilə həbsdən çıxan üzvü Üzeyir Məmmədli də bu kateqoriyadandır. "Yeni Müsavat"a açıqlamasında gənc fəal dedi ki, hazırda ona heç bir iş imkanı yoxdur: "Təhsillə bağlı onu deyə bilərəm ki, xaricdə təhsil almaq istəyirəm. Ona görə də ingilis dilimi mükəmməlləşdirməyə çalışıram".**

❑ SEVİNC



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# 233=234?

**"El gözü tərəzidir" və yaxud da "Bütün zərb-məsəllər tarixin təcrübəsinə əsaslanır" deyərkən haqlımı oluruq? Doğrudan da elliklə danışılan sözlər və qəbul edilən ideyalar həqiqəti əks etdirir? Məncə, bütün hallarda belə deyil.**

Məsələn, "eşşək batdığı palçığa bir də girmir" el qənaətini götürək. Sizi inandırım ki, belə bir şey yoxdur. Eşşək bir dəfə batdığı palçığa min dəfə girər, lakin bunun yanlış seçim olduğunun fərqində olmaz. Əgər o, bir dəfə batdığı palçığa dübarə girməkdən qaçacaqdısa daha niyə eşşək olurdu ki? İllah da nəzərə alsaq ki, eşşəyin hərəkət marşrutunu o özü yox, onu sürən adam müəyyənləşdirir, bu deyim lap absurd görünür.

Yeri gəlmişkən, Bakıdan kəndə dincəlməyə gələn uşaqlar hər səhər qonşumuzun eşşəyinin dişlərini diş pastası və fırçası ilə təmizləyirdilər. Maraqlıdır ki, bu, eşşəyin çox xoşuna gəlirdi, uşaqlara işləmək üçün imkan yaradırdı. Amma bu qətiyyən o demək deyil ki, dişlərinin təmizlənməsi ideyası eşşəyin özünə məxsusdur. Eşşəyin həyat tərzində insan amilini unutmaq olmaz. Yəni deyirəm ki, bəzən ağ yalanlara həvəslə inanırıq.

Daha bir misal çəkim. Əminəm ki, stajlı "Neftçi" tərəfdarları məni təsdiqləyərlər. SSRİ dövründə belə bir inanc var idi ki, "Neftçi" qarpız çıxanadək yaxşı oynayır, qarpız çıxandan sonra uduzmağa başlayır. Halbuki ortada belə bir şey yox idi. Bu haqda bir "Neftçi" fanatı olan dostumla mübahisəm elə bil dünən olub. Yəni çox dəqiq xatırlayıram. Dostum səmimi şəkildə inanırdı ki, qarpızın çıxması "Neftçi"nin uğurlarının qarşısını alır. Axırda götürüb statistikanı onun qabağına qoydum və sübut etdim ki, elə mübahisə etdiyimiz il "Neftçi" qarpız çıxandan sonra daha çox xal yığıb, nəinki əvvəl. Amma nə olsun, adam dediyini deyirdi.

Hələ gənc yaşlarımdan eşitmişdim ki, məhbuslar Cinayət Məcəlləsini və Cinayət Prosessual Məcəlləni əzbər bilirlər. Çünki uzun-uzadı istintaq və məhkəmə prosesindən keçirlər, üstəlik də həbsxanada fərqli maddələrlə məhkum olunmuş insanlarla birlikdə olduqlarından bir-birindən hər şeyi öyrənirlər. Eşşəyin batdığı palçığa bir də girməməsi və "Neftçi"nin bostanın şah əsəri olan qarpızın yetişməsindən asılı olması nağıllarına inanmasam da məhkumların bu istedadı haqqında deyilənlərə inanırdım. Çünki inanmamağa heç bir əsasım yox idi, özü də ağlabatan qənaət idi. Lakin həbsxanada əmin oldun ki, məhkumların CM və CPM-i vəkillərdən və prokurordan yaxşı bilmələri haqda deyilənlər xeyli şişirdilib. Buna hələ Kürdəxanı təcridxanasında olanda əmin oldum. İki məhkumla tanış oldum. Biri artıq 7, digər isə 5 il yatmışdı. Sadəcə olaraq, "raskrutka" söhbətinə görə "zon"dan ora gətirilmişdilər. İkisi də CM-in 234-cü maddəsinə əsasən məhkum olunmuşdular. Bilməyənlər üçün deyim ki, "milli maddə" kimi tanınmış bu maddə narkotik cinayətinə aiddir. O vaxt mənə qarşı irəli sürülmüş maddə 233 idi ki, o da ictimai asayişin anasını ağlatmağı nəzərdə tutur. Bu qardaşlar hansı maddə ilə tutulduğumu soruşdular (Bu, "içəridə" bir qaydadır). Cavab verdim ki, 233. 233 də 234-lə qonşu maddədir axı. Növbəti suallarından belə başa düşdüm ki, onlar bu maddənin də narkotiklə əlaqədə olduğunu düşünürlər. Onlar 233-ün nə olduğunu soruşdular, mən də dedim ki, bu da 234 kimi narkotiklə bağlıdır. Narkotik əkmişdim, sadəcə olaraq, ona aqrotexniki qaydada qulluq etmədiyimə görə cəzalandırılmışam. 233-ə görə "ot"u vaxtlı-vaxtında suvarmalı, gübrə verilməli və lazımi qulluq göstərməli idim. Onlar lap şaşırdılar və belə sarsaq qanunu olan hökuməti o ki var söydülər. Dedilər ki, belə də şey olar, bizi narkotik yetişdirdiyimizə görə, səni isə yetişdirə bilmədiyinə görə tutublar. Bəs indi yazıq camaat neyləsin? Sözsüz ki, sonra onlara zarafat etdiyimi dedim və üzr istədim. Amma bir az dərindən fikirləşəndə doğrudan da tənqid olunası hökumətdir. Çünki nə beləyə razıdır, nə də eləyə. Fikir verin, hökumətimiz gedib bir sıra beynəlxalq təşkilatlara, konvensiyalara və xartiyalara qoşulub. Onlar da ki, ölkəmizin vətəndaşlarına sərbəst toplaşmaq, sərbəst yazmaq və seçmək hüququ verir. Amma kim bu yola ayaq basırsa, onları bir qayda olaraq 233 və 234-cü maddələrlə şərləyib tuturlar. Belə çıxır ki, hüquqi baxımdan CM-də dalbadal gəlmələrinə baxmayaraq, 233-lə 234-cü maddələr tamam fərqli mahiyyətli maddələr olsalar da praktik baxımdan çox oxşayırlarmış. Əslində həmin məhkumlarla zarafat etməmişdim və dolayısı ilə həqiqəti demişdim.

❑ **Tofiq YAQUBLU**

# Professor İlham Rəhimovun növbəti kitabı çapdan çıxıb

## "Cinayətkarlıq və Cəza" adlı kitabda cinayətkarlığın təbiəti və səbəbləri, cinayət cəzasının forma və növləri araşdırılır

**Hüquq elmləri doktoru, professor İlham Rəhimovun Moskvada rus dilində çap olunmuş "Prestupnost i nakazanie" (Cinayətkarlıq və Cəza") adlı növbəti kitabı Bakıda "Şərq-Qərb" Nəşriyyat Evi tərəfindən Azərbaycan dilində çapdan çıxıb.**







Kitabda cinayətkarlığın təbiəti və səbəbləri, cinayət cəzasının forma və növləri, cəza təyini zamanı ədalətliliyin hüdudları və dövlətin onun realizəsində qanunçuluğun təmin edilməsi məsələləri araşdırılır. Müəllif öz tədqiqatını möhkəm metodoloji əsas üzərində qurmuşdur. Kitabda cinayət cəzasının anlayışı və əhəmiyyətinin tarixi aspekti ətraflı nəzərdən keçirilir, bu problem üzrə tarixən mövcud olan fəlsəfi baxışlar təqdim edilir, müxtəlif məktəblərin və elmi istiqamətlərin nümayəndələrinin əsas yanaşmaları əks etdirilir.

Kitab təkcə cinayət hüququ və kriminologiya sahəsi üzrə mütəxəssislər, hüquqşünaslar, filosoflar və sosial psixoloqlar üçün deyil, həm də geniş oxucu kütləsi üçün maraqlı olacaqdır.

❑ **Musavat.com**

# "Qızıl əfv" ümidi indi də maya qaldı

## Bu Novruzda da siyasi məhbus problemi həll edilmədi; hüquq müdafiəçilərinin İşçi Qrupundan çıxmasına çağırış olundu; mayda əfv olacağına ümid edilir

**Prezident İlham Əliyev martın 18-də növbəti əfv sərəncamı imzaladı. Sərəncamla 101 nəfər cəzadan azad edildi; bunlardan 90 nəfəri həbsdən buraxıldı, 7 nəfərin cəriməsi bağışlandı, 4 nəfər isə islah işlərindən azad olundu. Bu sərəncamla siyasi məhbusların bir qisminin azad ediləcəyi gözlənilsə də, yalnız 4 nəfəri əfvə düşüb.**



Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin (SMDT) icraçı direktoru Bəşir Süleymanlı, sabiq müsavatçı Orxan Əyyubzadə, iki hicab məhbusu Anar Qasımlı və Ramil Vəliyev azadlığa buraxılıb. Hüquq müdafiəçiləri əfv siyahısına NİDA üzvlərinin, Müsavat başqanının müavini Tofiq Yaqublunun, REAL Hərəkatının sədri İlqar Məmmədovun, sabiq səhiyyə naziri Əli İnsanovun və prezidentin işlər idarəsinin sabiq müdiri Akif Muradverdiyevin adının daxil edildiyi bildirmişdilər. Amma əfv ümidləri doğrultmadı.

**Hüquq müdafiəçisi Səadət Bənəniyarlı "Yeni Müsavat"a bildirdi ki, ümumilikdə əfv fərmanının verilməsi müsbət haldır:** "Mən istəməzdim ki, yenidən bu fərmanı araşdıraq. Ancaq onu da deməzdim ki, ümidləri doğrultmadı. Hər bir halda bu, mənim subyektiv fikrimdir. Çünki əfv verilməsini müsbət qiymətləndirirəm, yüzlərlə insan ailəsinə qovuşdu. Hər bir əfv özlüyündə müsbət haldır. Bizim siyahıdan isə 4 nəfər siyasi dustaq azadlığa çıxdı. Bu istiqamətdə işlərimizi davam etdiririk. Ümid edirik ki, mayda əfv olsun və siyahımızda qalanlar da çıxsınlar".

**Hüquq müdafiəçisi qeyd etdi ki, Ə.İnsanov da onların siyahısında yer alırdı, A.Muradverdiyev üçün səhhətinə görə ayrıca müraciət olunmuşdu:** "Ancaq müsbət cavab verilmədi. Arzu edirik ki, növbəti əfv fərmanında siyahımızda heç kəs qalmasın".

**Müsavat başqanı Arif Hacılı facebook səhifəsində əfvi belə qiymətləndirib:** "İmzalanan əfv fərmanı ilə nəinki siyasi məhbus problemi həll edilmədi, hətta bu istiqamətdə bir addım da atılmadı. Bu fərman Azərbaycan hakimiyyətinin cəmiyyətlə hesablaşmaq niyyətində olmadığını, bəyan etdiyi demokratik prinsiplərə, götürdüyü beynəlxalq öhdəliklərə hörmətsizliyini bir daha nümayiş etdirdi".

**Müsavat başqanının müavini Elman Fəttah bu əfv fərmanını siyasi məhbus problemini həll edəcək sənəd hesab etmir. Onun sözlərinə görə, hakimiyyət vicdan məhbuslarını sındırmaqla, aman dilətməklə azadlığa buraxmaq xəttini tutub:** "Biz isə tələb edirik ki, günahsız yerə həbs olunanlar azad edilsin. Onlar öz ləyaqəti ilə azadlığa çıxmalıdır. Penitensiar Xidmət siyasi məhbuslardan alçaldıcı müraciətlər yazmağı tələb edir. Bəzilərindən alınan bu müraciətlər isə onları qane etməyib və aylar əvvəl əfv ərizəsi yazsalar da, hələ də həbsdə saxlanılırlar".

**E.Fəttah İşçi Qrupunun əhəmiyyətsiz quruma çevrildiyini düşünür:** "Mən bu qurumda təmsil olunan və özünü ləyaqətli sayan şəxsləri oranı tərk etməyə çağırıram. Çünki bu, hökumətin layihəsidir".

**Başqan müavini Avropa Şurası həmsədrlərinin Tofiq Yaqublu ilə niyə görüşmədiyinə aydınlıq gətirdi:** "İlqar Məmmədov və Rəsul Cəfərov Avropa institutlarının məmurlarıdır. Ona görə də bu məsələdə ayrı-seçkilik görmürəm. Avropa Şurası və Avropa Birliyi siyasi məhbusların azad olunması üçün çalışır. Eyni zamanda Fərəc və Sirac qardaşları, Tofiq Yaqublu və Yadigar Sadıqov vicdan məhbusu elan edilib. Görüşməmək onların öz seçimidir. Ancaq həmsədrlərdən biri Tofiq Yaqublu ilə 13-cü cəzaçəkmə müəssisəsində bir dəfə görüşüb".

❑ **E.SALAMOĞLU**

YENİ MÜSAVAT
N 62 (6090) 20 mart 2015



# Diplomatiya da siyasətə tabe olanda...

Hüseynbala SƏLİMOV

**Hətta ən həssas adamların "Öz dərdimiz azdır ki?" dediyi bir vaxtda söhbəti bir az uzaqdan başlamaq o qədər də asan deyil. Amma dünya bütövdür, biz də bu bütöv dünyanın bir hissəsiyik...**

Həm də bütün hadisələr, bütün proseslər orijinallığa iddia edə bilmir. Ən uzaq hadisələrdə belə baxıb görürsən ki, haradasa yaxın cəhətlər var...

Bu baxımdan bu gün Ukraynada, daha doğrusu, onun ətrafında baş verən proseslər elə də maraqsız deyil. Cəmi bir gün əvvəl Krımın Rusiya Federasiyasının tərkibinə daxil olması haqdakı müqavilənin təsdiq olunmasından bir il ötdü...

Qərb dövlətləri hadisəyə bir qədər şablon bəyanatla münasibət bildirdilər: onlar bəyan etdilər ki, Krım Ukraynanın tərkibinə qaytarılmayınca Rusiyaya qarşı tətbiq edilən sanksiyalar götürülməyəcək.

Amma zahirən şablon xarakteri təsiri bağışlayan bu bəyanatın arxasında bütün hallarda əzm də hiss olunur: Qərb həqiqətən də Rusiyanı bir bundan əvvəl qəbul etdiyi qərardan çəkindirmək istəyir...

Bunun özü də böyük işdir. Digər münaqişələrə münasibətdə təəssüf ki, belə əzmkarlıq nümayiş etdirilmir. Bu vaxta qədər nə Dağlıq Qarabağ, nə Abxaziya, nə Osetiya, nə də Dnestryanı münaqişəyə görə kimsə sanksiyalarla təhdid olunmayıb...

Sadalanan münaqişələrə tətbiqən həmişə "axımlı formullar"dan istifadə olunub, bu münaqişələrin arxasında dayanan əsas fiquru, iştirakçını görmək istəyi duyuulmayıb və bu, haqlı olaraq həmişə gileylərə, narazılıqlara rəvac verib...

Krımın ilhaqının bir illiyi günündə Dağlıq Qarabağ problemi ilə bağlı da müəyyən açıqlamalar oldu. Məlum oldu ki, siyasi sazişin imzalanması üçün nəzərdə tutulan işçi qrupunun yaradılmasından Ermənisan birtərəfli qaydada imtina edib...

Bu isə o deməkdir ki, hələ bir müddət də üzücü danışıqlar, bölgəyə "get-gəl"lər davam edəcək. Hətta Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov bildirdi ki, o, prosesin gedişi ilə bağlı optimist deyil. Adətən tərəflər belə aşıq etiraflar etmirlər, çünki bu halda "Bəs bu vaxta qədər nə edirdiniz?" kimi suallar meydana çıxar...

Amma proses elə də asan deyil. Yazının əvvəlini Krımla başladıq. Bəlkə də Ukraynanın şərqi ilə bağlı da beynəlxalq təşkilatlar, aparıcı dövlətlər "Ukrayna ilə onun şərqindəki etnik ruslar və yaxud da ki, yerli əhali arasında gedən müharibə" kimi yaza bilər, hətta Krıma da eyni prizmadan və məntiqdən yanaşar, oradakı prosesi "Ukrayna ilə onun Krım bölgəsindəki yerli əhali ilə" arasındakı problem kimi təqdim edə bilərdilər...

Amma xoşbəxtlikdən belə olmadı. Ukraynada qərb dövlətləri lap əvvəldən Rusiyanın rolunu çox düzgün qiymətləndirdilər. Amma Qarabağla bağlı belə olmamışdı. Elə bir az əvvəldə sadaladığımız münaqişələrlə bağlı da belə olmadı. Qarabağ problemi ilə bağlı qəbul edilmiş 822 saylı qətnamənin mətnindəki "etnik ermənilər" ifadəsi hələ də yadımızdadır-orada yazılmamışdı ki, Kəlbəcər Ermənistan və ya Rusiya tərəfindən, yaxud da ki, onların birgə fəaliyyəti nəticəsində işğal olunub. Qətnamədə tələb olunmurdu ki, Rusiya və ya Ermənistan qüvvələri işğal olunmuş Kəlbəcər rayonundan çəkilsin, orada deyilirdi ki, Qarabağın "etnik erməni əhalisi" işğal olunmuş Kəlbəcər rayonunu qeyd-şərtsiz azad etsin...

Təsəvvür edin, Qarabağ münaqişəsinin başlanmasından 27 il ötür. Bu müddət ərzində yalnız bircə dəfə münaqişənin gedişində Rusiyanın iştirakına işarə edilib. Onu da bu yaxınlarda Almaniyanın kansleri Angela Merkel etmişdi və insanlar onun diplomatik vurğulara uyğun şəkildə ifadə edilmiş bəyanatını elə bil məlhəm kimi qəbul etdilər. Dərhal hər yerdən təkliflər səsləndi ki, qoy, Almaniya Minsk Qrupunun üçüncü həmsədri olsun, əgər bu da alınmazsa, heç olmasa Avropa Birliyi münaqişənin nizamlanmasına cəlb edilsin...

Amma bir detalı da qeyd etmək lazımdır. Təxminən eyni təbiətli münaqişələrə münasibətdə asimmetrik vəziyyətin yaranması həm də rəsmi Bakının öz günahı ucbatından olub. Hələ bu vaxta qədər bir dəfə belə olsun, rəsmi Bakı Qarabağ münaqişəsində Rusiyanın iştirakına işarə vurmayıb. Onlar belə hesab edirlər ki, belə bəyanatlar Rusiyanı daha aqressivləşdirər, münaqişənin həllini bir az da çətinləşdirər. Amma Qərbi tənqid edirlər. Soruşanda ki, bəs niyə Rusiyanı yox, Qərbi tənqid edirsiniz, qayıdıb deyirlər ki, ona görə ki, Rusiya bizi tənqid etmir...

Deməli, məsələ heç də Rusiyanın bir az da aqressivləşməsində deyil-qaradan tünd rəng olmur, Rusiya bundan artıq nə edəcək ki? Məsələ ondadır ki, ölkədə diplomatiya da ilk növbədə hakimiyyətin özəl maraqlarına tabe edilib. Sonra da durub deyirlər ki, optimist deyilik...



# Cəbhədə böyük savaş - 20 erməni əsgəri öldürüldü

## TANAP-ın təməlinin qoyulmasından dərhal sonra düşmən ölkə cəbhədə məkrli planlara əl atmağa başlayıb; Azərbaycan Ordusu ermənilərin təxribatlarının qarşısını alıb

**"Martın 19-da cəbhədə baş vermiş döyüş toqquşması nəticəsində müdafiənin ön xəttində yerləşən əsgər və zabitlərimiz düşmənə ağır zərbə vuraraq 20-dək hərbi qulluqçusunu məhv edib və yaralayıb". Bu açıqlamanı Azərbaycan Müdafiə Nazirliyinin rəsmi saytı yayıb.**

Nazirlik bildirir ki, qoşunların təmas xəttində guya Silahlı Qüvvələrimizin bölmələri tərəfindən təxribat törədilməsi barədə Ermənistan kütləvi informasiya vasitələrinin yaydığı məlumatlar həqiqətə uyğun deyil və dezinformasiya xarakteri daşıyır: "Ermənistanın Müdafiə Nazirliyi cəbhədə ölən əsgərlərin analarının ölkənin hərbi-siyasi rəhbərliyinə qarşı qəzəbinin artmasından ehtiyat edərək uğursuz hərbi əməliyyatları və itkilərinin sayı barədə məlumatları qəsdən gizlədir, xalqın fikrini yayındırmağa çalışırlar".

**MN qeyd edir ki, Silahlı Qüvvələrimizin tank bölmələrinin heyətləri qarşısında çıxış edən müdafiə naziri general-polkovnik Zakir Həsənov ermənilərin son vaxtlar cəbhədə vəziyyəti gərginləşdirmək məqsədilə törətdikləri təxribatlara cavab olaraq bildirib ki, düşmən birmənalı olaraq anlamalıdır ki, o özgə torpağına soxulub və sağ-salamat qalmasının yeganə yolu işğal olunmuş Azərbaycan ərazilərini tezliklə və birdəfəlik tərk etməsidir:** "Əks təqdirdə, düşmənin cəbhədəki hər bir hərəkətinin qarşısı hərbi qulluqçularımız tərəfindən daha amansız alınacaq, vurulacaq zərbə isə ölümcül olacaqdır".

Müdafiə Nazirliyi bildirir ki, cəbhədəki döyüş toqquşması barədə təsdiqedici materiallar əlavə olaraq təqdim ediləcək.

MN həmçinin bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 58 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tərtər rayonunun Çaylı, Qızıloba, Göyarx, Çiləbürt, Ağdam rayonunun Şuraabad, Cəvahirli, Qaraqaşlı, Kəngərli, Sarıcalı, Şıxlar, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Erməni mətbuatı martın 19-da məhv edilən erməni hərbçilərdən bəzilərinin adlarını açıqlayıb.

ANS PRESS-in məlumatına görə, hələ ki bunlar 1996-cı il təvəllüdlü Hakop Xaçatryan, 1995-ci il təvəllüdlü Eduard Hayrapetyan, 1995-ci il təvəllüdlü Arşak Harutunyandır.

Ermənistanın tanınmış jurnalisti Romella Mnasakanyan isə itkilərin xeyli çox olduğunu bildirib.

"Ermənistan rəhbərliyi erməni anaların qəzəbindən qorxaraq itkini gizlədir", - deyə o vurğulayır.

***

Ermənistan artıq neçə aylardır ki, cəbhə xəttində hər gün təxribatlar törədir, düşmənin diversiya qrupları dəfələrlə təmas xəttini yarmağa cəhd ediblər. Onların bu cəhdlərinin qarşısı alınarkən ermənilər hər dəfə xeyli itkilər veriblər. Ancaq görünən budur ki, Ermənistan öz məkrli planlarından əl çəkmək istəmir. Heç şübhəsiz, cəbhə xəttində gərginliyin artırılmasına çalışmaqla, düşmən ölkə müəyyən məqsədlər güdür, danışıqlar prosesinin - böyük sülh sazişinin imzalanmaması, işğal etdikləri torpaqları azad etməməsi, mövcud status-kvonun saxlanılması üçün əlindən gələni etməyə çalışır...

Ekspertlər onu da qeyd edirlər ki, bugünlərdə ermənilərin daha da azğınlaşmasının səbəbi martın 17-də TANAP layihəsinin əsasının qoyulması ilə bağlı ola bilər. O mənada ki, bu, 21-ci əsrin layihəsi adlandırılır və Azərbaycanın bölgədə, dünyada çəkisinin ciddi şəkildə artması ilə nəticələnəcək. Heç şübhəsiz ki, bu layihənin Dağlıq Qarabağ məsələsi ilə bağlı da Azərbaycan üçün əhəmiyyəti böyükdür. Həmçinin Ermənistan bu regional layihədən də kənarda qalıb. Ölkəmizin bu uğurunu görən, faktiki olaraq iqtisadiyyatı Azərbaycanla müqayisədə qəpik-quruş üzərində qurulan Ermənistanın təxribatlar törətməklə Azərbaycanı müharibəyə vadar etməyə çalışması, bölgədə sabitliyi pozmaqla iqtisadi uğurları ləngitmək kimi məkrli planlarının olması kifayət qədər inandırıcı versiyadır...

Amma təbii ki, Azərbaycan bütün variantlarda Ermənistanı neytrallaşdırmağa qadirdir.

**Yeri gəlmişkən, elə martın 19-da Novruz şənliyində çıxış edən Azərbaycan prezidenti İlham Əliyev ermənilərə sərt mesaj vermişdi. Prezident çıxışında Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmamasına təəssüfləndiyini bildirib:** "Müxtəlif səviyyəli görüşlərin keçirilməsinə baxmayaraq, Ermənistan təxribatçı hərəkətlərindən əl çəkmir. Şəhidlərimizin qanı yerdə qalmamalıdır və qalmır da".

**Prezident bildirib ki, təmas xəttində ordumuz vəziyyətə tam nəzarət edir:** "Əsgərlərimiz Vətəni ləyaqətlə qoruyurlar. Ordu quruculuğu bizim üçün əsas vəzifədir. Azərbaycan ordusu indi dünyada öz gücü, texniki təchizatı ilə fərqlənir".

Dövlət başçısının sözlərinə görə, güclü ordu, güclü iqtisadiyyat, vətəndaş həmrəyliyi, düşünülmüş siyasət, sosial vəziyyət cəmiyyətdə bərqərar olmalıdır.

İlham Əliyev qeyd edib ki, Azərbaycanda iqtidarla xalq arasında möhkəm birlik var.

**Bir neçə gün öncə təməli qoyulan TANAP qaz kəmərinin əhəmiyyətindən danışan prezident vurğulayıb ki, Azərbaycan öz enerji təhlükəsizliyini təmin edib və ölkədə hasil olunan qaz dünya və Avropa üçün böyük əhəmiyyət daşıyır:** "Bundan əlavə, görülən işlər Azərbaycanın geosiyasi əhəmiyyətini də artırır. Azərbaycanın yürütdüyü siyasət ədalətli siyasətdir. Azərbaycan bu gün dünya miqyasında nümunəvi ölkə kimi tanınır. Bakının inkişafı ilə bağlı həyata keçirilən tədbirlər bu gün onu dünya miqyaslı sərvətə çevirib".



Ermənilərin təxribatlarının TANAP-la bağlı olması İlham Əliyevin Ermənistana mesajlar verdikdən sonra çıxışını TANAP layihəsi ilə bağlı danışmaqla yekunlaşdırmasından da sezmək mümkündür...

Düşmən ordusunun öz təxribatlarının və yanlış siyasətlərinin nəticəsi olaraq cəbhə xəttində böyük itkilər verməsi Ermənistanda əsgər analarının küçələrə çıxmasına səbəb olub.

Övladları işğal olunmuş Azərbaycan ərazilərində həlak olmuş bir qrup əsgər anası martın 19-da yenə Ermənistan prezidentinin administrasiyası qarşısında etiraz aksiyası keçiriblər.

Onlar övladlarının həlak olması ilə bağlı cinayət işinin açılmasını tələb edirlər.

❑ T.ƏHMƏDLİ

# "Bakı-2015"in ilk biletini İlham Əliyev aldı

**Azərbaycan prezidenti İlham Əliyev "Bakı-2015" Avropa Oyunlarının ilk biletini alıb. Lent.az-ın "AzVision.az"a istinadən xəbərinə görə, bu barədə Avropa Oyunları 2015-in mədəni tədbirləri üzrə müşaviri Zəhra Bədəlbəyli məlumat verib.**

O bildirib ki, prezident bileti martın 19-da səhər saatlarında alıb.

# ATV-nin vitse-prezidentinin həyat yoldaşı intihar etdi

**Bakıda intihar hadisəsi baş verib. Xəzər Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, hadisə Mərdəkan qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini, 1972-ci il təvəllüdlü Kərimova Mehparə Məmmədağa qızı yaşadığı evdə kəsici alətlə özünə xəsarət yetirib. Nəticədə o, aldığı xəsarətdən dünyasını dəyişib.**

İntiharın səbəbləri hələlik məlum deyil.

Faktla bağlı Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb, istintaq gedir.

Qeyd edək ki, intihar edən qadın ATV-nin vitse-prezidenti Məqsəd Nurun həyat yoldaşıdır. Məqsəd Nur intihar olayı barədə qısa açıqlama verib. Aznews.az-ın xəbərinə görə, o bildirib ki, hadisənin necə və niyə baş verməsi barədə danışmaq çox çətindir: "Mən hazırda yasdayam. Özümü çox pis hiss edirəm. Bu barədə danışmaq ağırdır. Həmkarlarımdan xahiş edirəm ki, məni başa düşsünlər".

# Bank sektorunun "boz kardinal"ının qəfil istefasının şok səbəbləri



**"Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Cahangir Hacıyevin martın 18-də axşam istefaya getməsinin səbəbləri mediada ciddi müzakirə mövzusuna çevrilib. Bəzi ekspertlər bunu indi də Cahangir Hacıyevə qarşı "Qara kəmər əməliyyatı" hesab edirlər ki, bu bənzətmə də təsadüfi deyil. Çünki 2005-ci ilin martında C.Hacıyevin həyat yoldaşının oğurlanması səbəbindən MTN ölkəni silkələyən "Qara kəmər" əməliyyatı keçirmişdi və Hacı Məmmədovun bandasını ifşa etmişdi.**



# Cahangir Hacıyevə qarşı "Qara kəmər" əməliyyatı

## Beynəlxalq Bankın səhmlərinin satışa çıxarılacağına sayılı günlər qalmış İdarə Heyəti sədrinin "səhhəti ilə bağlı istefası" müəmmaları daha da artırır; onun son 14 illik fəaliyyətinin ciddi araşdırılacağı və "cəriməni" artıqlaması ilə ödəyəcəyi iddia olunur; ölkənin ən varlı oliqarxlarından birini nə gözləyir?

H.Məmmədov məhkəmədə etiraf etmişdi ki, ölkənin ən varlı adamlarından olan Cahangir Hacıyevdən arvadını azad etmək müqabilində 15 milyona yaxın avro tələb etmək istəyiblər. "Biz Cahangir Hacıyevdən həmin məbləği ala bilmədik, əvəzində isə məni tutub MTN-ə apardılar və Zamirə Hacıyevanı azad etdilər" deyə, məşhur qanqster məhkəmədə söyləmişdi. C.Hacıyevin 10 il sonra, məhz yenə də mart ayında mətbuatın gündəminə gəlməsi, onun əsl səbəbləri açıqlanmayan istefası, elə hələ də bir çox gizlinləri özündə saxlayan "Qara kəmər" əməliyyatını yada salması təbiidir...

***

Martın 18-də axşam Beynəlxalq Bankın İdarə Heyətinin toplantısında "səhhəti ilə bağlı istefası qəbul edilən" C.Hacıyevin başı üzərində "qara buludlar" son vaxtlar daha da sıxlaşmışdı.

C.Hacıyev Azərbaycan və regionun ən iri bank kredit təşkilatı olan Beynəlxalq Banka 2001-ci ildən rəhbərlik edirdi. C.Hacıyev üzün illərdir ki, ölkənin bank sektorunun önəmli simalarından biri və bəlkə də birincisi olub. O, Beynəlxalq Bankla yanaşı, oliqarxlarla birgə *(məsələn, Hafiz Məmmədovla ("Hafka") bir sıra bankları da (məsələn,"Banktechnique", keçmiş "Texnikabank"))* ya qeyri-rəsmi idarə edib, ya da şərik olub. Onun Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmova da ciddi təsir gücünün olduğu deyilir. C.Hacıyevi hətta bank sektorunun "boz kardinal"ı hesab edənlər də var.

Məşhur "Forbes" jurnalında vaxtilə "dünyanın bank qurumları Cahangir Hacıyev və ABB-yə güvənirlər" deyə, yazı dərc etmiş, onu "etimad göstərilən və islahatlar üzrə lider" də adlandırılmışdı. C.Hacıyevin müəmmalı istefasının bankın səhmlərinin satışa çıxarılacağına sayılı günlər qalmış baş verməsi bu məsələdə müəmmaları daha da artırır.

Qeyd edək ki, martın 29-dan etibarən Bakı Fond Birjasında (BFB) "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin səhmlərinin satışına başlanılacaq. Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin bu ilin martın 11-də qeydə aldığı səhm emissiyasına görə, emissiyanın məbləği 100 milyon 17 manat, qiymətli kağızın miqdarı 370 milyon 370 min 371 ədəd, səhmlərin nominal dəyəri isə 27 manatdır. Emissiya baş tutsa, bankın nizamnamə kapitalı 17% və yaxud 100 milyon manat artaraq, indiki 590 milyon manatdan 690 milyon manata çatacaq.

Məlumat üçün bildirək ki, Beynəlxalq Bank ölkənin ən kapitallaşdırılmış bankıdır. Bank bazar payına və əmanətlərin həcminə görə Azərbaycanda ən böyük bank sayılır. Bankın nizamnamə fondunun 50,2 faizi dövlət müəssisələrinin, 3,27 faizi qeyri-dövlət müəssisələrinin, 38,63 faizi fiziki şəxslərin, 7,9 faizi xarici təsisçilərin payına düşür. Bankın dövlətə aid səhmləri Maliyyə Nazirliyi tərəfindən idarə olunur. İddialara görə, C. Hacıyevin hazırkı həssas dövrdə qəfil istefası dövlətə məxsus olan səhmlərin özəlləşdirilməsi və bankın yenidən strukturlaşması ilə əlaqədar ola bilər. Ölkənin bank sektorunun ağır bir dövrə qədəm qoyduğu hazırkı şəraitdə 1 milyona qədər müştərisi olan Beynəlxalq Bankın İdarə Heyəti sədrinin istefası əlbəttə ki, C.Hacıyevin səhhətinə bağlı məsələ deyil.

***

Beynəlxalq Bankın hələ 1998-ci ildən özəlləşdiriləcəyi barədə məlumatlar vardı. Lakin o vaxtdan indiyə kimi özəlləşdirmə istiqamətində hər hansı ciddi addım atılmamışdı. İndi gözlənilir ki, hökumət neftin qiymətinin kəskin düşməsi səbəbindən bankın özəlləşdirməsi prosesini sürətləndirməyə qərar verib və bu səbəbdən "yeni dövr" üçün C.Hacıyev lazımsız kadra çevrilib.

C.Hacıyevin müəmmalı istefasının səbəbləri sırasında bankın ciddi borclanması və bankirə yaxın olan müxtəlif şəxslərin ona (əslində dövlətə) külli miqdarda "atması" da var. Xəbərlər var ki, Beynəlxalq Bank naməlum səbəblərdən 2013-2014-cü illərdə büdcəyə divident ödənişini dayandırıb. Bugünlərdə isə məlum olub ki, bank 2015-ci ildə də ciddi problemlərlə üzləşən dövlət büdcəsinə yenə də divident ödəmək gücündə deyil. *("Dividentlər" dövlətin payı olan müəssisələrdən alınan gəlirə deyilir).*

Rəsmi rəqəmlərə görə, 2013-cü ilə qədər büdcəyə pul verən müəssisələr sırasında Beynəlxalq Bank da vardı. 2008-2012-ci illərdə bank hər il dövlət büdcəsinə 3-5 milyon manat divident ödəyirdi. 35 filialı (bunların bir neçəsi ölkə xaricindədir) və 42 şöbəsi olan bankın son üç ildə külli miqdarda dividentlərin dövlət büdcəsindən yayındırılması ilə bağlı ciddi şübhələr vardı. Az qala bank aktivlərinin 40 faizi, kreditlərin və əmanətlərin üçdə birini əlində cəmləyən Beynəlxalq Bankın buna rəğmən büdcəyə 1 manat da ödəməməsi həqiqətən də göz yumulası fakt deyildi. Məlumatlara görə, hakimiyyətin C.Hacıyevə qəzəbi ciddidir və onun hətta "ortaq ödənək"dən də xeyli pul yayındırdığına dair şübhələr var. Hakimiyyət adətən bu cür halları heç kimə bağışlamır və həmin adamlar ciddi cəzalandırılır. Böyük ehtimalla C.Hacıyev təkcə "səhhəti ilə bağlı" istefası ilə hakimiyyətlə üzülüşə bilməyəcək, onun son 14 illik fəaliyyəti ciddi araşdırılacaq və "cəriməsi" artıqlaması ilə ödədiləcək.



Qeyd edək ki, banka rəhbərlik etdiyi dövrdə C.Hacıyev ölkənin ən varlı oliqarxlarından birinə çevrilib. O, xüsusilə paytaxt Bakıda elit yaşayış binalarının tikintisinin şəriksiz sahibidir. 2002-ci ildə o, "Yeni Həyat" şirkətlər qrupunu təsis edib. Şirkətlər qrupu Bakının mərkəzində və mərkəzə yaxın ərazilərdə eyni adlı yaşayış massivləri inşa edib. Hazırda "Yeni Həyat" şirkətlər qrupu Bakıda nəhəng "Azure Park" yaşayış kompleksinin tikintisini həyata keçirir. Tikintini C.Hacıyevin idarəetməsində olan "Banktechnique" (keçmiş "Texnikabank") maliyyələşdirir. Bundan başqa, keçmiş bankir bir neçə istehsal müəssisəsi (məsələn, Binəqədidə ayaqqabı fabriki), cücə-toyuq fermasının da daxil olduğu ASC-lərin sahibidir.

Qeyd edək ki, Cahangir Hacıyev "İnter"in fəxri prezidenti olmaqla yanaşı, həm də AFFA İcraiyyə Komitəsinin üzvüdür. C.Hacıyevin istefasından sonra Beynəlxalq Bankın himayəsində olan "İnter"in taleyinin necə olacağı sual altındadır. Belə ki, yeni sədrin kluba himayədarlıq etməkdən imtina edəcəyi halda "bankirlər" də sponsorsuz klublar sırasına qoşulacaq.

Bankın İdarə Heyətinə müvəqqəti rəhbərlik Emil Mustafayevə həvalə olunub. O, bankın İdarə Heyətinə cəmi iki il əvvəl gətirilib. O, hakimiyyətdəki ikinci məşhur soyadın kadrı kimi də tanınır. Belə ehtimallar var ki, C.Hacıyevin səhmlərin satışa çıxarıldığı bir vaxtda istefaya göndərilməsi ilə bank sektorunun bütövlükdə həmin soyadın nəzarətinə keçməsi prosesi tam yekunlaşıb.

E.Mustafayevdən başqa bankın rəhbərliyinə daha üç şəxs daxildir: Vaqif Əkbərov, Qubad Hüseynov və Rəşad Hacıyev. Hazırda Beynəlxalq Bankın üç əsas rəhbər orqanından ikisinə isə Maliyyə Nazirliyinin nümayəndələri rəhbərlik edir: nazir müavini Azər Bayramov Müşahidə Şurasının sədri, nazirliyin şöbə rəisi Ziyəddin Allahverdiyev isə bankın Auditor Komitəsinin rəhbəridir.

Bundan əlavə, səhmdarların ümumi yığıncağında istənilən mühüm məsələyə dair qərarın qəbulunda həlledici söz bankın 50,2 faiz səhminə sahib olan dövlətə məxsusdur.

C.Hacıyevin Novruz bayramı ərəfəsi, medianın da istirahətə göndərildiyi ərəfədə istefası da qarışıq suallar doğurub. Hər halda, yaxın günlərdə C.Hacıyevin taleyinə aydınlıq gələcəyi gözlənilir...

❑ **"Yenì Müsavat"**



# Erməni dövlətinin gerçək qarantı - Türkiyə...

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**İşğalçı Ermənistan daşları vaxtında ətəyindən töksəydi, Azərbaycan, Türkiyə, Gürcüstan əleyhinə əsassız ərazi iddialarında bulunmasaydı, qonşu müstəqil ölkələrə qarşı Rusiyanın əlində maşaya çevrilməsəydi, indi şübhəsiz, özü güvəndə, əhalisi rifahda olan, çiçəklənən məmləkət idi. Bunu adi riyazi, siyasi məntiq diktə edir.**

Nə yazıq ki, özünü böyük güclərin çətiri altına verən və bu səbəbdən qonşularını asıb-kəsən, güclünün yanında böyük görünməyə çalışan mənfur qonşulara belə şey hələ çatmır. Onlar hələ də başından böyük, sərsəm və irreal iddialarla yaşayır, əllərində alətə çevrildikləri Rusiyanın, Qərbin, Amerikanın, ABŞ Konqresinin köməyi ilə mistik hədəflərinə çatmağa ümid edirlər.

Ancaq 100 ildir dünya, 70 ildir isə BMT bu iddiaları ciddiyə almayıbsa, qardaş ölkəyə qarşı hansısa tədbir görməyibsə, tələblər irəli sürməyibsə, bundan sonra sürüləcəyi də mümkün görünmür. Elə o səbəbə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan dünən bir daha erməni toplumunu gerçəkçi olmağa, nə qədər gec deyil, sağlam şüurun diktəsi ilə hərəkət etməyə səsləyib. "Ey erməni diasporu, ey Ermənistan rəhbərliyi, gəlin, buyurun, bu, bizim arxivlərimiz. Sizin nə qədər sənədiniz var? Çıxarın sənədlərinizi, tarixçilərinizi, danışsınlar", - deyə növbəti dəfə problemi aradan götürməyin ən optimal, ən ədalətli yolunu təklif edib o.

Erməni başbilənləri isə hələ ki "kim nə çalır-çalsın, biz "Heyvagülü" oynayacağıq" məntiqinə üstünlük verib də ağlasığmaz isterika ilə saxta "genosid" iddialarının 100 illiyinə hazırlaşırlar. Əslində isə yenə özlərini aldatmaqla məşğuldur. Çünki dünyanın uydurma erməni məsələsinə münasibəti 24 aprel 2015-ci ildən sonra da dəyişməz qalacaq. Bunu da adi siyasi, riyazi məntiq pıçıldayır...

Hərçənd, realist düşünən erməni ziyalıları da var. Türkiyə baş nazirinin erməni müşaviri Etyen Mahçupyan kimi, 1994-97-ci illərdə Ermənistan prezidentinin baş məsləhətçisi olmuş Jirayr Liparityan kimi.

"Ermənistan Türkiyəni duelə çağırır, halbuki bizim müstəqilliyimizə təhlükə Rusiyadan gəlir". Bu sözlər Liparityana məxsusdur. "Biz SSRİ-dən ayrılaraq müstəqilliyimizə qovuşmuşuq. Ancaq özümüzü elə aparırıq, sanki Türkiyənin tərkibindən çıxmışıq. Xarici siyasətimizdə əsas xətti Türkiyəyə əlcək atmaq üzərində qurmuşuq. Ancaq suverenliyimiz üçün Rusiya təhlükəsi var. Biz kiçik addımlarla Rusiyaya öz müstəqilliyimizi təhvil verməkdəyik. Bu cür siyasət yaramaz" - qeyd edib sabiq müşavir.

ABŞ-ın Miçiqan Universitetinin professoru Ermənistan hakimiyyətini qondarma soyqırımının təbliğatı üçün çox canfəşanlıq etməkdə də günahlandırıb. Sitat: "100 illik tədbirlər keçirməkdənsə, hakimiyyət xalqa, dövlətçiliyə qoyduğu hörməti bir qədər artırsa daha yaxşı olar. Belə siyasət bizim əhalinin həyatına mənfi təsir edir. Məsələlərə belə köndələn yanaşmaq əleyhimizədir " - vurğulayıb Liparityan.

Xatırladaq ki, ötən il o, erməni xalqını və dövlətini Xocalı soyqırımına münasibətə görə tənqid eləmiş, həqiqəti etiraf eləmək üçün erməniləri özündə güc tapmağa çağırmışdı. Liparityan təxminən belə fikir söyləmişdi ki, "soyqırıma məruz qaldığını deyən xalq soyqırıma imza atmaz".

Xocalıya görə isə bir vaxt Ermənistanla yanaşı, Rusiya da mütləq cavab verməli olacaq. Çünki söhbət artıq gerçək genosiddən gedir - əgər təbii ki, Rusiya arxasından çəkiləndən sonra Ermənistan dövlətindən bir şey qalsa.

Məsələ də ondadır ki, Moskva dövlət olaraq heç vaxt Ermənistanın qarantı olmayıb, olmayacaq da. Rusiya Ermənistanı ilk əlverişli fürsətdəcə siyasi bazarlığa çıxarıb satacaq. Satılmamaq, dövlət olaraq müasir dünyanın geosiyasi xəritəsindən silinməmək üçünsə bir yol mövcuddur - erməni xalqının və dövlətinin əsl təhlükəsizlik və mövcudluq qarantı olan Türkiyəyə sığınmaq. Hələ gec deyil.



# Tunisi kim qarışdırır?

## Şərqşünas Aida Bağırovanın fikrincə, ölkə daxilindəki radikal qruplar və bir sıra maraqlı region dövlətləri...

**Tunisdə iki gün əvvəl muzeyə edilən terror hücumu nəticəsində ölənlərin sayı 22 nəfərə çatıb. "Euronews" telekanalının məlumatına görə, Tunisin eyni adlı paytaxtında Osmanlı dövrünə aid tarixi muzey binasına terror hücumu 5 saat davam edib. Polisin keçirdiyi əməliyyat zamanı hücum edən iki terrorçu və iki polis də öldürülüb.**

Prezident Beyci Cahid əs-Sibsi xalqa müraciət edərək terrora qarşı birlik çağırışı edib. Baş verənləri böyük faciə adlandıran ölkə başçısı ölkəsinin terrorla savaşda olduğunu deyib. Hücum edən 2 terrorçu öldürülsə də, polis daha çox terrorçunun olduğu və digərlərinin qaçdığını ehtimal edir.

Paytaxtda da çoxminli etiraz aksiyası keçirilib və küçələrə çıxan xalq hökuməti dəstəklədiklərini və terroru lənətlədiklərini bəyan ediblər.

Qeyd edək ki, "ərəb baharı" ilk dəfə məhz Tunisdə başlayıb. 2010-cu ilin dekabrında bu ölkənin cənubunda küçə ticarətçisi yerli bələdiyyə məmurlarının təzyiqlərinə və işsizliyə etiraz olaraq özünü yandırmışdı. Bundan sonra ölkədə başlayan etirazlar son nəticədə 2011-ci ilin yanvarında ölkəni 23 il idarə etmiş Zeynəlabidin bin Əlinin devrilməsi ilə yekunlaşdı. Tunisdə başlayan inqilab dalğası çox tezliklə Liviya, Misir, Yəmən, Suriya, Bəhreyn və bütövlükdə bütün ərəb coğrafiyasına yayılıb.

Ancaq aradan ötən 4 ildən artıq bir vaxt ərzində inqilab nəticəsində hakimiyyət dəyişikliyi yaşayan digər 3 ərəb ölkəsində vəziyyət heç də düzəlməyib. Misirdə inqilabdan iki il sonra dövlət çevrilişi baş verib və keçmiş hakimiyyətin nümayəndələri yenidən ölkəyə nəzarəti ələ alıblar. Liviyada da seçkilər nəticəsində formalaşan hakimiyyət faktiki olaraq süqut edib, ölkə iki hissəyə bölünüb. Yəməndə inqilabdan sonra qurulan yeni hökumət süqut edib, hazırda bu ölkədə də faktiki olaraq iki hakimiyyətlilik yaranıb.

"Ərəb baharı" ölkələri arasında yeganə nisbətən "salamat çıxan" ölkə Tunis idi. Bu ölkədə parlament və prezident seçkiləri demokratik şəkildə keçirilmiş və ölkədə normal siyasi sistem qurulmuşdu. Müşahidəçilərə görə, Tunis "ərəb baharı" ölkələri üçün yeganə müsbət nümunə idi. Yeri gəlmişkən, bu ölkədən çoxlu sayda *(bəzi məlumatlara görə, 3 mindən artıq)* radikal islamçılar Suriya və İraqda gedən savaşa qatılıb, İŞİD sıralarında döyüşən ən çox əcnəbi terrorçu məhz bu ölkədən idi. İndi isə terror artıq bu ölkənin mərkəzinə ayaq açır. Yeri gəlmişkən, bir qədər əvvəl də Tunisdə terror hücumları baş verib. Ötən ay Tunisin Əlcəzairlə sərhədi yaxınlığında Bulaba bölgəsində radikal islamçıların hücumu nəticəsində 4 polis öldürülmüşdü. Sözügedən bölgədə "əl-Qaidə"yə bağlı "Uqba bin Nafaa" qruplaşması fəaliyyət göstərir. Bu qruplaşma ötən ilin yayında 15 Tunis hərbçisini öldürüb. 2012-ci ildən bu yana Tunisdə radikal qruplaşmalar əsasən sərhəd ərazilərdə hökumət qüvvələrinə hücumlar təşkil edir.



Aida Bağırova

İndi isə Tunislə həmsərhəd olan Liviyada vəziyyət qarışıb və daxili müharibə günü-gündən böyüyür. Tunisin özündə də inqilabdan sonra radikal islamçı qruplar fəallaşmağa cəhd etsə də, ölkədə dünyəvi sistem tərəfdarlarının çoxluq təşkil etməsi nəticəsində bu qruplar ayaq aça bilməyib. Ancaq bununla yanaşı, Tunisdə bir sıra terror qruplaşmaları fəaliyyət göstərir. Onlardan ən məşhuru isə "Ənsar əş-Şəriə" ("Şəriət Dostları") qruplaşmasıdır.

**Mövzunu "Yeni Müsavat"a şərh edən şərqşünas-alim, BDU-nun dosenti Aida Bağırova deyir ki, "ərəb baharı" bir fenomen idi, lakin ərəb cəmiyyətlərinin durumu, bir sıra daxili və xarici faktorlar son nəticədə bu vəziyyətə gətirib çıxardı:** "Ərəb cəmiyyətləri və ictimai rəy radikal dəyişikliklərə bəzən tam hazır olmur, illah ki, avtoritar rejimlərdən sonra. Müxtəlif qüvvələr isə açılmış "demokratiya pəncərəsini" dərinləşdirmək və dönməz xarakter almasına çalışmaq əvəzinə öz siyasi *(bəzən də iqtisadi)* maraqları üçün istifadə etmək yolunu tuturlar. Təbii ki, xarici faktoru da nəzərə almaq gərəkdir. Mən həm də region ölkələrini nəzərdə tuturam. Nəticədə arzuolunmaz vəziyyətlər, süni çətinliklər yaranır".

**A.Bağırova istisna etmir ki, Tunisdə terrorun arxasında ölkə daxilindəki maraqlı qüvvələr ola bilər. Ekspert bu qüvvələrin keçmiş rejim tərəfdarları olmasını güman etmir. Onun fikrincə, bu məsələdə maraqlı olan daha çox daxildəki radikal qruplardır:** "Hazırda bu bölgədə İslamın müxtəlif məzhəblərinin təsəvvür etdiyi konsepsiyalar üzərində dövlət quruluşları yaratmaq üçün fəaliyyətlər davam edir. Son terror hücumları məhz bu qrupların "əl işinə" oxşayır".

❑ **KƏNAN**

# TANAP-ın tikintisi martın sonunda başlanacaq

## Rövnəq Abdullayev: "Bu işi bir il gec başlamağımızın əsas səbəbi odur ki...

**Trans-Anadolu (TANAP) qaz kəməri layihəsinin tikintisi üzrə konsorsium martın sonuna qədər boru kəmərinin tikintisi işlərinə başlayacaq. "APA-Economics"in məlumatına görə, bunu SOCAR prezidenti Rövnəq Abdullayev bildirib.**

Onun sözlərinə görə, artıq 3 şirkət tenderdə qalib gəlib və 3 lot üzrə işlərə başlanılıb: "Türkiyənin Əskişəhər şəhərinə qədər olan 1 380 kilometr məsafədə tender başa çatıb. Bu tenderə görə, birinci lotda olan - Qars vilayətinə qədər olan hissədə iş aparmaq üçün Türkiyənin "Fernas İnşaat A.S." şirkəti qalib gəlib. Mart-aprel aylarında işə başlamağı planlaşdırdığımız üçün artıq qaz boruları sahələrə daşınır. Aprel ayında ikinci sahədə Azərbaycana məxsus "Akkord" şirkəti işlərə başlayacaq. Üçüncü sahədə isə "TEKFEN İnşaat ve Tesisat A.S" tikinti işlərinə hazırlaşır".

**R.Abdullayev bildirib ki, bu ilin axırına qədər 4-cü lotda işlər başa çatdırılacaq:** "Bu işi bir il gec başlamağımızın əsas səbəbi odur ki, TANAP-la nəql olunacaq ilk qazı Türkiyə alacaq və bu qazı Əskişəhərdə götürəcək. Avropaya gedən xəttə isə 2019-cu ilin sonu, 2020-ci ilin əvvəlində ilk qaz axını veriləcək. Kifayət qədər vaxtımız olduğundan, tenderi bir il gec başladıq. Bu həm də bizə daha yaxşı qiymətlər almağa imkan yaratdı. Çünki iş və tələbat çox olanda qiymətlər də qalxır. Kəmərin Türkiyə hissəsində ümumilikdə 100 mindən çox insan və xeyli sayda ağır texnika işə cəlb olunacaq".



Rövnəq Abdullayev

**R.Abdullayev deyib ki, TANAP layihəsinin icra olunması üçün vacib olan maliyyə məsələsi tam həll olunub:** "TANAP-a ayrılan vəsaitin 58%-ni SOCAR öz üzərinə götürüb. Artıq digər tərəfdaşlar da layihəyə daxil olublar və aprelin 1-dən etibarən öz maliyyələrini bura cəlb etməyə başlayacaqlar. Mütəxəssislərimiz yeni maliyyə mənbələrinin cəlb olunması üzərində işləyirlər. Hətta bp və "Botaş" şirkətləri ilə danışıqlar aparılıb. Layihəni vaxtında başa çatdırmaq və Avropaya qazı tez buraxmaq üçün nəğd vəsaitlə layihələşməsini biz həyata keçirdik. İşə başlayandan sonra maliyyələşməni hissə-hissə həyata keçirməyə başlayacağıq".

**SOCAR prezidenti qeyd edib ki, bu layihə 1 852 kilometr məsafədə, yəni Avropa sərhədinə qədər uzanır:** "TANAP SOCAR-ın beynəlxalq səviyyədə olan ən böyük layihəsidir. Layihə 10 mlrd. dollar məbləğində böyük vəsaitə və ən minlərlə işçiyə malikdir".

YENİ MÜSAVAT
N 62 (6090) 20 mart 2015

**Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə imzaladığı əfv sərəncamı şamil edilən 101 məhbusdan 4-ü vicdan məhbusudur. Onlardan NİDA-çı gənc Orxan Əyyubzadə martın 19-da cəza çəkdiyi 1 saylı Bakı İstintaq Təcridxanasından azadlığa buraxıldı.**

# "Ömrümdən 10 ay aldılar..."

## Əfvə düşən gənc fəal "Yeni Müsavat"a danışdı; Orxan Əyyubzadə: "Həbsimdən öncə necə idimsə, bundan sonra da elə olacaq"

**Gənc fəalı qarşılamaq üçün təcridxananın önünə yaxınları, əvvəllər üzvü olduğu Müsavat Partiyasının fəalları və NİDA-çı gənclər toplaşmışdı. Saat 11:30-da azadlığa buraxılan Orxan Əyyubzadə ilk təəssüratını media nümayəndələri ilə bölüşdü:** "Məni qarşılamaq üçün uzun yolu qət edib gələn hər kəsə təşəkkürümü bildirirəm. Azadlıq gözəl hissdir. Amma istərdim ki, digər dostlarım da mənimlə bərabər çıxardılar. 10 ay ömrümdən aldılar. Amma şərəfli günlər idi. Əqidə yoldaşlarımla mübarizəmi davam etdirəcəm. Sona qədər haqsızlığa qarşı mübarizə aparacam. Mübarizə aparırıqsa, demək, yolumuz həbsxanadan keçəcək. Sadəcə, dözümlü və səbirli olmaq yetər. Həbsdə olduğum 10 ay müddətində heç nə itirmədim, əksinə, qazandım. Yeni-yeni dostlarla tanış olmaq imkanım oldu. Həyatda 10 il də, 10 ay da itirmək olar. Əsas olan odur ki, dost itirməyək. Şükürlər olsun ki, dostlarım yenə də ətrafımdadır. Ailə üzvlərimə təşəkkür edirəm. Çünki ən çox əziyyət çəkən anam və atam oldu. Nöqtəsindən vergülünə qədər azadlığa çıxmağımda əməyi olan hər kəsə minnətdaram".

Daha sonra gənc fəal dostları və yaxınları ilə bərabər yaşadığı ünvana gəldi. Qohum-əqrəbası onu sevinc göz yaşları ilə qarşıladılar. Azadlığa çıxması münasibətilə O.Əyyubzadənin ayaqları altında qurban kəsildi.

Azadlığa çıxan NİDA-çı gəncin anası Rəhimə Məmmədova sevinc hisslərini bizimlə bölüşdü: "Bayramımıza bayram qatıldı. Bizim üçün ikiqat bayramdır. Əfvi gözləyirdim. Fikirləşirdim ki, Orxanın gec-tez azad ediləcək".

**Gənc fəalın atası İbrahiməjdər Məmmədov sevinc hisslərini belə ifadə etdi:** "Arzu edirəm ki, belə əfvlər tez-tez olsun. Çox məhbusa şamil olunsun. Ailələrin sevinməsi gözəldir. Allah hamıya nəsib eləsin".







**Orxan Əyyubzadə ilə keçirdiyi 10 aylıq həbsxana həyatı ilə bağlı söhbət etdik. Gənc fəal bəzi dostlarının vəfasızlığından gileyləndi:** "10 ayda bəzi dostların vəfasızlığını gördüm. Həqiqi dostlarımı tanıdım. Həbs müddətində sınaqdan az sayda dostum çıxdı. Onlara söz deməyə haqqım var. Çünki dost anlayışı böyükdür. İnsana dar gündə dost lazımdır. Xoş günlərin dostu heç kəsə lazım deyil. 10 ayda qazandığım və qənaətə gəldiyim bu fikirlər oldu. Bu müddəti həm müsbət, həm də mənfi dəyərləndirirəm. Müsbət ona görə oldu ki, bir çox məsələləri düşünmək, aydınlaşdırmaq imkanım oldu. Mənfi ona görə oldu ki, itirdiyim dostlar oldu".

**NİDA-çı gənc gələcək planlarından da danışdı:** "İlk olaraq, təhsilimlə məşğul olacam. Təbii ki, fəaliyyətimi davam etdirəcəm. Həbsimdən öncə necə idimsə, bundan sonra da elə olacaq. Heç nə dəyişməyib. Əvvəlki Orxan Əyyubzadəyəm. Amma təhsilli formada fəaliyyət göstərmək daha məqsədəuyğundur. Azadlığa çıxacağıma inanmırdım. Günorta saatlarında ANS-də xəbərlərə baxdım. Əfv söhbəti olmadı. Fikirləşdim ki, verilməyəcək. Axşam da xəbərim olmadı. Qonşu kameradan mənə xəbər etdilər. Şəkillərim qəzetlərdə çıxdığından məhbuslar tanıyırdılar. Əfvə düşdüyüm deyiləndə keçirdiyim hissləri ifadə etmək çox çətindir. 10 aydan sonra həbsxanada arzuladığın, amma görə bilmədiyin həyatı görəcəyini təsəvvür edirsən. Bu həyatı mən 2016-cı ilin mayında görəcəyimi düşünürdüm. Özümü həmin vaxta psixoloji cəhətdən hazırlamışdım. Hər bir insan düşünmədiklərini yaşayanda çox sevinir. Allah hər kəsə belə sevinc bəxş etsin. Bütün günahsız məhbuslar mən yaşayan sevinc hisslərini yaşasınlar. Onu da xüsusi qeyd edim ki, nə qədər sevinsəm də, ürəkdən sevinmək mümkün deyil. Çünki səninlə eyni yolu addımlayan insanlar həbsxanada qaldı. Bunları düşünəndə deyirsən ki, kaş azad olunmayaydım. Amma bu həyatdır. Digər məhbus dostlarımın da azadlığa çıxacaqları günü həsrətlə gözləyəcəm".

**Orxan Əyyubzadə ona dəstək olan mətbuata təşəkkür etdi:** "Çox insanlar mənə dəstək oldu. Xüsusilə mətbuatdan böyük dəstək gördüm. "Yeni Müsavat" və "Azadlıq" qəzetlərində haqqımda materiallar dərc olunanda, sevindirici idi. Ona görə ki, çəkdiyimiz əziyyətləri, gördüyümüz işləri qiymətləndirirdilər. Daha məntiqəuyğun cəmiyyətə təqdim edirdilər. Bəlkə də biz edə bilmədiyimiz şəkildə təbliğ olunurduq. Çox sevindirici hal idi. Buna görə hər bir mətbuata təşəkkür edirəm".

**Orxan Əyyubzadə həbsdə olduğu zaman heç vaxt peşmançılıq hissi duymadığını söylədi:** "Peşman olası heç bir hal olmadı. Sadəcə, Müsavat və AXCP arasında olan gərgin münasibətlər bəzən bizi ruhdan salırdı. Düşünürdük ki, bunlar öz cəbhələrində bir-biri ilə vuruşmaqdansa, niyə birgə mübarizə aparmırlar? Biz bu gün Müsavat və AXCP-yə siyasi güc mərkəzi kimi baxırıq. Əgər onlar da belə mübarizə aparırlarsa, demək, bizlərin fəaliyyətinin heç bir əhəmiyyəti yoxdur. Ona görə bəzi anlarda peşmançılıq demək olmasa da, psixoloji olaraq əzintili olurduq".

**"Həyat yollarında 10 aylıq həbs müddətini necə xatırlayacaqsan" sualımıza müsahibimiz belə cavab verdi:** "Bu 10 ayın 80%-ni müsbət qarşılasam da, 20%-ni mənfi xarakterizə edəcəm. Çünki hər bir situasiyanın müsbət və mənfi tərəfləri var. Çətin günləri görməsən, yaxşı günlərin qədrini bilməzsən".

**O.Əyyubzadə həbsdə qalan məhbuslar və onların ailələrinə mesaj göndərdi:** "Onlara mesajim odur ki, möhkəm olsunlar. Onların hazırda hiss etdiklərini çox gözəl anlayıram. Onlar da bu gün ailələrinin yanında olmağı istəyirdilər. Rəşadət Axundovdan çox nigaranam. Onun azadlığa çıxmasını ən çox istəyən insanlardan biriyəm. Çünki o, oğlunun əlini azadlıqda bir dəfə də olsun, tutmayıb. Onu çox gözəl başa düşürəm. Məhbusların azadlığa çıxmalarında böyük rolu olan insanları ilk növbədə, Rəşadətin ailəsinə qovuşması istiqamətində fəaliyyət göstərməyə çağırıram. Onlardan xahiş edirəm. Rəşadət azad olunmalıdır. O, həbsxanada yaşamağa layiq deyil".

**Sonda gənc fəal ona və ailəsinə sona qədər dəstək olan insanlara üz tutdu:** "Öncəliklə sizə, "Yeni Müsavat"a təşəkkürümü bildirirəm. Mənə əməyi cüzi də olsa, keçən şəxslərə minnətdaram. Dostlar və ailə fərq qoymuram. Hər birinə sağ ol deyirəm".

**Xatırladaq ki, Orxan Əyyubzadə ötən il mayın 6-da NİDA-çılara oxunan hökmə etiraz etdiyinə görə həbs edilmişdi. Əvvəlcə inzibati həbs cəzası alan gənc fəal haqqında sonradan 315.1 maddəsi ilə (hakimiyyət nümayəndəsinə müqavimət) cinayət işi açılmışdı. O, iki il müddətinə azadlıqdan məhrum edilmişdi.**

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

# "Yəni mən o günə qalmışam ki, 100 min tapıb maaş verməyim?"

## Hafiz Məmmədov "Yeni Müsavat"ın yazdıqlarını təsdiqlədi; iş adamı Anar Məmmədova mesaj göndərdi



Hafiz Məmmədov

**"Baghlan Group"un prezidenti, "Hafka" kimi tanınan iş adamı Hafiz Məmmədov "Palmali" şirkətinin prezidenti Mübariz Mənsimovun ona borcu olması ilə bağlı bir neçə gün əvvəl mətbuata verdiyi açıqlamaya aydınlıq gətirib. Xatırladaq ki, "Yeni Müsavat" hələ bir müddət öncə bu qalmaqala aydınlıq gətirərək "Hafka"nın M.Mənsimovdan təyyarə alması üçün beh verdiyini, indi isə o pulu geri istədiyini yazmışdı. H.Məmmədov "Qafqazinfo"ya açıqlamasında bu məlumatı təsdiqləyib.**

H.Məmmədov bildirib ki, onun Mübariz Mənsimovun ödəməli olduğu pulla bağlı verdiyi açıqlamaya qarşı tərəfdən adekvat reaksiya verilməyib. Onun sözlərinə görə, M. Mənsimovdan təyyarə almalı idi və bunun üçün əvvəlcədən 8 milyon ödəyib: "Daha doğrusu, mən təyyarə istəyirdim, o da satırdı. Bunun üçün 2009-cu ildə onlara 8 milyon pul ödədim. Təyyarənin qiyməti 24 milyon idi, söhbət avrodan gedir. Mən yerdə qalan 16 milyonla Mübariz Mənsimovun İsveçrə bankındakı borcunu bağlamalı idim. Bu söhbət təxminən 6 il əvvəl olub. Səkkiz milyon ödədikdən sonra bəzi problemlər baş verdi. Mən biznes adamı olaraq problemlərimin yarandığını gördüm. Sonra biz razılaşdıq ki, onlar mənim ödədiyim pulu geri qaytarsınlar. Əvəzində isə mən təyyarəni geri verdim. Bir müddət sonra "Palmali"dən ödədiyim pulun tən yarısı ödəndi, yəni 8 milyondan 4 milyonu. Həmin vaxtdan indiyə kimi günü-günə satmaqla pulumun qalan hissəsini ödəməkdən imtina edirlər. Təyyarəni isə səhv etmirəmsə, 2013-cü ilin iyununda başqa bir şirkətə satıb İsveçrə bankına olan borclarını ödəyiblər. Mənim pulumun qalanını isə geri qaytarmırlar. Aramızda bununla bağlı yüzlərə məktublaşma həyata keçirilib. Orada söz veriblər ki, borclarını ödəyəcəklər. Halbuki mən bu pulu onlardan istəməməli idim. Onlar mənim vəziyyətimi görüb özləri gətirib ödəməli idilər. Gör, durum nə yerə çatıb ki, onların ödəməli olduğu pulu çıxıb mətbuat vasitəsilə istəyirəm. Mübariz Mənsimov da, onun qardaşları da Azərbaycan üçün dəyərli insanlardır. Lakin mən də bu pulu cibimə qoymaq üçün istəmirəm. Azərbaycan üçün çox əhəmiyyətli olan bir sahəyə qoyduğumuz yatırımla bağlı ödəniş etməliyəm. Bu gün axırıncı günümdür, saat 6-ya kimi vaxtımız var. Yenə də ümid edirəm ki, Mübariz Mənsimov bir oliqarx olaraq bu pulu qaytaracaq. Əslində bu, oliqarxa yaraşan hərəkət deyil. Hər kəs biznes etikası və qaydalarına uyğun davranmalıdır".

**İş adamı həmçinin dəfələrə mətbuatda maddi durumunun kritik olması ilə bağlı yayılan xəbərlərə də aydınlıq gətirib:**

"Bu dəqiqə dünyada ən zəhləm gedən söz "darıxma, yaxşı olacaq"dır. Belə sözləri demək olar ki, hər gün eşidirəm. Həm "Bakı Taxi", həm də "Trans Qeyt"in operatoru mənim şirkətimdir. Bayaq dediyim kimi, həyatda belə dərs almamışdım, hamını tanıdım. Yanımda olan insanlar da çox oldu. Xüsusilə "PaşaBank", "Mərkəzi Bank" və "Kapitalbank"a minnətdarlığımı bildirirəm. Onlar məni vəziyyətdən çıxardılar. Demək olar ki, bir çox borclarımı bağladılar. AFFA-nın "Bakı" klubuna ödədiyi vəsait isə "Paşa Bankın"ın bizə ayırdığı kreditdir. Mən son 11 ildə Azərbaycan futboluna ürəyimi vermişəm, kiminsə 3-5 qəpiklik minnətini götürə bilmərəm".

**H.Məmmədov "Lans" və "Bakı" klubunun Anar Məmmədov tərəfindən əlindən alınması ilə bağlı mətbuatda yazılanlara da münasibət bildirib:** "Guya "Bakı" klubunu əlimdən aldılar, hansısa evimi girov götürdülər. Bütün bunların mənası yoxdur. Yəni mən o günə qalmışam ki, 100 min tapıb "Bakı"nın işçilərinin maaşını verməyim? Qəti olaraq bildirmək istəyirəm ki, mən nə "Lans"ı, nə "Bakı" klubunu heç kimə verən deyiləm. Nə etməli olduğumu yalnız bu ölkənin rəhbərliyi deyə bilər. Əgər məsləhət olsa, mənim dövlətimin rəhbərliyində olan şəxslər deyərlər ki, bu addımı at, mən də ataram. Ancaq kiminsə gəlib mənim əlimdən klub alması, yerimə keçməsi həyatda mümkün deyil".

❑ **Xəbər xidməti**



# "Apardı tula başı..."

Zamin HACI
zaminhaci@gmail.com

**Bütün uca millətimiz kimi mən də yazın gəlişinə sevinirəm, buna görə iqtidarımıza Ağcabədi müəllimləri adından təşəkkürümü də bildirirəm. Çünki ölkəmizdə yazın gəlişi məqsədyönlü, uğurlu dövlət siyasətinin nəticəsidir. Burundidə, Uqandada, Şpitsbergen adasında niyə yaz gəlmir? Çünki oralarda Yeni Azərbaycan Partiyası yaradılmayıbdır! Yenilik ancaq Yeni Azərbaycan Partiyası olan yerlərə gəlir *(o cümlədən "Yeni Müsavat" qazeti də yazın gəlişi üçün vacib atributlardan biridir)*.**

Yazın gəlişi ilk növbədə Kosa və Keçəlin, səməni və şəkərburanın gündəmə gəlməsidir. Sumqayıtın icra başçısı Eldar müəllim isə Novruz personajları sırasına Troya atı, Yuli Sezar, Apuleyin eşşəyini də əlavə etmişdir. Bu, geniş araşdırma mövzusudur, qalsın başqa vaxta.

Oxucumuz Vasif Həsənovun məktubu da yazın gəlişi problemlərinə toxunur. Bildiyimiz kimi, deputatxanada gərgin müzakirə edilən ümummilli *(bu düşük sözü ilk fikirləşən adamı yıxıb yerə ağzına-ağzına döymək lazımdır, çünki milli elə ümumi deməkdir, ümummilli sözü "qatıqlıqatıq" kimi bir şey alınır)* məsələlərdən biri Novruz bayramında hasarı uzun olan villaya necə papaq atılması idi. Deputat Fazil Mustafa bunu kəskin tələb eləmişdi, spiker Oqtay müəllim isə bütün villa sahiblərinə məsləhət görmüşdü ki, Fazil müəllim gəlsə onun papağını boş qoymasınlar. Ancaq oxucumuz Vasif bəy problemin bu cür fərdi, dənə şəklində həllini qəbul etmir, təklif irəli sürür: "Qoy MM qanun qayırsın, orda atılan papağın ölçüsü, hasarın hündürlüyü, papağa qoyulası şirinliyin miqdarı və sairə dəqiq göstərilsin".

Zabratdan, 307 saylı məktəbin yanından zəng vuran oxucumuz Hamlet Budaqov isə qaz idarəsindən şikayətlənir. Deyir qazımız çox zəif gəlir, şikayət edəndə Sabunçu qaz idarəsi "Bayramdır, hamı qaz işlədir, ona görə qaz azalır" - deyir. Nə yaxşı Günəşə Sabunçu qaz idarəsi baxmır, yoxsa biz qaranlıqda qalardıq, deyərdilər yazdır, özünü günə verənlər artıbdır.

Yeri gəlib, bir müşahidəmi də yazım. Fikir vermisinizsə, adam eyni problemi, hətta faciəni də qışa nisbətən yazda daha yüngül qarşılayır. Elə bil Günəş dərdi də bir qədər əridir. Hər halda mən özüm bu cürəm, bəlkə hamının adından danışmaq doğru çıxmadı. Buludlu havanın sevincindənsə günəşli günün kədərini üstün bilirəm - yalan olmasın. Azərbaycanın, o cümlədən planetin başqa günəşli qurşaq ölkələrinin daim problemli olması bəlkə bu heliopolitik səbəblə bağlıdır: adamlar təbiətin işığından zövq alıb sosial qaranlığı, cəmiyyətin bataqlığını, zülmətini unudurlar. Əksinə, ilin çoxu buludlu, dumanlı, qaranlıq keçən şimal ölkələrində *(Kanada, Norveç, İsveç, İslandiya, Britaniya və sairə)* isə adamlar normal cəmiyyət qurmağa məcbur olublar. "Heç olmazsa bu tərəfdən yarıyaq, sosial aydınlığa çıxaq" məntiqi ilə.

Ancaq əlbəttə, bunlar hamısı nəzəriyyədir, Molla Nəsrəddinin sarımsaqla bal yemək məsləhətindəki kimi, əməliyyəsi bir qədər ağır da ola bilər. Bu baxımdan, heç kimə yazın gəlişi, səməninin uzunluğu, Kosanın saqqalı, "Keçəlin ala başı, Yağladım qoydum günə" tipli mövzularda məsləhət vermək istəmirəm. İnsan haqları konvensiyasına görə də hər kəsin yaza istədiyi yerdən girmək hüququ vardır. Bu, yaltaqlara, namərdlərə, satqınlara, alçaqlara, acgözlərə - uzun sözün qısası, ölkəmizin bütün fauna və florasına da aiddir. "Günəş hər kəsi qızdırır" - o qədim fikirdə deyilən kimi. Onun qəlbi o qədər böyükdür.

Sonda Neft Şirkətindən bir narazılığımı bildirmək istəyirəm. Rövnəq müəllim deyib ki, ARDNŞ dövlət büdcəsindən 1 milyard manat kredit götürəcək. Məqsədindən asılı olmayaraq qınayıram. Biz deyirik bunlar neft çıxarıb büdcəyə pul versin, bunlar artıq büdcəni sümürür. Bu saat mənim "Samsunq" şirkətinə soyuducu krediti borcum var, elə bil indi "Samsunq" gəlib məndən borc istəyir. Ta nə oldu? Rövnəq müəllimə istefa!

Zarafata yazdım, qorxmasın. Çoxlu şəkərbura ye, Rövnəq müəllim!

**Şərti olaraq "Turan ordusu" adlandırılan ortaq türk ordusunun yaradılması ilə bağlı "Yeni Müsavat"ın dəfələrlə yazdığı mövzuya Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri İsmayıl Alper Coşqun da reaksiya verib.**



Alper Coşqun

# Türkiyə səfiri ortaq türk ordusundan danışdı

## İsmayıl Alper Coşqun: "Təbii ki, belə bir ordunun yaradılması çox çətindir"

Diplomat deyib ki, müxtəlif vaxtlarda akademik və ya bəzi politoloqlar səviyyəsində türk dünyasının ortaq ordusunun yaradılması fikri səsləndirilsə də, dövlətlər səviyyəsində bu istiqamətdə hər hansı addım atılmır: "Sadəcə, türk dünyası ilə məhdudlaşmayan, jandarmeriya qüvvələrinin birlikdə fəaliyyət göstərməsini nəzərdə tutan və türk dünyasındakı qardaşlarımızı da əhatə edən bir əməkdaşlıq var".

**Səfir deyib ki, ortaq ordu deyildikdə, təbii ki, ortaq idarətmə altında birləşdirilmiş, bütün strukturları ilə vahid mərkəzdən idarə olunan bir ordu nəzərdə tutulur:** "Təbii ki, belə bir ordunun yaradılması çox çətindir. Fərqli hərbi birləşmələri, hava qüvvələrini, ordu birləşmələrini nəzərə alsaq, bunun çox çətin olduğunu görmək olar".

**Diplomatın "Trend"ə dediklərinə görə, Türkiyə türk dünyası daxilində ordu quruculuğu sahəsində ən yüksək əməkdaşlığı Azərbaycanla həyata keçirir:** "Keçən il Azərbaycanda təşkil edilən təlimlər, bu il isə Türkiyədə Hərbi Hava Qüvvələrinin iştirakı ilə keçirilən təlimlər bunun bariz nümunəsidir. Türkiyənin NATO standartları üzrə təcrübəsindən Azərbaycanla birgə istifadə etmək şərtilə, Azərbaycanın da NATO standartlarına çatma hədəfini nəzər alaraq, əlavə fəaliyyət göstərirk". **İ.A.Coşqun bildirib ki, bu kimi tədbirlərin keçirilməsi güc strukturlarının bir-birini tanıması və bölgənin sabitliyi üçün birgə fəaliyyət göstərməsi baxımından çox önəmlidir. Onun sözlərinə görə, bütün bunlarla yanaşı, təlim metodları paylaşıla bilər:** "Hər bir ölkənin bu sahədə özünəməxsus təcrübəsi var. Birgə təlimlərin keçirilməsi ilə bu təcrübələrdən faydalanmaq mümkündür".

**Səfir vurğulayıb ki, bu təlimlər həm nəzəri, həm də praktik olaraq həyata keçirilə bilər:** "Hər bir ölkənin öz təcrübəsini digərinə çatdırması, digərinin təcrübəsindən istifadə etməsi ilə daha önəmli əməkdaşlıq şəbəkəsi hazırlaya, bölgənin təhlükəsizliyinə və sabitliyinə töhfə vermək bacarığını inkişaf etdirə bilərik". **Diplomat qeyd edib ki, türk dünyasının hədəfi qarşısında baryer qoymaq deyil:** "Nə Türkiyənin, nə də türkdilli ölkələrin təhdidlər qarşısında sərtləşmək kimi düşüncəsi yoxdur, lakin regionda ortaq risklərimiz və təhlükələrimiz var, həll edilməsi lazım olan məsələlər var. Qarşılıqlı töhfə baxımından türk dünyasının daha yaxın və bir-birinə inteqrasiya olması hər kəsin maraqlarına xidmət edə bilər".

Qeyd edək ki, keçən ilin aprelində Naxçıvan Muxtar Respublikasında türk zabitlərinin də iştirakı ilə nəhəng hərbi təlim keçirilmişdi. O zaman Türkiyə, Azərbaycan, Qırğızıstan və Monqolustan hərbi birləşmələrindən ibarət, Avropa mediasının dili ilə desək, "Turan ordusu" adlı hərbi birliyin yaradılması istiqamətində ciddi addımların gözlənildiyi barədə yazmışdıq. Hesab olunur ki, bu proses sonda Turan ordusunun yaranması ilə nəticələnəcək.

❑ **Cavid TURAN**

# Müsavatda sədrlik uğrunda mübarizə istefalara səbəb oldu

## Gülağa Aslanlı: "Demokratik şəraitdə keçirilən seçki mübarizəsində uduzmağı da bacarmaq lazımdır"

**Müsavat Partiyası Sabunçu rayon təşkilatının üzvləri Elməddin Qəmbər, Vidadi Həsənov, Nizami Əliyev, Ehtiram Məmmədov, Asif Yusifov, Rövşən Əliyev, Musa Əsgərov və Rövşən Həsənli partiya sıralarından istefa veriblər. Bu barədə "Report"a partiyanın üzvü, hüquq müdafiəçisi Elşən Həsənov məlumat verib.**

O bildirib ki, istefalara səbəb partiyanın Sabunçu təşkilatında sədrliyə keçirilən seçki olub: "Təşkilatdakı hörmətimə, fəaliyyətimə baxmayaraq, partiya rəhbərliyi mənə Sabunçu təşkilatında sədr seçilməyə imkan vermədi. Çünki mən partiya rəhbərliyini tənqid edirəm. Ona görə də keçmiş sədrə tapşırıq veriblər ki, Elşən Həsənov sədr olmasın. Hazırda on nəfərə yaxın üzv Sabunçu təşkilatında baş verənlərə görə partiyadan istefa verib".

**E.Həsənov təşkilat sədrliyinə keçirilən seçkilərə partiya rəhbərliyinin müdaxilə etdiyini qeyd edib:** "Təşkilatda iki dəfə seçki keçirilib, birinci dəfə kvota olmadığına görə seçki baş tutmadı. Onda açıq-aşkar təşkilat departamentinin rəhbəri Zöhrab Məhərrəmli təşkilat üzvlərinə zəng edərək "İsa Qəmbər Arif Hacılının adından tapşırıb ki, Elşən Həsənov sədr seçilə bilməz" deyib. Partiya rəhbərliyi seçkiyə müdaxilə edib. Rəqibim pis adam deyil, amma bunun adını kəndlərdə eşitməyiblər".

**Hüquq müdafiəçisi əlavə edib ki, ona həm də başqanlığa sabiq namizəd Tural Abbaslını dəstəklədiyinə görə əngəllər yaradılır:** "Tural Abbaslı ilə dostam. Hesab edirəm ki, o, partiyada vicdanlı müsavatçılardandır. Onu dəstəklədiyimə görə mənə düşmən mövqeyi tutdular. Hamısı Arif Hacılının tapşırığı ilə həll olunur".

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, iddiaların içində həqiqəti əks etdirən heç nə yoxdur:** "Çünki nə başqan Arif Hacılı, nə də partiyanın rəhbərliyinə daxil olan adamlar hər hansı rayon təşkilatına sədr seçkisinə müdaxilə eləmirlər. Bizim əsas marağımız seçkilərin Müsavat Partiyasının Nizamnaməsinə əsasən, gizli səsverməyə xələl gətirmədən keçirilməsini təmin eləməkdir. Sabunçu rayon təşkilatında da seçkilər nizamnaməyə uyğun və gizli səsvermə təmin edilməklə keçirilib. Bu barədə elə həmin gün də məlumat verilib və həmin gün Elşən Həsənov yeni seçilən Elnur Əsgərovu qələbə münasibətilə təbrik edib. Sonra nə baş verdiyini artıq bilmirəm. Sadəcə olaraq, müsavatçılar qəbul eləməlidirlər ki, Müsavat Partiyasında keçirilən seçkilərin nəticələrini hər hansı şəkildə şübhə altına almaq üçün əllərində faktlar olmalıdır. Söz və şayiə əsasında iddialar irəli sürmək fakt deyil. Fakt seçkilərin keçirilməsi ilə bağlı sənədlərdir.

Demokratik şəraitdə keçirilən seçki mübarizəsində uduzmağı da bacarmaq lazımdır. İnsanın özünün daxilində seçkidə məğlubiyyəti də etiraf edib qəbul etmək gücü olmalıdır. Mən yaranmış həmin vəziyyətə sadəcə təəssüf edirəm. Hesab edirəm ki, o insanların bir çoxu məsələnin nə yerdə olduğunu bilmədən istefa veriblər".

Qeyd edək ki, seçkidə Müsavat Partiyasının Sabunçu təşkilatına Elnur Əsgərov sədr seçilib.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 62 (6090) 20 mart 2015



# ABŞ səfiri Azərbaycanda demokratiya məsələsini dördüncü yerə qoyub

## Ekspertlər fərqli düşüncədədir

**ABŞ-ın Azərbaycandakı yeni səfiri Robert Sekuta ABŞ-ın Azərbaycana münasibətlərində prioritetlərini açıqlayıb. Səfir bildirib ki, dörd sahə üzrə dialoq aparılması qərarlaşdırılıb: "Bunlar enerji, iqtisadiyyat, təhlükəsizlik, demokratiya və vətəndaş cəmiyyəti sahələridir. Xanım Nuland Vaşinqtona qayıdandan sonra demokratiya və vətəndaş cəmiyyəti sahəsində hansı addımların atıla biləcəyi barədə işlər aparılmağa başlayıb.**

Biz fikirlərimizi Azərbaycana tərəfinə təqdim edəcəyik, Azərbaycan tərəfinin də fikirlərini öyrənəcəyik. Eyni zamanda hesab edirəm ki, bu sahədə vətəndaş cəmiyyətinin fikirləri öyrənilməli, onlarla da iş aparılmalıdır".

ABŞ-ın Azərbaycanla münasibətlərində prioritetlərinə, xüsusilə də prioritetlərin sıralanması ardıcıllığına siyasi düşərgənin münasibətini öyrəndik.

**Hakimiyyətyönlü deputat Zahid Oruc** bildirdi ki, ABŞ-ın keçmiş səfiri Enn Dersinin zamanında ABŞ-Azərbaycan münasibətlərində Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsini özündə ehtiva edən prinsiplər söylənmişdi. O prinsiplər daha düzgün və daha ədalətli idi. Çünki orada ərazi bütövlüyü, suverenlik məsələləri də yer almışdı və ön cəbhəni təşkil edirdi. Paralel şəkildə enerji, iqtisadiyyat, təhlükəsizlik, demokratiya məsələləri də eyni ardıcıllıqla orada yer almışdı: "Şübhəsiz, bu, Azərbaycanın da marağı lehinədir. Lakin ən önəmli məsələ ondan ibarətdir ki, qeyd olunan sahələr üzrə əlaqələr qurularkən bəzən təhlükəsizlik məsələsində Azərbaycanın öz mənafelərini qurban vermək kimi mövqelər tutulmaqdadır. Eləcə də demokratiya, insan haqları və vətəndaş cəmiyyəti məsələləri dördüncü yerdə dayansa da digər prioritetlərin üzərinə qaldırılaraq daxili hakimiyyət uğrunda mübarizədə bir alətə çevrilməsi, tərəf tutulması, ayrı-ayrı QHT təmsilçilərinin təsir agentləri rolunda himayə edilməsi hallarını görmüşük. Əlbəttə bu, bizim üçün təəssüf doğurur. Çünki Amerika-Azərbaycan münasibətləri 2008-ci ilə qədər çox uğurla inkişaf edib. Bütün problemlərə, bəzən arada olan anlaşılmazlıqlara rəğmən qeyd etmək lazımdır ki, regionun siyasi xəritəsi, iqtisadi resurslarının işlənməsi və onun Avropa üçün önəm daşıyan səviyyəyə çatması heç şübhəsiz ki, ABŞ-Azərbaycan əlaqəsinə görə mümkün olub.

Bu gün cənab prezident novruz bayramı ilə əlaqəli xalqa müraciətində çox mühüm tezislər söylədi. Orada əsas fikirlərdən biri gücün hüquqa çevrilməsi, Qərb ölkələrində siyasi maraqlar və riyakarlıqlardan və sairdən bəhs edirdi".

**Z.Oruc təəssüflə qeyd etdi ki, Amerikanın Cənubi Qafqaz siyasətində elə qarışıqlıq və bir sıra hallarda prinsipsizlik hökm sürdü ki, bu fonda Azərbaycanda amerikapərəstlər də müəyyən mənada xəyal qırıqlığına uğradı, mövqeləri xeyli dərəcədə sarsıldı:** "Amerikanın yerinin başqaları tərəfindən ələ keçirilməsinin şahidi olduq. Burada ayrı-ayrı regional ölkələrin mənafeləri irəliyə daşındısa, bu, heç bir halda Azərbaycanın öz xarici siyasət kursundan geri çəkilməsi niyyətindən doğmadı.

Yeni səfir Sekuta səfir olaraq nə qədər verilən müddəti başa vuracaqdır, onu indidən söyləmək çətindir. Amma həqiqətən də öz ölkəsi üçün yaxşı məlumatlandırma funksiyasını yerinə yetirəcəksə, həqiqətən də regional prosesləri obyektiv çatdıracaqsa, Dövlət Departamentin mövqeyini uğurlu şəkildə regiona daşımağa cəhd edəcəksə, Azərbaycanın daxili həyatını onun əleyhinə çevirməmək mövqeyi tutulacaqsa, ABŞ-Azərbaycan münasibətləri yenidən yüksək səviyyəyə qalxacaq".

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı bildirdi ki, ABŞ-n xarici siyasətində qeyd olunan həmin 4 prioritet həmişə olub və əsas məsələ demokratiyanın prioritetlər sırasına daxil edilməsidir:** "Təbii ki, hər bir ölkə özü öz prioritetlərini müəyyənləşdirir və özünün xarici siyasətinə uyğun olaraq müəyyənləşdirir. Biz istərdik ki, həmin prioritetlər sırasında demokratiya və vətəndaş cəmiyyəti məsələsi öndə olsun. Amma dünyanın bir gəlişməsi var və bu gəlişmə ilə də bağlı Amerikanın sanki dünya qarşısında bir öhdəliyi var. Ona görə də hesab edirəm ki, sıralanmada dördüncü yerə demokratiya qoyulsa belə, şəraitdən və vəziyyətdən asılı olaraq, ABŞ istənilən anda demokratiya məsələsini birinci sıraya keçirmək imkanına malikdir. Odur ki, əsas önəmli olan həmin prioritetlərin içərisində məhz demokratiya və vətəndaş cəmiyyəti ilə iş məsələsinin olmasıdır".

❑ **Etibar SEYİDAĞA**

# Putin sirli xəstəliyindən sonra ilk dəfə Moskvanı tərk edir



## Bu gün Kreml başçısı Astanaya gedir; onun qatılacağı sammitə Sərkisyanın çağırılmamasının azı, iki mühüm səbəbi var; "Stratfor" isə Rusiya prezidentinə qaranlıq gələcək vəd edir; ABŞ-ın "kölgə kəşfiyyatı"na görə, Putini Xruşşovun taleyi gözləyir...

**Bu gün Qazaxıstanın paytaxtı Astanada Avrasiya İqtisadi Birliyinə (AİB) üzv ölkələrin sammiti keçiriləcək. Bəllidir ki, tədbir Rusiya prezidenti Vladimir Putinin səhhəti ilə bağlı təxirə salınmışdı. Putin 10 günlük müəmmalı yoxluqdan sonra artıq üzə çıxıb, hərçənd onun konkret hansı xəstəliyə görə görünməməsi hələ ki sirr olaraq qalır.**

İstənilən halda, sirli "yoxa çıxmadan" sonra Putin ilk dəfə olaraq Moskvanı tərk edəcək. Astana sammiti sözsüz ki, ən əvvəl bu xüsusda yerli və beynəlxalq medianın diqqət mərkəzində olacaq, nəinki görüşün gündəliyi ilə. Bir də yəqin ki, Avrasiya İttifaqının digər tamhüquqlu üzvü olan Ermənistanın prezidentinin sammitə dəvət edilməməsi diqqətdə saxlanılacaq.

Yeri gəlmişkən, Sərkisyanın saya salınmamasının bir səbəbi qurumun digər ölkələri ilə coğrafi sərhədi olmayan və hər hansı iqtisadi-ticari maraq və dəyər kəsb etməyən cırtdan Ermənistanın AİB üzvləri üçün əhəmiyyətsiz olması ilə izah edilə bilər.

İkinci maraqlı səbəb isə qazaxıstanlı ekspert Murat Asipov göstərib (vesti.az). Onun qənaətincə, imtina məhz Azərbaycan və Türkiyə amili, daha doğrusu, bu iki türkdilli dövləti qıcıqlandırmamaq istəyi bağlı ola bilər. Sitat: **"Erməni prezidentinin görüşə dəvət edilməməsinin səbəbi mənə məlum deyil. Yalnız onu deyə bilərəm ki, Qazaxıstan Türkiyə və Azərbaycanla münasibətlərə çox diqqətlə yanaşır. Ona görə də Ermənistan rəhbərini dəvət etməyiblər..."**

*****

Yuxarıda qeyd edildi artıq, Putin sirli xəstəliyindən sonra bu gün ilk dəfə Moskvanı tərk edəcək. Ancaq paytaxtdan əvvəlki kimi əmin-arxayın çıxa biləcəkmi?

Sual boşuna qoyulmayıb. Məsələ ondadır ki, ABŞ-ın "kölgə kəşfiyyatı" sayılan qeyri-hökumət təşkilatı - "Stratfor" analitikləri Kremlin hazırkı başçısı ilə bağlı bədbin proqnoz veriblər. Qurumun hazırladığı məqalədə deyilir: **"1964-cü ilin oktyabrında Nikita Xruşşov məzuniyyətdən qayıtdı və gördü ki, daha o, SSRİ-yə rəhbərlik eləmir. On vəzifəsindən isə həmişə etimad edib güvəndiyi Leonid Brejnev uzaqlaşdırmışdı. Eyni şey Rusiya prezidenti Putinin başına gələ bilər".**

"Stratfor" təhlilçiləri Putinin özünə siyasi karyeranı necə qurduğu və hakimiyyətə necə gəldiyini ətraflı təsvir ediblər. Ekspertlərin fikrincə, Putin Boris Yeltsinin ona görə varisi olub ki, Kosovodakı müharibə zamanı Kreml Serbiyanı savaşla hədələyən Qərbə qarşı siyasi və hərbi planda durmaqda bacarıqsızlıq göstərib. **"Yeltsin etirazlar bildirdi, ancaq NATO və ABŞ Rusiyanın 90-cə illərdə dağılan ordusu və iqtisadiyyatından çıxış edərək onun mövqeyini vecinə almırdı"** - yazır amerikalı analitiklər.

Məqalə müəlliflərinə görə, seçildikdən sonra Putinə orduda lazımi qayda-qanun yaradacaq sərt idarəçi rolu ayrılıb: "Ötənilki hadisələrə qədər bu tapşırığı yerinə yetirmək ona müyəssər olurdu. Lakin Ukraynaya müdaxilə Putinin kobud səhvi oldu... Putinin ehtiyat variantı bu idi ki, Ukraynadan və energetik şantajdan istifadə edib Rusiyaya qarşı duran ABŞ və Avropa arasında parçalanma yaratsın. Ancaq Malayziyanın "Boeing 777" sərnişin təyyarəsinin vurulması bu planı alt-üst etdi. Avropalılar və amerikanlar əmin oldular ki, məhz Moskva rusiyayönlü terrorçulara hava hücumundan müdafiə sistemləri və bu qurğulardan istifadə eləmək üçün hərbçilər göndərib. Odur ki, Qərbdə parçalanma yaratmaq mümkün olmadı".

**"Bu məqamda Putin sərt siyasət yürüdən effektli və təcrübəli idarəçidən yaraqlıların ümidsiz mübarizəsini dəstəkləyən, onlara silah-sursat ötürən təhlükəli və qabiliyyətsiz siyasətçiyə çevrilir"**, - deyə təhlil yazısında daha sonra qeyd edilir.

*****

Ekspertlər bu və digər amillərin toplusuna görə Putini Xrüşşov kimi eyni talenin gözləyəcəyini vurğulayırlar: **"1964-cü ildə sovet lideri Nikita Xruşşov Kubada nüvə silahı yerləşdirəcəyin ilə hədələdiyi ABŞ-la konflikti özü üçün uğursuz şəkildə başa vurmuşdu. Bu, onun partiya elitası arasında müdafiəsini zəiflətdi. İqtisadiyyatın zəifləməsi də başqa yandan Xruşşovun ziyanına işlədi. Odur ki, silahdaşları onu azad edib, yerinə Brejnevi qoydular. Beynəlxalq siyasətdə məğlubiyyət və iqtisadi uğursuzluq beləcə, o dövrün ən nüfuzlu liderlərindən birini postundan götürdü. Bu gün də Rusiya iqtisadiyyatı fəlakətli durumdadır. İqtisadi göstəricilər Xruşşov və Yeltsin dönəmlərindəkindən də betərdir və yaxın illərdə yaxşılaşmayacaq. Ukraynadakı müharibə səbəbindən Rusiya iqtisadiyyatı dayanıb və dərin geriləmə başlayıb. Dövlət borcu son 4 ildə iki dəfə artıb, ölkənin bəzi regionları isə ümumiyyətlə, bankrot ərəfəsindədir. Hərbi konfliktin yalnız ilk yarım ilində Rusiyadan kapital axını 76 milyard dollar təşkil edib. Və bütün bunlar neftin qiymətinin düşməsi fonunda baş verib. Hərbi uğurlar rusiyalıların diqqətini iqtisadi problemlərdən yayındırır, lakin reallıq Putun və onun rejimi üçün böyük təhdidə çevrilib".**

Analitiklər Putinə Mixalil Qorbaçovun da aqibətini xatırladıblar: **"Başqa nümunələr də var. Hər halda, kim ağlına gətirərdi ki, Mixail Qorbaçovu hakimiyyətdən uzaqlaşdırarlar? Tarix sübut edir ki, öz siyasətini "əzələlər" hesabına quran və bu zaman kobud iqtisadi səhvlərə yol verən liderlər qurtuluş tapmırlar".**

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 62 (6090) 20 mart 2015



Aslan Aslanov

# Aslan Aslanovun oğlunun adı yeni qalmaqalda

## Turqay Aslanovun "avtoş"luq etdiyi "KİA" markalı maşını cərimə meydançasına aparılıb; sabiq nazir müavininin əmlaklarını adına rəsmiləşdirdiyi şəxsin kimliyi bilindi

**Şəmkirin sabiq icra başçısı, kənd təsərrüfatı nazirinin keçmiş müavini Aslanovun Ədliyyə Nazirliyində çalışan oğlu Turqay Aslanov yenidən saxlanıb. Redaksiyamıza daxil olan məlumata görə, martın 18-dən 19-na keçən gecə Nəsimi rayonu ərazisində Dövlət Yol Polisi İdarəsinin əməkdaşları yol hərəkəti qaydalarını kobud surətdə pozan, "avtoş"luq edən sürücünü saxlayıblar.**

Yol polislərinə sənədləri ni vermək istəməyən sürücü mobil telefonuna əl atıb. Lakin DYP əməkdaşları ona "dosta zəng" məsələsinin 2 ay öncə qapadıldığını deyiblər. Nəhayətdə qara rəngli, "KİA" markalı, Az 90 AH 291 nömrə nişanlı avtomobilin sürücüsü sənədləri DYP əməkdaşlarına vermək məcburiyyətində qalıb. Sürücünün inadkarlığının səbəbi də bu zaman üzə çıxıb. Məlum olub ki, sürücü Aslan Aslanovun oğlu Turqay Aslanovdur. Onu Nəsimi rayonu ərazisində DYP əməkdaşları son 30 gündə 2-ci dəfədir ki, saxlayırlar! Nəqliyyat vasitəsi yaxınlıqdakı cərimə meydançasına aparılıb. Yada salaq ki, ötən ay T.Aslanovun idarə etdiyi "Bentley" markalı avtomobillə "avtoş"luq etmişdi. Fevralın 20-də gecə saat 1 radələrində Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polis İdarəsinin əməkdaşları Nəsimi rayonu ərazisində kobud qayda pozuntusu törədən bahalı "Bentley" markalı maşını saxlayıblar. Az 10 DO 007 dövlət nömrə nişanlı bu avtomobilin sürücüsünün sərxoş olduğu, eyni zamanda sənədlərin qaydasında olmadığı müəyyənləşmişdi. Buna görə də avtomobil 3-cü mikrorayonda yerləşən cərimə meydançasına aparılmışdı. Sonradan məlum olub ki, avtomobili idarə edən şəxs Aslan Aslanovun oğlu Turqay Aslanovdur. Həmin avtomobil 2008-2013-cü illərdə Turqay Aslanovun adına olsa da, 2013-cü ildə Allahverdiyev Valeh Ramazan oğluna etibarnamə verilib. Amma sayı məhdud, təxminən 300 min dollar dəyərində olan ağ rəngli "Bentley" daim Turqay Aslanov tərəfindən idarə olunub. Turqay Aslanov hazırda Ədliyyə Nazirliyinin İstintaq İdarəsinin müstəntiqi vəzifəsində çalışır.

Qaynağımız deyib ki, həmin vaxt T.Aslanovun "Bentley" markalı maşınla "avtoş"luq etməsi mətbuatda dartışılandan sonra A.Aslanov oğlunun 300 minlik maşınını əlindən alıb. Onu dünən cərimə meydançasına aparılan "Kia" markalı maşından istifadə etməsini tapşırıb. Faktiki T.Aslanovun olan "Bentley" və digər bir bahalı maşını - "Mercedes Gelenvagen"i hazırda A.Aslanovun "Vorovski"də, Daxili Qoşunların Baş İdarəsi ilə üz-üzə olan 33 nömrəli, 3 mərtəbəli villasının qarajında saxlanır. Yeri gəlmişkən, qeyd edək ki, A.Aslanovun həyat yoldaşının adına olan həmin villanı 5 milyon manata satışa çıxarması haqda məlumat da var.





T.Aslanovun "KİA" markalı avtomobili də "Bentley" kimi Valeh Ramazan oğlu Allahverdiyevin adınadır.

V.Allahverdiyevin barəsində də maraqlı məlumatlar əldə etmişik. Bu şəxs Şəmkirdəndir, vaxtilə "Azərneftyağ" İstehsalat Birliyinin baş direktoru Ramiz Mirzəyevin ailə sürücüsü olub. A.Aslanovun mərhum R.Mirzəyevlə yeznə-qayın olmaları da məlumdur. A.Aslanov Şəmkir icra başçısı vəzifəsindən çıxarılaraq kənd təsərrüfatı nazirinin müavini vəzifəsinə təyinat alandan sonra V.Allahverdiyevi özünə sürücü götürüb. O, A.Aslanov nalayiq sözlər işlətdiyinə görə işdən çıxıb. Lakin sonradan yenidən A.Aslanov onu geri qaytara bilib. 2013-cü il oktyabrında A.Aslanov tutduğu vəzifədən qovulan ərəfədə oğlunun "Bentley" markalı maşınını sürücüsünün adına rəsmiləşdirib. Hazırda 5 milyon manata satışa çıxardığı villanı da həmin vaxtlarda həyat yoldaşının adına rəsmiləşdirib.

❑ **E.HÜSEYNOV**

***P.S.*** *Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

# Bayram günlərinin iqtisadiyyata təsiri-günə 57 milyon ziyan...

## Samir Əliyev: "İtkilərin həcmi də ildən-ilə artır"



**Bu gündən Novruz bayramı ilə əlaqədar ölkədə 9 gün iş olmayacaq. Digər ölkələrlə müqayisədə, Azərbaycanda istirahət günlərinin sayı çoxdur və bu, iqtisadiyyata təsirsiz ötüşmür. Ekspertlər qeyd edirlər ki, bayramlarla əlaqədar qeyri-iş günlərinin sayının çoxluğu heç də cəmiyyətdə birmənalı qarşılanmır. Əgər vaxtamuzd işçilər qeyri-iş günlərinin sayının çoxluğunda maraqlıdırlarsa, işəmuzd işçilər üçün arzuolunmazdır. Çünki məmurlar, müəllimlər, həkimlər və sair iş günlərinin sayından asılı olmayaraq qabaqcadan təyin edilmiş maaş alırlar. Ancaq gündəlik qazancla yaşayan şəxslər üçün hər qeyri-iş günü zərər deməkdir.**

**Ekspert Samir Əliyev** musavat.com-a bildirir ki, qeyri-iş günləri təkcə ayrı-ayrı şəxslərə yox, ümumilikdə ölkə iqtisadiyyatına zərər vurur: "Bununla bağlı müxtəlif hesablamalar mövcuddur. Məsələn, Rusiyanın Əmək Nazirliyinin hesablamalarına görə, orta hesabla hər bayram günü 370-420 milyon dollar zərər deməkdir. Ölkə ÜDM-i hər il Yeni il bayramlarına görə təxminən 20-25 milyard dollar itirir. Böyük Britaniyada ölkə iqtisadiyyatı hər qeyri-iş gününə görə 2,3 milyard funt itirir. Beləliklə də il ərzində ümumi itki 19 milyard funt zərər verir. Qeyri-iş günlərinin çoxluğu Azərbaycan iqtisadiyyatına da öz təsirini göstərir. Düzdür, neft amili bu itkini azaldır. İstənilən halda iqtisadi artıma mənfi təsir göstərir. Bu günə qədər zərərin nə qədər olması barədə konkret araşdırma mövcud deyil. Ancaq bəzi hesablamalarla itkinin təxmini həcmi barədə təsəvvür yaratmaq olar. 2014-cü ildə ÜDM-in həcmi 59 milyard manat olub. ÜDM-in gündəlik həcmi isə orta hesabla 162 milyon manat olub. DSK-nın məlumatına görə, ÜDM-in 50 faizi neft sektorunun, 15 faizi isə nəqliyyat, ticarət və ictimai iaşənin payına düşür. Neft hasilatı fasiləsiz istehsal sahəsi hesab olunduğundan qeyri-iş günləri bu sektora şamil edilmir. Nəqliyyat, ticarət və ictimai iaşə obyektləri də ilin istənilən günü müştərilərin üzünə açıqdır. Dörd sektoru, neft, nəqliyyat, ticarət və ictimai iaşəni götürdükdə belə çıxır ki, iş gününün olub-olmamasından asılı olmayaraq gündəlik ÜDM-in təxminən 65 faizi formalaşır. Yerdə gündəlik ÜDM-in, 162 milyon manatın 35 faizi qalır ki, bu da təxminən 57 milyon manat edir.

Deməli, hər işsiz gün üçün ölkə iqtisadiyyatı təxminən 57 milyon manat zərərə düşür. Nəzərə almaq lazımdır ki, ölkə iqtisadiyyatı ildən-ilə artır və ona uyğun olaraq itkilərin həcmi də artır. Təkcə bank sektoru hər qeyri-iş gününə görə ümumilikdə 10-15 milyon manat itirir".

YUNESKO-nun qiymətləndirmələrinə görə, dünya üzrə qeyri-iş günlərinin orta statistik rəqəmi 12,2 gündür. Dünyada ən çox qeyri-iş olan bayram günləri Şri-Lankadadır. Bu ölkə vətəndaşlarının məzuniyyətdən savayı ildə 24 gün istirahət etmək şansı olur. İran, Maldiv adaları və Braziliyada belə günlərin sayı 21-dir. Hökumət Hindistanda 18, Cənubi Koreyada 17, Yaponiyada 15 bayram günləri müəyyənləşdirib.

Avstraliya və İsveçrədə 11, Sinqapur, İrlandiya və Niderlandda 10, Britaniyada 9, Kubada 8 qeyri-iş günü var. Almaniya vətəndaşları 13, İtaliya 12, ABŞ isə 11 gün evində bayram edir. MDB ölkələrindən Belarusda 13, Rusiyada 11, Ukraynada 10 gün qeyri-iş günü var. Azərbaycanda isə 2014-cü ildə məzuniyyətləri saymasaq, 365 günün ən azı 124 günü qeyri-iş günü olub.

**Ekspert Vüqar Bayramov isə mətbuata açıqlamasında qeyd edir ki, 9 gün bayram gününün olması iqtisadi cəhətdən arzuolunan deyil:** "Doqquz gün bayram tətilinin elan edilməsindən qazanan tərəf yalnız turizm sektoru olacaq. Nəzərə alsaq ki, turizm sektoru adətən istirahət günlərinin və ya bayram günlərinin çox olmasından, yerli müştərilərin cəlb edilməsi baxımından gəlir əldə edə bilir. Bayram günlərinin çox olması vətəndaşların ölkədaxili turizm, bəzilərinin isə xarici ölkələrə səyahət etmək üçün turizm xidmətindən istifadə etməsinə gətirib çıxarır. Bu baxımdan bayram günlərinin çox olmasından qazanan tərəf turizm sektorudur. Güman olunur ki, nəqliyyat sektoru da qazanan tərəfdir. Çünki bu sektorda ölkədaxili, ölkəxarici, hava nəqliyyatı və dəmiryol nəqliyyatından daha çox gəlir əldə etmək olur. Amma 9 günlük qeyri-iş gününün mənfi, psixoloji tərəfləri də var. Çünki adətən insan 9 gün işləməyibsə, onda müəyyən tənbəllik formalaşır. Psixoloji olaraq işə yanaşmada müəyyən çətinliklər formalaşır. Bunun da mənfi psixoloji tərəfləri var. Digər mənfi cəhət isə həmin qeyri-iş günlərində əlavə dəyərin nisbətən az yaradılması ilə bağlıdır. Belə ki, bayram günlərində, xüsusən şirkətlər və dövlət müəssisələri dəyər vergisiz çalışmadığı üçün həmin iş yerlərinin yaranan dəyərin məbləğini azaldır. Bütün hallarda məhz bu birmənalı şəkildə iqtisadiyyata nisbətən az dəyərin yaradılması formasında təsir göstərir. Sözsüz ki, sonrakı dövrdə işçilər həmin dəyəri kompensasiya edə bilər. Amma bütün hallarda xüsusən də 9 günlük qeyri-iş və bayram günlərinin olması iqtisadi baxımdan arzuolunan deyil".

❑ **RÖYA**

# Sülh sazişindən imtina edən İrəvan təlaş içərisindədir

## Rusiyanın Bakıya silah satmasından narahat olan düşmən ölkə Türkiyəni neytrallaşdırmağa çalışır

**Son zamanlar işğalçı Ermənistanın rəhbərliyi sərsəm davranışları ilə həm Azərbaycan əsgərindən qorxduğunu nümayiş etdirir, həm də qorxutmağa yönəlik cəhdlər göstərir. Beynəlxalq aləmin davamlı çağırışlarına baxmayaraq, Ermənistan böyük sülh sazişinin hazırlanması istiqamətində konstruktiv mövqedən çıxış etməyə tələsmir.**

Bugünlərdə məlum oldu ki, Ermənistan Dağlıq Qarabağ münaqişəsi çərçivəsində böyük sülh sazişi üzərində işləmək üçün işçi qrupunun yaradılması təklifindən imtina edib. "Trend"in məlumatına görə, bunu jurnalistlərə Azərbaycan **XİN rəhbəri Elmar Məmmədyarov deyib. Nazir deyib:** "Ermənistan tərəfinin son çıxışları imkan vermir ki, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində danışıqların vəziyyəti ilə bağlı optimist olum". E.Məmmədyarovun sözlərinə görə, Ermənistan tərəfi aqressiv ritorika ilə məşğuldur: "Bəlkə bu, daxili auditoriya üçündür. Azərbaycanın mövqeyi budur ki, qoşunlar nə qədər tez çıxsa, sülh sazişi o qədər tez imzalanacaq. Azərbaycan öz inkişafını davam etdirir. Qarsda TANAP layihəsinin təməli atıldı. Bu böyük layihə regionun inkişafı üçün önəmlidir. Ermənistan hansısa layihəyə qoşulmaq istəyirsə, bizim arqumentləri bilir: əsgərlərini işğal olunmuş torpaqlardan çıxarmalıdır".

Azərbaycanın Türkiyə ilə bütün sahələrdə, o cümlədən hərbi sahədə artan əməkdaşlığı İrəvanda təşviş doğurur. Elə işğalçı ölkənin rəhbərliyindən gələn son reaksiya da bundan xəbər verir. İki qardaş ölkənin hazırda davam edən birgə hərbi təlimlərindən narahatlığını gizlətməyən erməni hakimiyyəti iddia edib ki, Türkiyə hər zaman Dağlıq Qarabağ münaqişəsinin həllinə problem yaradıb. APA-nın "news.am" saytına istinadən verdiyi məlumata görə, bunu Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyan Avropa İttifaqının genişlənmə və Avropa qonşuluq siyasəti üzrə komissarı Yohannes Han ilə birlikdə keçirdiyi mətbuat konfransında deyib. O bildirib ki, əgər Ankara doğrudan da kömək etmək istəyirsə, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesindən uzaq durmalıdır. Nazir AŞ PA-nın Demokratiya və siyasi məsələlər komitəsinin Dağlıq Qarabağ üzrə məruzəçisi Robert Valterin obyektivliyini şübhə etdiklərini də söyləyib. Qəribəsi odur ki, Ermənistan rəhbərliyi Rusiyanın Ermənistana göstərdiyi hərtərəfli dəstəyi ört-basdır etməyə, hətta ərazilərimizin işğalında Rusiya əsgəri və silahından istifadəni unutdurmağa cəhd göstərməklə Türkiyə-Azərbaycan hərbi-siyasi əməkdaşlığı ilə bağlı sərsəm iddialar səsləndirib.

Hələ bu azmış kimi, Ermənistan prezidenti Rusiyadan aldıqları milyardlarla dollarlıq silah-sursat, texnikanı, həmçinin İrəvan-Moskva hərbi əməkdaşlığını, Gümrüdəki hərbi baza faktını kül altında köz kimi gizlətməyə mənasız cəhd göstərib. Müstəqil olandan sonra heç bir ölkə Rusiyanın Ermənistana verdiyi dəstəyin heç bir 1 faizini göstərməyib. Bu barədə Ermənistan prezidenti Serj Sərkisyan açıqlama verib. **Sərkisyanın sözlərinə görə, Rusiya və Ermənistan arasında hərbi əməkdaşlıq böyük rol oynayır. Lakin Sərkisyan Rusiyanın Azərbaycana silah satması barədə də danışıb və narahatlığını gizlətməyib.** "Bizi narahat edən məsələ Rusiyanın Azərbaycana silah satmasıdır. Bunun nəticəsində əsgərlərimiz başa düşür ki, Azərbaycan və Ermənistanın təmas xəttində onları Rusiya silahları ilə öldürmək istəyirlər" deyə, Sərkisyan bildirib. O bildirib ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsini hərbi yolla həll etməyə çalışır. Halbuki Azərbaycan torpaqlarının 20 faizi Ermənistan tərəfindən işğal olunub. Sərkisyan uşaqların, qadınların görünməmiş vəhşiliklərlə öldürüldüyü Xocalı soyqırımının da birbaşa iştirakçısı olub. Azərbaycan Ordusunun sürətlə silahlanmasından narahat olduğunu gizlətməyən Sərkisyan, görünür, ordusuna çox da güvənmir. Ermənistanın cani rəhbərinin bununla Rusiyanı şantaj etməyə cəhd göstərdiyi də şübhə doğurmur. Qeyd edək ki Azərbaycan Avropada əsas silah növlərinin ikinci ən böyük idxalçısıdır. " Stokholm Dünya Problemləri Araşdırmaları İnstitutunun dərc etdiyi "Beynəlxalq silah transferində trendlər-2014" adlı hesabatında bu barədə məlumat verilib. Hesabatda dünyanın bir sıra regionlarında 2010-2014-cü il və 2005-2009-cu illər ərzində silah idxalı və ixracı üzrə məlumatların müqayisəli təhlili əks olunub. Qeyd olunub ki, 2005-2009-cu illərlə müqayisədə 2010-2014-cü illərdə Azərbaycana silahların idxalı 249% artıb. Verilən məlumata əsasən, Azərbaycana silah idxalının təxminən 85%-i Rusiyanın payına düşür. Ermənistan tərəfinin silah idxalı Azərbaycanın idxal etdiyi həcmin 4%-ini təşkil edir. İnstitutun ekspertləri bu statistikanı Dağlıq Qarabağ münaqişəsinin həll olunmaması ilə əlaqələndirirlər.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlunun sözlərinə görə, Ermənistanın böyük sülh sazişi ilə bağlı işçi qrupdan imtina edəcəyi əvvəlcədən bəlli idi:** "Çünki bu saziş münaqişənin mərhələli həllini diktə edir. Yəni sadədən mürəkkəbə doğru hərəkət edilməlidir. Bu isə işğalçı dövlətin maraqlarına cavab vermir. Onlar bölgənin status məsələsini bəri başdan müəyyənləşdirmək istəyirlər ki, bu da mümkün deyil. Böyük sülh sazişi ideyasına yalnız İrəvan müqavimət göstərmir. Mən Minsk Qrupu həmsədrlərindən də bu ideyaya ciddi maraq hiss etməmişəm, elə bir açıqlamaları da yoxdur. Fərqi yoxdur, həmsədrlər təki özlərinin hazırladıqları "Madrid planını" İrəvana qəbul etdirsinlər. Bu da bizim üçün məqbuldur. Sadəcə, bu istiqamətdə də hələ irəliləyiş yoxdur". **E.Şahinoğlu qeyd etdi ki, onun diqqətini Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun bir başqa fikri çəkdi:** "Nazir deyib ki, Ermənistan martın 17-də təməli qoyulan TANAP layihəsində iştirak etmək istəyirsə, işğal faktına son qoymalıdır. Faktiki bu İrəvana növbəti mesajdır. Yəni əgər regional layihələrə qoşulub pul qazanmaq istəyirsinizsə, heç olmazsa Dağlıq Qarabağ ətrafındakı rayonları boşaldın. Lazımi mesajdır. Çünki beynəlxalq aləm də bilməlidir ki, biz Ermənistanla əlaqələrin əleyhinə deyilik, sadəcə, vacib şərtimiz var ki, o yerinə yetməlidir. Qərb bəzən bizdən münaqişə nizamlanmadan da Ermənistanla iqtisadi münasibətlərin qurulmasını istəyir. Rusiya Krımı ilhaq edib, belə olan halda Ukrayna ilə Rusiya arasında ortaq iqtisadi layihələrin reallaşması mümkündürmü? Avropalı rəsmilərinin və diplomatlarının cavabı bəllidir: indiki halda bu, mümkün deyil".







**Ermənilərin Türkiyəni neytrallaşdırmaq cəhdlərinə gəldikdə, politoloq E.Şahinoğlu xatırlatdı ki, son zamanlar Ankaranın Dağlıq Qarabağ münaqişəsinin həllində fəal olacağına dair beynəlxalq aləmə ciddi mesajlar göndərir:** "Təsadüfi deyil ki, Türkiyə ilə Almaniyanın ATƏT-in Minsk Qrupu həmsədrlərinə qoşulması mümkünlüyü müzakirə predmetidir. Bu isə İrəvanı ciddi narahat edir. Ona görə də Ermənistanın xarici işlər naziri Türkiyəni münaqişənin həllindən uzaq dayanmağa çağırır. Ancaq o deməklə deyil ki, əgər işğalçının xozeyini Rusiya prezidenti Türkiyənin regional dövlət olduğunu etiraf edirsə, bunun özü Ankaranın rolundan və imkanlarından xəbər verir. Türkiyə artıq Cənubi Qafqazda ağırlığını ortaya qoyub. Söhbət yalnız regional enerji layihələrindən getmir. Azərbaycanla Türkiyə arasında hərbi təlimlərin sayı və miqyası genişlənir. Demək, Ankara danışıqlar prosesinin özündə iştirak etməsə də, ümumi prosesə təsir edən əsas oyunçulardan birinə çevrilib. O ki qaldı, erməni nazirin AŞ PA-nın Demokratiya və siyasi məsələlər komitəsinin Dağlıq Qarabağ üzrə məruzəçisi Robert Valterin obyektivliyinə şübhə etməsinə, bu da anlaşılandır. Çünki İrəvana bəllidir ki, AŞ PA ərazi bütövlüyü prinsipindən çıxış edir. Ümumiyyətlə, Krımın ilhaqı Qərbin ərazi bütövlüyü prinsipini ön plana almasını aktuallaşdırıb. Bu mənada biz beynəlxalq aləmdə xeyrimizə formalaşan ab-havadan xeyrimizə istifadə etməyə çalışmalıyıq".

**E.Şahinoğlu Sərkisyanın rus silahı ilə bağlı narahatlığını təbii sayır:** "Ermənistan hakimiyyəti öz xozeynindən də qorxur. Çünki Azərbaycan Rusiyanın əsas silah alıcılarındandır. İrəvan nə qədər narazı olsa da, "Azərbaycana silah satmayın" açıqlamasını səsləndirəcək qədər cəsarətin sahibi deyil. Rusiya Azərbaycana silah satmaqla milyardlarla dollar qazanır. Kremldə İrəvanı saya salan da yoxdur. Ermənistan cəmiyyətini hətta o amil də qıcıqlandırır ki, Moskva Qırğızıstanın borclarını silir, eyni yanaşmanı Ermənistana tətbiq etmir. Kremlin niyə belə addım atmalıdır ki? Qırğızıstan müstəqil dövlətdir, Ermənistan isə vassaldır. Vassal isə əmrləri yerinə yetirməlidir".

**XİN-in mətbuat katibi Hikmət Hacıyev bildirdi ki, Türkiyənin Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar mövqeyi ilk növbədə beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır:** "Onu nəzərə almaq lazımdır ki, Türkiyə ilə Ermənistan arasındakı münasibətlərdə ən başlıca məqam məhz Kəlbəcərin işğalı faktıdır". Nazirlik rəsmisi Kəlbəcərin işğalından sonra BMT Təhlükəsizlik Şurasının qətnamə qəbul etdiyini xatırlatdı: "Beynəlxalq ictimaiyyətə bir daha aydın oldu ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Kəlbəcər rayonu işğal olundu. Sonrakı mərhələdə də Türkiyə-Ermənistan əlaqələrindəki mövcud vəziyyət yarandı. Türkiyənin mövqeyi beynəlxalq hüquqa, ədalətə əsaslanır. Türkiyə də Minsk Qrupunun üzvüdür və bu qrupun bütün üzvləri tənzimlənmə prosesində iştirak edirlər. Bu proses də Ermənistanın işğal və təcavüzü aradan qaldırmasına xidmət etməlidir. Türkiyənin Minsk Qrupundakı fəaliyyəti də yüksək qiymətləndirilir".

**H.Hacıyev Ermənistanın böyük sülh sazişindən imtinasına da reaksiya verdi:** "Ermənistan prezidenti və Ermənistan XİN başçısının son günlərdə verdiyi açıqlamalar kifayət qədər ziddiyyətli, aqressiv xarakter daşıyır. Bu, bir daha onu göstərir ki, Ermənistan tərəfi böyük sülh sazişi üzərində işə başlamaqdan yayınmağa çalışır və müxtəlif bəhanələrlə, xüsusilə aqressiv ritorika ilə bundan imtina etməyə cəhd göstərir. 2014-cü ildən başlayaraq qoşunların təmas xəttində və Ermənistan-Azərbaycan sərhədində təxribatçılıq əməllərinin şiddətlənməsinin bir daha şahidi olduq. Eyni zamanda siyasi müstəvidə də Ermənistan tərəfindən təxribatçılıq və siyasi möhtəkirlik fəaliyyətinin şahidi oluruq ki, burada əsas hədəf böyük sülh sazişindən yayınmaqdır. Amma burada ATƏT-in Minsk Qrupu həmsədrlərinin konkret çağırışı var ki, tərəflər böyük sülh sazişi üzərində işləməlidir. Ermənistan isə buna məhəl qoymamaq siyasəti yürüdür".

**XİN rəsmisi İrəvanın rus silahının Azərbaycana satılmasından dolayı narahatlığına da şərh verdi. H.Hacıyev:** "Ermənistan ilk növbədə ondan narahat olmalıdır ki, özü işğalçı və təcavüzkar dövlətdir. İşğalçı və təcavüzkar dövlət kimi regiondakı gərginliyin, qeyri-sabit vəziyyətin məsuliyyəti bilavasitə Ermənistanın üzərinə düşür. Azərbaycan işğala məruz qalmış dövlət kimi öz müdafiə qabiliyyətini artırmaq hüququna malikdir. Bu hüququndan da istifadə edərək öz hərbi potensialını gücləndirib daha da inkişaf etdirir. Bütün bunlar Azərbaycanın müdafiəsinə xidmət edən addımlardır. Bu sahədə Azərbaycan bir çox dövlətlərlə əməkdaşlıq edir. Azərbaycanın hərbi əməkdaşlığının coğrafiyası kifayət qədər geniş xarakter daşıyır. Həmçinin ölkəmizin müdafiə sənayesi də çox sürətli inkişaf prosesindədir. Ermənistanın belə bir narahatlığı varsa, işğalçı və təcavüzkar dövlət olaraq öz məsuliyyətini və narahatlığa görə səbəbləri özündə axtarmalıdır".

Yeri gəlmişkən, düşmən ölkənin sərsəm açıqlamalarına Azərbaycandan daha bir cavab gəlib. Martın 19-da müdafiə naziri general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov təlim poliqonunda tank bölmələrinin hazırlıq məşqlərini izləyiblər. Müdafiə Nazirliyinin məlumatına görə, döyüş təlimi hazırlığı çərçivəsində tank heyətləri ərazidə yaradılmış müxtəlif maneələri manevrlə aşma tapşırıqlarını yerinə yetiriblər. Tank heyətləri marşrut mərhələlərində maneə sahəsini, dirsəkli körpünü, mina-partlayış sahəsini, tankəleyhinə xəndəyi və eskarpı dəf etməklə bacarıqlarını nümayiş etdiriblər. Heyətlər tanklardan atəş açaraq təlim sahəsində yaradılmış tank, tankəleyhinə pusqu və helikopter hədəflərini döyüş atışları ilə məhv ediblər.

Tank heyətlərinin hazırlığından razı qalan müdafiə naziri təlim məşqlərinin daha da ciddi və intensiv aparılmasına dair tapşırıqlarını verib.

YENİ MÜSAVAT
N 62 (6090) 20 mart 2015

# Kollec tələbəsinin əməliyyat zamanı ölümünün təfərrüatları üzə çıxdı

## Leyla Mürsəlovanın ürək çatışmazlığı problemi varmış; valideynlərinin əməliyyat öncəsi bu barədə xəbərdarlığına əhəmiyyət verilmədiyi deyilir...

**Martın 18-də gənc bir qız əməliyyat masasında dünyasını dəyişdi. Hüquq-mühafizə orqanları tənqidçi Elnarə Tofiqqızının ölümünə səbəb olan həkimi cəzalandırmamış ikinci oxşar hadisə mətbuatın gündəmini silkələdi.**
**Bəllidir ki, burnundan əməliyyat olunmaq istəyən Maliyyə-İqtisad Kollecinin tələbəsi Mürsəlova Leyla Namiq qızı “Star Med” özəl klinikasında narkoz verildikdən sonra dünyasını dəyişib. Mərhumun həkimi cərrah Sənan Mehdiyev olub.**



İlkin ehtimallara görə, Leyla Mürsəlova narkozun dozasının yüksək olması səbəbindən həyatını itirib. Hadisənin təfərrüatlarını öyrənmək üçün adıçəkilən klinika ilə əlaqə saxlamağa çalışsaq da, telefonlara cavab verilmədi.

Mərhumun təhsil aldığı kollecdən isə tələbənin dünyasını dəyişdiyini təsdiqlədilər. **Azərbaycan Maliyyə-İqtisad Kollecinin direktor müavini Fəxrəddin Əsədov** “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, dünyasını dəyişən gənc qızın ölüm xəbərini martın 18-də alıblar: “Mürsəlova Leyla sonuncu, III kursda oxuyurdu, 9 illik təhsil bazasından daxil olmuşdu, artıq o qrupun dərsləri bitib, təcrübədə idilər. O, rus bölməsində maliyyə ixtisası üzrə təhsil alırdı. Leyla intizamlı, səliqəli tələbə idi. Nə əlaçı deyildi, nə də çox pis oxumurdu, orta səviyyəli tələbə idi. O qızın burun əməliyyatına nə dərəcədə ehtiyacı var idi, bunu bilmirəm, ancaq sifətində heç bir qüsur, narahatçılıq yox idi. Dünən səhər tezdən biz bu haqda xəbər tutduq. Qrup yoldaşları, müəllimələri dəfnə qatılmaq üçün onlara getdilər. Onlar daha dəqiq bilərlər bu haqda, ancaq hazırda dərsdə deyillər. Hələ ki valideynləri ilə də bu haqda danışa bilməmişik”.

**Hər hansı xəstəliyinin olmasına gəlincə, F.Əsədov bildirdi ki, hər il kollecin tələbələri tibbi komissiyadan keçir, həmin tələbədə də hər hansı xəstəlik aşkarlanmamışdı:** “Əgər belə bir hal olsaydı, onun ailəsinə məlumat verib, müalicəsi üçün istiqamətləndirərdik”.

Hadisə ilə bağlı Daxili İşlər Nazirliyinin mətbuat xidməti ilə də əlaqə saxladıq. Lakin DİN sözçüsü **Ehsan Zahidov** bildirdi ki, bu məsələnin araşdırılması Səhiyyə Nazirliyinin səlahiyyətindədir: “Hadisə ilə bağlı Səhiyyə Nazirliyi ilə əlaqə saxlayın”.

**Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar Qədirli isə “Trend”ə bildirib ki, məsələ araşdırılacaq:** “Müvafiq məlumatlar daxil olduqdan sonra Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi tərəfindən ekspertiza həyata keçiriləcək. Bundan sonra isə Səhiyyə Nazirliyi faktla bağlı tədbirlər görə bilər”.

### Adil Qeybulla: “Təəssüf ki, bir çox həkimlər əməliyyat öncəsi müayinələri əhəmiyyətsiz hesab edirlər, bu da sonradan ağırlaşdırıcı hallara gətirib çıxarır”

**Öz növbəsində Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov** “Trend”ə açıqlamasında bildirib ki, Mürsəlova Leyla Namiq qızının “Star Med” klinikasında əməliyyat zamanı ölməsi faktı ilə əlaqədar Yasamal Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 124.1- ehtiyatsızlıqdan adam öldürmə maddəsi ilə cinayət işi açılıb. Onun sözlərinə görə, ölüm səbəbinin müəyyənləşdirilməsi məqsədilə məhkəmə-tibbi ekspertiza təyin edilib. İş üzrə zəruri istintaq hərəkətləri aparılır.

Qeyd edək ki, mətbuatda dünyasını dəyişən L.Mürsəlovanın ürək çatışmazlığından əziyyət çəkdiyi barədə məlumatlar yayılıb. L.Mürsəlovanın valideynləri əməliyyatdan əvvəl qızlarının səhhətindəki bu problem barədə tibbi heyəti məlumatlandırsa da, qıza əməliyyat olunmaq üçün narkoz vurulub. Nəticədə o, dünyasını dəyişib.

*****



**Gənc qızın əməliyyat zamanı dünyasını dəyişməsi ilə bağlı “Yeni Müsavat”a danışan tibb elmləri doktoru Adil Qeybulla bildirdi ki, bəzən həkim əməliyyat etdiyi şəxsin yanaşı xəstəliklərini gözdən qaçıra bilər və bu zaman ağırlaşmaların olması qaçılmazdır:** “Mən bu hadisə haqqında mətbuatdan oxudum, tam təfsilatı ilə məlumatım yoxdur. Ancaq belə düşünürəm ki, orada anestezioloji problem olub, həmin gənc qız narkozdan dünyasını dəyişib. Amma bunu ekspertiza müəyyən edəcək və onun nəticələrinə əsasən ölümün nəticələri araşdırılacaq. Ürək çatışmazlığı zamanı narkozdan ölüm halının baş vermə riski böyük ola bilər. Bunun olmaması üçün də həkim anesteziya metodunu müəyyənləşdirməlidir və əməliyyat olunacaq şəxsin xəstəliklərini nəzərə almalıdır. Təbii ki, son söz ekspertizadan sonra deyiləcək və hadisə məhkəmə predmeti olarsa, faktla bağlı araşdırma aparılmalıdır”.

**Ekspert bildirdi ki, hazırda özəl xəstəxanaların əksəriyyətində əməliyyatdan öncə xəstələrin müayinəsi üçün müəyyən paket var:** “Bu paketdə qan analizi götürülür, qanın tərkibi təhlil edilir, müəyyən hepatitlər varsa aşkarlanır. Ürəyin kardioqramma edilməsi də həmin paketə daxildir. Həkim əlavə nəyinsə müayinəsini vacib hesab edirsə, məsələn, şəkər xəstəliyi, qalxanvari vəz problemləri, digər yanaşı xəstəliklərin olub-olmaması ilə bağlı müayinə təyin edə bilər. Ümumiyyətlə, bütün dünyada hansısa xəstəliyin müalicəsini həyata keçirərkən konkret ”çek-ap" paketlər mövcuddur. Bu müayinələr müalicənin yan təsirlərinin ortaya çıxmamasını sığortalayır. Ancaq təəssüflər olsun ki, bizdə bir çox həkimlər bu cür müayinələri əhəmiyyətsiz hesab edir, birbaşa əməliyyat masasına keçirlər, bu da sonradan müəyyən ağırlaşmalara gətirib çıxarır. Bu situasiyanın səbəbini dəqiq demək mümkün deyil, ekspertiza əsas səbəbi ortaya çıxaracaq".

### Musa Quliyev: “Hesab edirəm ki, çox ciddi araşdırma aparılmalıdır və günahı olan şəxslər cəzalandırılmalıdır”

**Əməliyyat zamanı ölüm hallarının artmasından danışan Milli Məclisin Sosial siyasət komitəsinin üzvü Musa Quliyev Səhiyyə Nazirliyini bu kimi halları nəzarətə götürməyə çağırdı:** “Həmin gəncin ailəsinə başsağlığı verirəm, Allah onlara səbir versin. Hesab edirəm ki, bu məsələ ilə Səhiyyə Nazirliyi ciddi şəkildə məşğul olmalıdır. Ölümün səbəbi araşdırılmalıdır. Niyə narkoz verilərkən insan dünyasını dəyişməlidir? İndi o zaman deyil ki, kimsə narkozdan ölsün. O qədər narkoz seçimləri var, o qədər müxtəlif dərmanlar var. Bu gün hansı orqanizmin hansı dozada narkoza necə reaksiya verəcəyini araşdırmağın min cür üsulu var. Hesab edirəm ki, çox ciddi araşdırma aparılmalıdır və günahı olan şəxslər də çox ciddi şəkildə cəzalandırılmalıdır”.

**Deputat bu cür ölümlərin qarşının alınması üçün bir protokol qəbul edilməli olduğunu da vurğuladı:** “Bir protokol qəbul edilməlidir ki, hansı hallarda əməliyyata ehtiyac var. İndi gənc qızlar arasında dəb halını alıb, bir-biri ilə bəhsə girib əməliyyata girirlər. Bir çox həkimlər də maddi maraq qarşısında həkimlik məsuliyyətini unudaraq, lazım oldu-olmadı əməliyyatlar edirlər. Hesab edirəm ki, müvafiq orqanlar bunu nəzarətə götürməlidirlər. Bu gün estetik əməliyyatlar Azərbaycanda həddindən artıq vüsət alıb. Tibbi ehtiyacdan daha çox, tibb işçilərinin qazanc mənbəyinə çevrilib. Xalqımızın da səhiyyə-maarif işi o qədər aşağıdır ki, harada bir reklam görürlərsə, dərhal ona gedirlər. Avropa insanlarına baxsınlar, onların burnunda nəfəs almaqla bağlı hər hansı bir problem yoxdursa, heç vaxt əməliyyata getməzlər. Millətin sifəti də dəyişib, bizim antropoloji sifət quruluşumuzu aparıb slavyan xalqlarına bənzədirlər. Bu, lazımsız bir seçimdir və çox hallarda fəsadlara yol açır. Hər dəfə ölüm halı olmasa belə, insanların sifəti eybəcər hala düşür, bəzən mülklərini satıb üzlərini yenidən əvvəlki vəziyyətə qaytarmağa çalışırlar, dəfələrlə təkrar əməliyyatlar keçirirlər. Kim harada gəldi bu işlə məşğul olur, bunun qarşısı alınmalıdır, maarifləndirmə işi genişləndirilməlidir”.

***P.S***

*“StarMed”in fəaliyyəti dayandırılıb.*

*Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar Qədirli APA-ya açıqlamasında deyib ki, nazirliyin sərəncamı ilə klinikanın fəaliyyəti və hadisənin baş vermə səbəbləri ilə bağlı araşdırma başlayıb.*

*Klinika ilə bağlı müvafiq qərar araşdırmalar başa çatandan sonra veriləcək.*

❑ **Nərgiz LİFTİYEVA**

# Hicab məhbusu dustaq ölümünə etiraza görə hələ də karsda saxlanılır

## Qurban Məmmədov: “Araz Quliyev və digərləri faktiki, ölümə məhkum ediliblər...”



Araz Quliyev

**Xəbər verildiyi kimi, 2014-cü il dekabrın 22-də 14 saylı cəzaçəkmə müəssisəsində (CÇM) məhkum Elşad Babayevin işgəncə ilə ölümündən sonra adı çəkilən müəssisədə etiraz baş qaldırıb. O zaman “zona” xüsusi təyinatlı qoşun hissələri yeridilmiş, aksiyada iştiraka görə bir sıra məhbuslar fiziki təzyiqlərə məruz qalmışdılar.**

Onlardan hicab məhbusu Araz Quliyev və bir neçə digər dustaq işgəncə verilmək üçün İxtisaslaşdırılmış Müalicə Müəssisəsinə - “Tubzon”a aparılmışdılar. Bir ay karserdə saxlanılan məhkumlar ağır işgəncələrə məruz qaldıqdan sonra yenidən 14 saylı CM-ə qaytarılmışdılar.

Lakin əldə elədiyimiz məlumata görə, həmin məhbuslar hələ də həbsxanada karserdə saxlanılırlar ki, bu da onların doğmaları ilə yanaşı, ictimaiyyətdə haqlı narazılıq və narahatlıq yaradır.

Hüquqşünas Qurban Məmmədov hesab edir ki, məhbuslara bu cür münasibət qisas aktıdır və qanuna ziddir: “Faktiki olaraq, həmin məhbuslar ölümə məhkum ediliblər. Karserdə uzun müddət saxlanılma kimi inzibati cəza yoxdur. Baş verənlər özbaşınalıq və dövlət terrorudur. Araz Quliyev və başqaları dərhal karsdan çıxarılmalı və onlara normal şərait yaradılmalıdır. Bu barədə bütün beynəlxalq təşkilatları məlumatlandırmaq və diqqəti bu özbaşınalığa və dövlət terroruna yönəltmək lazımdır”.

Ümid edək ki, aidiyyəti qurumlar məsələni nəzarətə götürəcək və onsuz da azadlıqdan məhrum edilməklə ağır cəza almış insanlara, vicdan məhbuslarına üstəlik içəridə əlavə işgəncələr verilməsinə biganə olmayacaqlar.

Xatırladaq ki, cenubnews.com internet qəzetinin baş redaktoru olmuş Araz Quliyev saxta ittihamlar əsasında 8 il müddətinə azadlıqdan məhrum edilib.

❑ **NURLAN**

YENİ MÜSAVAT
N 62 (6090) 20 mart 2015

# "Dalğa"nın qürbətdəki keçmiş sədri danışdı

**İndi heç kimi belə cümlələrlə təəccübləndirmək olmaz: "Filan xarici ölkədə küçələri şampunla yuyurlar, itlər üçün gözəllik salonları var..." Çünki dünyanın o biri ucu bir kompüter düyməsi qədər yaxındır bizə. Hər şey barədə anında, detallı bilgi əldə etmək isə su içimi qədər asan... Amma və lakin xarici ölkəni bir azərbaycanlı mühacirin dilindən dinləməyin özgə gözəlliyi var. O ölkənin bir parçası olmuş və ya olmaq istəyən, bunu arzulayan... bir azərbaycanlının təqdimatında yaşadığı xarici ölkə. "Yeni Müsavat" oxucularına yeni bir rubrika təqdim edir: "Qürbətdəki BİZ".**



# "Küçələrdə bərkdən gülən, ya da kiməsə söz atan gənclər yoxdur"

## Vəfa Cəfərova: "Təkcə yeməklərinə öyrəşə bilmirəm - daha çox yarımfabrikat və dondurulmuş qidalar..."







Xatırlayanlar xatırlayır, unudanların yadına isə salaq ki, qəzetimizin bundan öncə "Onunla Azərbaycan" adlı rubrikasında bunun tamamən əksi təqdim edilmişdi. Azərbaycanda yaşayan əcnəbilərin gözü ilə ölkəmiz, onun gözəllikləri, qəribəlikləri, insanlarımızla bağlı hər şey.... bir amerikalının, hindlinin, ispanın, çinlinin... gözü ilə, sözü ilə oxuculara çatdırılmışdı. İndi isə bizim gözümüzlə xaricilərə baxmaq zamanı gəlib.

### "Azərbaycanda qalmaq təkcə bizim yox, həm də qızımızın təhlükəsizliyini sual altına alırdı"

"Qürbətdəki BİZ"in bu həftəki qonağı Niderlandda yaşayan Vəfa Cəfərovadır. Dalğa Gənclər Təşkilatının keçmiş sədri, ictimai fəal olan bu xanım həm də musiqiçi Azər Cırtdanın həyat yoldaşıdır. İki qız anasıdır və girişdə dediyimiz kimi, 2011-ci ildən Niderlandda (Hollandiya) yaşayır.

**V.Cəfərova bizimlə söhbətinə öncə Niderlanda köçmə hekayəsindən danışmaqla başladı. Amma ondan öncə xüsusi vurğuladı ki, niderlandlılar öz ölkələrinin Hollandiya adlandırılmasından razı deyillər və bunu hər fürsətdə vurğulayırlar:** "Bura köçməyimiz ani qərar deyildi, çox düşündük. Bir tərəfdən ailə və vətən, o biri tərəfdən qızımız və yeni perspektivlər. Azərbaycanda qalmaq təkcə bizim deyil, həm də qızımızın təhlükəsizliyini sual altına alırdı. Və bu, təkcə siyasi repressiya qorxusu deyildi. Səhiyyə sistemi bərbad, təhsil sistemi bərbad, fərqli fikirlilik təqib olunur... Nə isə, vəziyyəti məndən yaxşı bilirsiz. Qərar qəbul etdik və sizə deyim ki, o gündən bəri bir gün də olsun bu qərar üçün nə peşman olmuşam, nə də özümü günahkar hiss etmişəm".

### "Qərarımız bu idi ki, burda oturub Azərbaycanda baş verənlərə qarışmayaq"

**Müsahibimiz söylədi ki, o məlum, geniş yayılmış "onlara ölkədə hansı təzyiq vardı ki, mühacirət etdilər" sualını birbaşa onlara verməyiblər. Daha doğrusu, o sualı eşitməyib:** "Biz getmək qərarı verəndə başqa qərar da almışdıq. Bu qərar əslində getmək qərarından daha çətin idi. Avropada oturub Azərbaycanda baş verənlərə qarışmamaq. Çünki müşahidələrim göstərir ki, burdan hər hansı müdaxilə etmək, birincisi, effektiv deyil. İkincisi, köməkdən çox mane olur, lazımsız müzakirələr yaradır. Və ən nəhayətində qınaq obyektinə çevrilirsən. Sonuncu əhəmiyyətsizdir. Əgər nəsə uğur əldə edirsənsə. Uzun sözün qısası biz təbii ki, Azərbaycanda baş verənləri ürək ağrısı ilə izləyirik. Yalnız dəyişdirmək şansımız olmadığı üçün mane də olmaq istəmirik. Azərin *(həyat yoldaşını nəzərdə tutur-S.T.)* sahəsi daha spesifıkdır. O, öz fikirlərini, arzularını, ümidlərini musiqisi ilə çatdırır. Bu istedadına hərdən paxıllıq edirəm. (gülür")

### "Yarımfabrikatlarla, dondurulmuş pizzalarla qidalanırlar"

**V.Cəfərova üçün Niderlanddakı ilk günləri çox da ağır olmayıb. Dediyinə görə, böyük mədəni şok yaşamayıb. Sadəcə, yeməyi onu heyfisləndirib ki, indiyə qədər də bu yemək mədəniyyətinə alışa bilməyib:** "Gündə üç dəfə yeyirlər. Səhər-günorta buterbrod kofe ya da çayla. Axşam 5-də isə isti yemək yeyirlər. Təəssüf ki, istədikləri üçün marketdən alınma və mikrodalğalı sobada 5 dəqiqə qızdırdıqları yeməyi yeyirlər. Yəni yarımfabrikatlarla, dondurulmuş pizzalarla qidalanırlar. Milli mətbəxləri isə demək olar ki, yoxdur. Burda italyan və Asiya mətbəxi çox məşhurdur".

### "Onlar deyirlər ki, biz velosipedlə anadan olmuşuq"

**Müsahibimiz həmçinin niderlandlıların küçədə tanımadıqları adamlarla salamlaşmasının da onu sözün yaxşı mənasında təəccübləndirdiyini dedi. Qürbətdəki həmvətənimiz fürsətdən istifadə edib, niderlandlıları da təsvir etdi:** "Niderlandlar, qayda-qanuna riayət edən, idmanı həyat tərzi kimi qəbul edən, qənaətcil, gülərüz, velosipedi gəzməkdən üstün tutan, heyvansevər insanlar kimi xarakterizə edərdim. Velosiped burda ayrı mövzudur. Niderlandlılar özləri zarafat edir ki, biz velosipedlə anadan olmuşuq. Qənaətcillik, var-dövlətini insanların gözünə soxmamaq bura insanının ən sevdiyim xüsusiyyətidir. Qənaətcillik deyəndə bizdə qəbul edilmiş "hacıqaralığı" nəzərdə tutmuram. Sadəcə, buranın insanları əşyapərəst deyillər. Belə zarafatları da var ki, ürəyimiz ancaq endirimdə olan şeyləri istəyir. Çox çalışqandılar. Keçən il qonşum özü evini təmir edib, bağçasına daş döşəmişdi. Onu heyranlıqla və həsəd hissi ilə izləyirdim. Mən heç lampa dəyişə bilmirəm. Burda isə qızlı-oğlanlı uşaqları kiçik yaşlarından əməyə öyrəşdirirlər. Niderland deyəndə insanlar kofeshop və "qırmızı fanarlar" küçəsi barədə düşünürlər. Amma bura gəlsəz, bu yanlış stereotipdən qurtulacaqsız. Yazda hər yan yaşıllıq və gül olur. Hər ailə bağçasında rəngarəng güllər əkir. Elə bil bütün Niderlanda güllərdən xalça salırsan. 4 ildir burdayam. Amma hələ də bu gözəllik mənim üçün adiləşməyib, hər dəfə sevindirir".

### "Məsləhətxanada mənə 1 aylıq uşağımla söhbət etməyi məsləhət gördülər"

**V.Cəfərova yaşadığı ölkəni yerə-göyə sığdıra bilmir. Dediyinə görə, Niderlandda hər şey xoşuna gəlir, havadan başqa:** "Hava çox dəyişkəndir. Səhər yağış yağır, günorta gün çıxır, axsam isə qar yağa bilər".

**Müsahibimin böyük qızı Eva Azərbaycanda doğulub, kiçik qızı Sofiya isə Niderlandda. Uşaq haqları, hüquqları, uşağa güzəştlər... bunlar necə həll olunur Niderlandda? V.Cəfərovanın sözlərinə görə, sistem Azərbaycandakından tamamilə fərqlənir:** "Uşaqların 18 yaşına qədər sığortası pulsuzdur. Uşaqların söz haqqı var. Uşaqla doğulandan şəxsiyyət kimi davranırlar. Məsləhətxanada mənə 1 aylıq uşağımla söhbət etməyi tovsiyə edəndə bir az çaşmışdım. Sonra verdikləri kitabda oxudum ki, uşağa ətrafında baş verənlərin hamısını izah eləmək lazımdır. Dinləmək vərdişini körpəlikdən tərbiyə etmək lazımdır. Bir də burda ailədaxili şiddət məsələsi nəzarətdədir. Xüsusən gəlmələr üçün. Əgər uşaq evdə şiddətə məruz qaldığını deyirsə, əmin olun ki, səhəri sizin evə yoxlama gələcək. Qonşular və başqa şahidlər bu şiddət faktını təsdiqləsə... vəssalam, əmin olun ki, uşaq ailədən alınır. Daha bir detal isə peyvəndlə bağlıdır. Peyvənd mütləqdir. Əgər imtina edirsənsə və ağlabatan səbəbin yoxdursa, cərimə ödəyib, yenə də peyvənd eləməlisən və s. və ilaxır".

**Niderlandda uşaqların təhsil məsələsinə gəlincə, V.Cəfərova dedi ki, orda məktəb 4 yaşından başlanır:** "Və Azərbaycandakından fərqli olaraq, burda tədris proqramı uşağı məhv etmir. Məsələn, ilk iki il ancaq uşaqla məntiqini, beynini inkişaf etdirən oyunlar oynanılır, idman edirlər və cəmiyyətdə özünü aparmaq haqqında bilgilər verilir. Yol çəkməyi, velosiped sürməyi öyrədirlər. Maraqlısı odur ki, orda özəl məktəblər açmaq sərbəstdir. Məsələn, mən istəsəm, Azərbaycan məktəbi aça bilərəm. Və dövlət buna subsidiya ayırır. Tək şərt kifayət qədər şagird toplamaq və ümumi məcburi fənlərin tədrisi. Bu plandan əlavə mən istədiyim fənləri sala bilərəm. Təbii, nazirliklə məsləhətləşib bunu etmək mümkündür".

### "Harasa qonaq gedirsizsə, əvvəlcədən deməlisiz ki, orada nə qədər qalacaqsız"

**Müsahibimiz deyir ki, Azərbaycanda Niderlandla bağlı formalaşmış ən yanlış təəssürat burda hamının marixuanadan istifadə etməsidir:** "Yerli əhali burda kofeshoplara utana-utana girir".

**Bununla belə, V.Cəfərova üçün Niderlanda, oranın insanlarına öyrəşmə süreci davam edir. Müsahibimiz yeri gəlmişkən, yerli əhalinin ilginc adət-ənənələrinə də toxundu:** "Məni ən çox təəccübləndirən onların qonaq qəbul etmələridir. İlk vaxtlar özümü çox narahat hiss edirdim. İndi artıq öyrəşmişəm. Bir yerə qonaq gedirsizsə, əvvəldən vaxtı danışmalısız. Həm də təkcə görüş vaxtını yox, nə qədər oturacağınızı da. Bir fincan kofeyə getmisizsə, maksimum 30 dəqiqə oturub söhbət edirsiz. Şam yeməyi üçün yeməkdən 1 saat əvvəl gəlirsiz və yemək bitdikdən sonra maksimum bir saat otura bilərsiz. Amma buna da çox tez öyrəşirsiz. Hətta bir müddət sonra bunun nə qədər rahat olduğunu anlayırsız. Sevmədiyim adət isə doğumdan sonra tost və şokolad qırıqları yemə məcburiyyətidir. Təsəvvür edin, o boyda zülmdən sonra sənə quru çörəklə şokolad qırıntıları verirlər". (gülür)

### "Burda orta statistik insanlar siyasət və incəsənətlə çox maraqlanmır"

**Niderlandlar və azərbaycanlılar arasındakı ortaq, fərqli cəhətlərə gəlincə, müsahibimizin cavabı gözlənilən oldu. Öncə dedi ki, insanlar dinindən, irqindən və cinsindən asılı olmayaraq, hər yerdə eynidir:** "Hamı yaxşı, rahat yaşamaq istəyir. Bu, bizim hamımızı birləşdirən cəhətdir. Azərbaycanda avropalılar haqqında bir sıra yanlış stereotip var. Burda orta statistik insanlar siyasət və incəsənətlə çox maraqlanmır. İşdən sonra gəlib yemək yeyirlər, sonra ya futbola, ya da "O səs Niderland" tipli verilişlərə baxırlar. Dünyanın hər yerində olduğu kimi, burda da "Bozun 50 çaları" bestsellərdir. Amma burda uşaqlıqdan bağçada, məktəbdə və təbii ki, ailədə hamının bərbər olduğunu anladırlar. Fərqli fikirli və həyat tərzli insanları heç kim təhqir etmir. Müzakirələr yüksək səslə getmir. 4 ildir burda yaşayıram. Amma küçədə böyürən, bərkdən gülən, ya da kiməsə söz atan gəncləri görməmişəm. Əsas fərq bundadır. İnsanlar çox nəzakətlidir. Avtobusa "kolyaska" ilə minəndə sürücüdən tutmuş sərnişinlərə qədər hamı köməyini təklif edir. Hamilə olanda isə artıq öyrəşmişdim ki, sürücü düşüb mütləq kolyaskanı içəri daşıyacaq və mən oturmayana qədər yerindən tərpənməyəcək. Deyirlər şeytan detallarda gizlənib. Yəqin eyni şeyi xoşbəxtlik haqqında da demək olar. Belə epizodlar məni hədsiz xoşbəxt edir".

**Vəfa xanım deyir ki, niderlandlılar bir qayda olaraq miqrantlara tolerant yanaşırlar. Böyük əksəriyyət isə ümumən nəzakətlidir:** "Mən yaşadığım yerdə gəlmə çox deyil. Böyük şəhərlərdə bəlkə bu, çox kəskin hiss edilir. Amma özümə qarşı heç bir ayrı-seçkilik hiss etməmişəm".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 62 (6090) 20 mart 2015




# Novruz - bütün təzahürlərində dirilik olan bayram

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim!**
**Novruz günlərini yaşayırıq. Uca Allahdan diləyirik ku, qəlblərimizdə həqiqi Novruz yaşansın, ruhi durumumuz Həzrət Peyğəmbər (s) və Əhli-beytinə (ə) layiqli vəziyyətə gəlsin. Dua edirik ki, bu dönəm bütün xalqımızın Allah istəyən duruma gəlməsinə gətirib çıxarsın, həqiqi dəyərlər ətrafında birləşməsinə və İslami kimliklərini yaşatmasına, imtahanlardan layiqincə çıxmasına səbəb olsun!**

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



## Günahların bağışlandığı gün

Novruz - böyük fəlsəfi cəhətləri yaşadan bir bayramdır. Ümumilikdə götürsək, insanın fitrətinə tam uyğun gələn bir bayramdır Novruz. Bəşər yaranan gündən bu ənənəyə, bu adətə malik olub - təbiətin yeniləşməsini qeyd etmək. Müxtəlif mədəniyyətlərdə, dünyanın əksər yerlərində bu və ya digər formada təbiətin oyanışını qeyd edirlər. Bu, insanın fitrətində olan bir hissdir - yenilənmə gözləmək, yeniliyin intizarında olmaq. Və təbiətin canlanması kimi bir zahiri dəyişiklik baş verəndə, insanlar buna müxtəlif formada reaksiya veriblər. Amma mübarək dinimiz bu zahiri dəyişikliklərin mahiyyətinə varmağa, daxili və zahiri dəyişikliklərin harmoniyasına nail olmağa dəvət edir. Sadəcə gözəlliyi müşahidə etmək kifayət etmir; bu gözəllikdən ibrət almaq, öz durumunu bu gözəlliyin nəcabətləndirici enerjisi ilə zənginləndirmək gərəkliyi meydana gəlir. İnsan öz tutumuna uyğun olaraq, bu harmoniyanı tuta bilir, öz daxili aləmini təbiətin dəyişməsinə uyğun təravətləndirə bilir.

Həzrət Peyğəmbər (s) və Əhli-beytindən (ə) gələn hədislərdə təsdiq olunur ki, Novruz - kökündə, mahiyyətində bir İlahi nuru daşıyan bayramlardandır. Təbərrük üçün bugünkü bəhsimizdə Novruzun batini mənalarını açıqlayan hədislərə toxunacağıq. Bu, onun üçündür ki, Novruzun tək zahiri, görünən tərəflərinə yox, mahiyyətində olan cəhətlərə də diqqət yetirmiş olaq.

Şeyx Tusi öz kitabında Novruzla bağlı aşağıdakı hədisi nəql edir: İlmam Sadiq (ə) Novruz günündə buyurdu: **"Novruz olan vaxt qüsl et, təmiz paltar geyin, özünü ətirlə və o günü oruc tut. (Sonra bu günün xüsusi namazının qaydasını çatdırdı və sonra buyurdu:) Namazdan sonra şükür səcdəsini yerinə yetirib, dua edərsən. Bu tərtiblə əlli illik günahların bağışlanar"".**

Günümüzdə bəzən müzakirə edirlər ki - yeri gəlmişkən, bu, topluma vaxtaşırı aşılanmağa cəhd edən virusların məhsuludur - guya Novruzun İslamla uyğunluğu yoxdur. Hətta Novruzun mübarək dinimizin mahiyyətinə zidd olduğunu iddia edənlər də tapılır. Təbii ki, bunu o fərdlər iddia edə bilir ki, başqa məsələlərdə də qeyri-İslami mətləbləri din adı altında yeritməyə cəhd edirlər. Həqiqətdə isə biz görürük ki, Peyğəmbərimiz (s) və İmamlarımız (ə) birmənalı olaraq Novruz haqqında nəinki sadəcə olaraq müsbət fikirdədirlər, hətta bu günlə bağlı hansı dini ayinləri yerinə yetirməyi də müsəlmanlara öyrədirlər.

## Zahiri və daxili keyfiyyətlərin vəhdəti

Diqqət edək ki, hər mənada ibrətlərlə dolu bir buyuruşdur bu. Qüsl etmək tövsiyə edilir - digər İslami bayramlarda olduğu kimi, zahiri təmizliyə diqqət yetirilir. Əslində bu, həmin göstərişin mahiyyətində duran batini təmizliklə harmonik vəhdət təşkil edən bir amildir. Təmiz paltar geyinmək - zahiri təmizliyə dəvətdir və təzələnməyə çağırışdır. Ətirlənmə - zahiri xoşətirliliklə daxili təravətin əlaqəsinə bir işarədir. İnsanın daxilində gözəl bir bayram ab-havasının yaranmasına müqəddimə olan amillər sadalandıqdan sonra, mübarək hədisdə oruc tutmaq tövsiyəsi var.

Görürük ki, bu bayram günündə insanın təqvalılığa, bəndəliyə tərəf getməsinə bir dəvət var. Zira, oruc - bəndəliyə yönəlişə ən yaxın yollardan biri kimi təqdim olunub müqəddəs Quran məntiqində. Oruc - bir əməllərdəndir ki, insanın daxilində güclü bir tənzimlənmə aparır. Və mübarək hədisdə Novruz günü oruc tutmaq məsləhəti - bu günün bəndəliyə yönəli bir fenomen olmasına aşkar dəlildir.

Bayramla bağlı digər mühüm əməl - bu günün xüsusi namazıdır. Təbii ki, söhbət vacib namazdan getmir, bu, bir müstəhəb, bəyənilən namazdır. Allah dərgahında bəndəliyə iqrarı olan bu ibadətin Novruz günündə yerinə yetirilməsi, bayramın vücudi mahiyyətini açıqlayan daha bir cəhətdir.

Namazdan sonra şükür səcdəsi yerinə yetirmək tövsiyə edilir. Şükür səcdəsi - əta olunan nemətlərə görə Uca Allaha çatdırılan bəndəlik göndərişidir. İnsan çox vaxt nemətlərin əhatəsində olur, başdan-ayağa nemətlərdən bəhrələnir, faydalanır, amma bunun fərqinə varmır.

İnsana bir şükür etmə dərsi keçir İmam Cəfər Sadiq (ə). Çünki insan əslində tək elə Novruzda, baharda olan nemətlərin fərqinə varsa, daima şükür içində olar. Ölü bir təbiət yenidən dirilir. İnsan istəsə də, istəməsə də, geniş nemətlər onun ixtiyarına verilir. Həm ətrafda bir çiçəklənmə var, bir gözəllik var, həm də bugünlərdə insanların daxilində bir oyanış baş verir. İnsanların halında bir dəyişiklik yer alır. Yaşayıb-yaratmaq üçün güclü daxili impuls yaranır. Bu nemətlərin müqabilində insanın daxilində bir təşəkkür hissinin yaranması və təzahür etdirilməsi - Novruza xas əməllərdəndir.

## Novruzun həqiqi dəyəri

Mübarək hədisdə göstərilir ki, müəyyən edilmiş bu tərtiblə yerinə yetirilən ibadət - 50-illik günahların bağışlanmasına səbəb olur. Yəni insan Novruzun mahiyyətini doğru yaşatsa, düzgün yaşatsa, həmin günü həqiqi Novruz kimi keçirtsə - insan üçün yeni bir gün olacaq. Dünənki gün arxada qalacaq. Həm xronoloji baxımdan, həm də ruhi-mənəvi baxımdan. Oruc tutmaq, namaz qılmaq, şükür səcdəsi yerinə yetirmək - həqiqi tərtib və məzmunla yerinə yetirilsə, günahların insanın ruhunda qoyduğu dəhşətli və dərin, eybəcər izləri silir, ruhi yaraları sağaldır. Beləliklə, insanın daxili aləmi günahlardan təmizlənir. İnsan bir bəndəlik durumu əldə edir ki, onu həqiqi yeniliyə, mahiyyətcə yeni günə aparır. İnsanın Allaha doğru bir hərəkəti ərsəyə gəlir. Bu hərəkətin hədəfi - yaradılış hikmətinə uyğun bir duruma gəlməkdir. Bu hərəkətin trayektoriyası - insana xas yaşamdır. İnsana bir müraciət var Novruzda. İnsan bu müraciəti cavablandırdıqda, öz ruhiyyəsini bayramın zatında olan işıqlı hərəkətlə uzlaşdırır.

Böyük İslam alimlərindən olan Əllamə Məclisi öz kitabında nəql edir ki, Müənna deyir: "Novruz günü **İmam Sadiqin (ə)** yanına getdim. **İmam Sadiq (ə)** buyurdu: "Bu günün dəyərini, qiymətini bilirsən?». **Dedim: "Bu günü əcəmlər /qeyri-ərəblər/ əziz tuturlar və bir-birilərinə hədiyyə verirlər».** İmam (ə) buyurdu: **"Allahın adına and olsun ki, bu, qədim bir adətdir...». Sonra buyurdu: !Ey Müənna! Novruz günü həmin gündür ki, Allah bəndələrindən Ona pərəstiş etmələri, şərik qoşmamaları, Peyğəmbər (s) və Höccətlərinə (ə) tərəfdar olmaları və İmamlara (ə) iman gətirmələri barədə əhd-peyman aldı»».**

Məlum olur ki, Novruz günü - insanın bir əhd-peyman etdiyi gündür. Əslində insanın inanca hazırlığı, İslama hazırlığı, doğrunu qəbul etməyə hazırlığı - həmin o əhd-peymana qayıdır. İnsan imana, dinə gələndə, özünə qayıdır, öz mahiyyətində, fitrətində olan əhd-peymana riayət edir. Doğruluq, düzgünlük - insanın zatındadır. Və insan hansısa nəcib xüsusiyyətləri əldə edəndə, əslində öz fitrətinə qayıdış həyata keçirir. Məsələn, insan doğru danışmağa başladıqda öz həqiqi durumuna, öz mahiyyətinə qayıtmış olur. Bu əhd-peyman Novruz günü alınıb insanlardan.

Hamımıza yönəli bir çatdırışdır bu. Bəndəlik əhd-peymanı vermişik. Allaha bəndə olmaq. Onun buyuruşlarını yerinə yetirmək. Ona şərik qoşmamaq. Daxili və xarici bütlərə tapınmamaq. İnsan olmaq, insan kimi, insana layiq yaşamaq. Zülm etməmək - nə özünə, nə də ətrafdakılarına. Zülmə rəvac verməmək. Fərdi və ictimai həyatda İlahi dəyərləri yaşatmaq.

## Bütlərin qırıldığı gün

Mübarək hədisin davamında İmam (ə) buyurur: **"Bu, Günəşin çıxdığı, küləklərin əsməyə başladığı və torpaqdakı güllərin bəhrələndiyi gündür. Bu, Həzrət Nuhun (ə) gəmisinin Cud dağının sahilinə çıxdığı bir gündür. Cənab Cəbrailin (ə) İslam Peyğəmbərinə (s) nazil olduğu və Həzrət Peyğəmbərin (s) İmam Əlini (ə) Məscidül-Həramda /Kəbə evində/ Qüreyşin bütlərini sındırmaq üçün çiyinlərinə çıxartdığı və həmçinin Həzrət İbrahimin (ə) bütləri qırdığı bir gündür.**

**Bu gün - Həzrət Peyğəmbərin (s) öz səhabələrinə Həzrət Əliyə (ə) beyət etmələri barədə göstəriş verdiyi bir gündür».**

Novruz - bütsındıran bir gündür. Novruz - özündə bütdağıtmanı simvolizə edən bir gündür. Həzrət İbrahim (ə) bu gündə insanlara nicat yolu göstərərək, bütləri qırmışdır. Həzrət Cəbrayıl (ə) Novruz günündə Peyğəmbərimizə (s) nazil olmuşdur. Bu nazilolma ilə, əslində bütün dünyada qlobal bir bütsilkələmə prosesinə rəvac verilmişdir.

Novruz günündə Peyğəmbərimiz (s) öz mübarək çiyinlərinə əzizi Həzrət Əlini (ə) qaldırmışdır. Bu, o zaman idi ki, müqəddəs Məkkə fəth olunmuşdu və Kəbə evi, Qüreyşin yüzillərlə insanların beyinlərini dumanlandırıb mənfəət götürmək üçün istifadə etdiyi bütlərdən təmizlənilirdi. Həzrət Əli (ə) Kəbə evinə qalxaraq, bütləri qırmış, dağıtmışdır.

Novruz - bir yenilik günüdür. Novruz - köhnə ətalətlərdən, insan ruhunu çərçivələndirən doqma və stereotiplərdən hər mənada qurtulub, bunları dağıdıb, təzəlik, həqiqilik və özünəqayıdışın bərəqrar edildyi bir gündür.

Amma büt dedikdə, təkcə qədim bütlər nəzərdə tutulmur. Günün bütləri artıq Ərəbistan səhralarında olan o daş və taxta bütlər deyil. Günün bütlərini tanıyıb, qəlbləri onlardan təmizləmək lazımdır. İnsanlar bəzən özlərini çaşdıraraq, səylərini qədim bütlərə doğru yönəldirlər. Yəqin ki, belə özünüaldatma, özünüçaşdırma - daha asan və rahat yolu seçmək istəyindən irəli gəlir. Amma dinimiz özünüaldatmağı bəyənmir və həqiqi bütləri tanıyıb, daima onlara tapınmaqdan, pərəstişdən qurtulmağı, qəlbi buxov edən bu bütləri dağıtmağı istəyir insandan.

## Novruz və Qədir-Xum

Önəmli məsələlərdən biri də budur ki, Qədir-Xum hadisəsi - Həzrət Peyğəmbərin (s) müsəlmanları agah etməsi ki, ondan sonra vəsisi və xəlifəsi Həzrət Əlidir (ə) - Novruz gündə baş vermişdir. Novruz günündə Rəsuli-Əkrəm (s) ümmətə müraciət edərək, onların vəlisinin, rəhbərinin, imamlarının Həzrət Əli (ə) olmasını elan edərək, onlardan beyət - tanıma, riayət etmə əhdi aldı.

Diqqət etsək, görərik ki, Novruzun mahiyyətində necə bir dirilik var. Bu diriliyin mahiyyətinə varsaq, görərik ki, təbiətin zahiri oyanışı ilə yanaşı, insanın vücudi durumunu dəyişən amillər var bu gündə. İnsanın daxilində bir dirilik potensialı qoyulur. Daimi bir vicdan hissi, Allah tanıma hissi, haqq tanıma hissi var Novruzun batinində. Vücudi diriliyi tənzimləmək üçün yolgöstərəni tanıma və ardınca getmə potensialı qoyulmuşdur Novruzda.

Bu gündə bir imtahanlar salnaməsi var. Bu gündə Həzrət Nuh (ə) olmazın çətinliklərə sinə gərib, imtahanlardan ən yüksək səviyyədə çıxıb, saleh bəndələrlə birlikdə olduğu gəmiylə sahilə yan alır. Bütün ömrü milyardlarla insan üçün örnək olan bir müqəddəs simaya - Həzrət Peyğəmbərə (s) bu gündə Həzrət Cəbrayıl nazil olmuş və bəşəriyyətin nicatı üçün müjdə gətirmişdir.

Bütün təzahürlərində dirilik var Novruzun. Bütün bu sadalanan təbərrüklərin hər biri - həqiqi mənada bir Novruzdur, bir yeniikdir. Özü ilə dirilik, oyaqlıq, ayıqlıq gətirən bir yenilikdir Novruz.

Novruzu müəyyən bir xurafatla bürümək cəhdləri də yox deyil. Bunlar - tədrici aradan gedən bir məsələlərdir və həlli - maarifçilik müstəvisindən keçir. Odur ki, bunlara bənd olmaq gərək deyil, Novruzun mahiyyətinə nəzər salmaq lazımdır. Bu mahiyyətdə isə axtaran adam, qəlbi nicat arayan insan yalnız gözəllik və müsbətlik tapacaqdır. O qədər nəhəng ruhi potensial var Novruzda ki, bütün səylərə baxmayaraq, hətta Sovet dönəmində də onu aradan apara bilmədilər. Bütün düşməncəsinə səy və cəhdlərə baxmayaraq, Novruzu unutdura bilmədilər bu millətə.

**Uca Allahdan diləyimiz budur ki, bizə bu bayramı düzgün dərk etməyi, düzgün yaşatmağı qismət etsin və xalqımıza da hər mənada günlərinin həqiqi Novruz olmasını nəsib etsin! Amin!**

YENİ MÜSAVAT
N 62 (6090) 20 mart 2015

# Bakıda minlərlə insan tıxacda qaldı

## BŞDYPİ sürücülərə müraciət etdi; bayram günlərində bu yollardan istifadə etməyin

**Martın 19-da səhər saatlarında Bakının bir neçə mərkəzi küçə və prospektində böyük tıxac yaranıb. Nəqliyyat Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzindən verilən xəbərə görə, saat 10:00-a olan məlumata görə, Azadlıq prospektində, Rəşid Behbudov küçəsində, Yusif Səfərov küçəsində, 28 May küçəsində, Cəlil Məmmədquluzadə küçəsində, Badamdar küçəsində, Əbdürrəhman bəy Haqverdiyev küçəsində, Şah İsmayıl Xətai küçəsində, Gülayə Qədirbəyova küçəsində, Əbdüləzəl Dəmirçizadə küçəsində, Fəzail Bayramov küçəsində, Nurəddin Süleymanov küçəsində böyük tıxac müşahidə olunub.**




Ən uzun tıxac isə Azadlıq prospekti, 28 May küçəsi və Yusif Səfərov küçələrində müşahidə olunub. Bu da şəhər sakinlərinin narazılığına və bir çox insanların işə gecikməsinə səbəb olub.

Yollardakı tıxacın səbəbləri ilə bağlı **"Yeni Müsavat"a danışan Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polkovnik-leytenant Vaqif Əsədov** bildirib ki, ictimaiyyətə məlumat verməyimizə baxmayaraq, yenə də sürücülər bağlanacağı bildirilən yollardan istifadə ediblər və bu da tıxaca səbəb olub: "Dünəndən biz mətbuat vasitəsilə ictimaiyyətə elan verdik ki, Novruz bayramının dövlət səviyyəsində keçirilməsi ilə əlaqədar Neftçilər prospekti istiqamətində kəsişən bütün küçə və prospektlərdən avtomobillərin hərəkətinə məhdudiyyət qoyulur və istiqamət dəyişdirilir. Təbliğat aparılmasına baxmayaraq, səhər çağı pik saatlarda Neftçilər prospektində hərəkət edən avtomobil çoxluğu 10-cu zavod dairəsindən Yusif Səfərov küçəsi ilə Cavanşir körpüsü daxil olmaqla, Üzeyir Hacıbəyov küçəsi istiqamətində təxminən bir neçə dəqiqə avtomobillərin tam dayanması müşahidə olunub. Baxmayaraq ki, 28 May-Yusif Səfərov küçəsindən istiqamət Kövkəb xanım Səfərəliyeva küçəsi ilə Rəşid Behbudov istiqamətinə tənzimlənməsi üçün şərait yaradılmışdı, lakin bundan da sürücülər düzgün istifadə etmədi. Səbəb isə odur ki, nizamlayıcı qismində olan yol polisi nəfərlərinin nizamlayıcı göstərişləri sürücülər tərəfindən düzgün yerinə yetirilmir. Hər kəs Neftçilər prospekti istiqamətində getməyi düzgün hesab edir. Ancaq bu mümkün deyil. Çünki təşkil olunan Novruz şənliyində iştirak edənlərin də təhlükəsizliyi və rahat hərəkəti təmin edilməlidir. Sürücülər aparılan təbliğatdan məlumatsız olduğundan bir qədər sıxlıq yaşandı. Bu gün həmçinin Qurd qapısı dairəsində, Mətbuat prospektində və Mikayıl Müşfiq dairəsində də sıxlıq yaşanıb".

**Vaqif Əsədov "Yeni Müsavat" qəzeti vasitəsilə bir daha sürücülərə səslənib:** "Mən bir daha avtomobil istifadəçilərinə səslənirəm ki, bayram günlərində Neftçilər prospekti istiqamətində şəxsi avtomobildən mümkün qədər az istifadə etsinlər. Aprelin 1-nə qədər bayram tədbirləri davam edəcək və bu istiqamətdə hərəkət məhdudlaşdırılacaq. Nəzərinizə çatdırım ki, Bakının əksər rayonlarında icra hakimiyyətləri tərəfindən geniş bayram tədbirlərinin keçirilməsi nəzərdə tutulur. Bu tədbirlər istiqamətində getmək istəyənlərə şəxsi avtomobildən istifadə etməməyi və ictimai nəqliyyatla hərəkət etməyi tövsiyə edirik. Həmçinin şəxsi avtomobil sahiblərinə şəhərin mərkəzində yeraltı avtomobil dayanacaqlarından istifadə etməyi məsləhət görürük. Nəzərinizə onu da çatdırım ki, bayram günlərində yol polisi gücləndirilmiş iş rejiminə keçib. Kimliyindən asılı olmayaraq sürücülər törətdiyi xəta ilə bağlı saxlanılıb məsuliyyətə cəlb ediləcək. Sürücülərdən xüsusən sükan arxasına sərxoş vəziyyətdə keçməmələrini xahiş edirik. Spirtli içki qəbul edənlər "ayıq sürücü xidməti"ndən istifadə etsinlər. Bayram günlərində tonqal yandıranlara isə xəbərdarlıq edirik ki, bunu asfalt üzərində etməsinlər. Əks halda, inzibati məsuliyyətə cəlb olunacaqlar".

**Nəqliyyat eksperti İlqar Hüseynov isə bildirdi ki, bayram günlərində hər zaman bu kimi hallar müşahidə edilir:** "Bunun səbəbi odur ki, şəhərə çıxanların sayı artır, əksəriyyət şəxsi avtomobillə hərəkət etməyə üstünlük verir və tıxaca səbəb olur. Eyni zamanda regionlardan da Bakıya gələnlərin sayı artır. Bu səbəbdən infrastrukturda yükləmələr yaranır, nəqliyyat vasitələrinin kütləvi axını müşahidə edilir. Burada yol hərəkəti ilə bağlı konkret qaydaların pozulmasına mövcud qanunvericiliyə görə, yol verilmir. Qanunda hər hansı mexanizm yoxdur. Hər halda, avtomobillərin park edilməsi imkanlarını genişləndirmək lazımdır. Yol polisi gücləndirilmiş iş rejiminə keçməlidir. Sürücülərə çağırış etmək lazımdır ki, hərəkətin gur olduğu yollardan istifadə etməsinlər, ictimai nəqliyyata üstünlük versinlər. Ancaq problemin birmənalı şəkildə aradan qaldırılması üçün qanunvericilikdə hər hansı mexanizm yoxdur".

❑ **Nərgiz LİFTİYEVA**

# «Nar Mobile» yüksək sürətli internet təklif edir

## Artıq bütün abunəçilər 42.2 Mbps sürətədək yükləmələr apara biləcəklər

**Azərbaycanın ən sürətlə inkişaf edən mobil operatoru "Nar Mobile" uzun illər ərzində müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təkliflərini təqdim etmişdir. 2015-ci il martın 18-dən etibarən isə mobil operator bütün abunəçilərinə yüksək sürətli interneti təklif edir. Yeni xidmət yükləmənin maksimal sürətini 42.2 Mbps çatdıraraq, bütün cari internet paketlərində, eləcə də adi trafik üzrə istifadə ediləcək. Qeyd etmək lazımdır ki, bu xidmətdən istifadə etmək üçün nə xüsusi qeydiyyat, nə də telefonun ayarlanması tələb olunur. Bu fürsətdən yararlanmaq üçün abunəçi birbaşa "Dual Carrier" texnologiyasını dəstəkliyən cihazdan ("Apple", "HTC", "Huawei", "Nokia", "Samsung", "Sony Xperia" və s. smartfon, planşet və digər "3G DC-HSPA+" texnologiyasını dəstəkləyən cihaz) istifadə etməlidir.**

**"Nar Mobile" mobil operatoru olaraq, biz daim təkmilləşən şəbəkə, çox sərfəli tariflər və nəzərə çarpan müştəri qayğısı ilə abunəçilərimizin ehtiyaclarını ödəmək siyasətinə sadiqik.**

**Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru "Nar Mobile" 2007-ci ildən etibarən abunəçilərinə xidmət göstərir. Fəaliyyət göstərdiyi illər ərzində "Nar Mobile" daima sərfəli qiymət siyasətinə sadiq qalaraq, müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təkliflər təqdim etmiş və onların rəğbətini qazanmışdır. Münasib danışıq tarifləri ilə yanaşı, mobil operatorun fərqliliyi və sərfəliliyi ilə seçilən İnternet paketləri və abunəçilərin hər zona üzrə eyni qiymət ödədiyi sadə rouminq təklifləri xüsusilə qeyd olunmalıdır. "Nar Mobile" Bakı 2015 Avropa oyunlarının rəsmi mobil rabitə təminatçısıdır.**

# 30 yaşlı qadın iş yerinin qarşısında öldürüldü

**Sumqayıtda qətl törədilib. Şəhər prokurorluğundan APA-ya verilən məlumata görə, hadisə martın 19-da baş verib. Şəhər sakini, 30 yaşlı Esmira Şirbala qızı Hüseynovanın işlədiyi mağazanın qarşısında üzərində zorakılıq əlamətləri olan meyiti tapılıb.**



Faktla bağlı Sumqayıt Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Hadisəni törədən şəxsin müəyyən edilməsi istiqamətində zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Qeyd edək ki, qətl baş verən yerin fotoları sosial şəbəkələrdə yayılıb.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

-----

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Yuxuda ikən qan təzyiqinin yüksək qalxması**
* Səhərə yaxın yüksək qan təzyiqi
* **Boyun-baş bel-ayaq ağrıları və asteoxondorz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

-----

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**



## Təcili satılır

**Lökbatan qəsəbəsinin mərkəzində, H.Əliyev parkının yanında 220.kv.m evrotəmirli, 2 mərtəbəli, 7 otaqlı döşəməsi parket, qapıları və pilləkənləri palıd ağacından, telefonu, qarajı, hamamı, mətbəxi, həyətində meyvə ağacları olan 3 sot torpağın üzərində tikilmiş villa**

TƏCİLİ SATILIR.

**3-cü mərtəbəni də tikmək olar (mansard).**
**Qiyməti razılaşma yolu ilə (Real qiymətdən ucuz)**
**Əlaqə telefonları**: 077 - 769 - 59 - 10; **070** - 365 - 98 - 40; 012 - 497 - 43 - 04



## Elan

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**

**Əlaqə nömrəsi: +79283706928**



## Soyuqda küçədə dondu

Kanadada 30 dərəcə soyuqda siqaret çəkərkən huşunu itirən qadın 3 saat yerdə qalıb. Huşu itmiş halda yerdə tapılan qadın son anda ölümdən xilas edilib. Avstraliyalı turist qadın gecə saat 02:30-a qədər spirtli içki qəbul edib. Adı açıqlanmayan qadın sərxoş halda bardan çıxıb və siqaret çəkə-çəkə yolda gedərkən içkinin təsirindən huşunu itirib. Bütün barmaqları donmuş halda tapılan qadın xəstəxanaya aparılıb. Səhər saat 6-da xəstəxanaya çatdırılan qadının həyatı həkimlərin uzun müddət davam edən müdaxilələrindən sonra xilas edilib. Qadının əlləri isə əməliyyat edilib. Həkimlərin sözlərinə görə, qadın xəstəxanaya 1 saat gec gətirilsə, barmaqları tamamən donacaqdı və əllərini kəsməyə məcbur qalacaqdılar.



## 68 yaşlı nənə əsgər oldu

Ukraynada yaşayan 68 yaşlı bir qadının əsgər kimi orduya daxil olması hər kəsi şoka salıb. Uzun müddətdir Ukraynada davam edən müharibədən və rus əsgərlərinin xalqı qorxuya salmasından bezən nənə orduya yazılmağa qərar verib. Komandirləri razılaşdırmağı bacaran yaşlı qadın indi normal əsgərlər kimi təlimlərdə iştirak edir. "Kalaşnikov"dan atış dərsləri alan nənə digər təlimlərdən də uğurlu çıxacağını deyib. "Punisher" (cəzalandırıcı) adı ilə tanınan yaşlı qadın ruslara qarşı mübarizə aparmaq üçün cəbhəyə göndərilir.

# Kraliçanın paltarı şoka saldı

Kembric Duşesi Keyt Midiltonun qiyməti 35 paund olan (təxminən 40 manat) paltarı son zamanlarda hər kəsin diqqət mərkəzindədir. Gələcəkdə İngiltərənin kraliçası olacaq olan Midilton ucuz paltarları təkrar-təkrar geyməsi ilə hər zaman gündəmdədir. Bir neçə gün əvvəl ingiltərədəki Brookhill uşaq evinə gələn K.Midiltonun əynindəki olduqca ucuz paltar onun ziyarətindən daha çox danışılıb.

2013-cü ildə ilk övladı Şahzadə Corcu dünyaya gətirən Midilton iki ay sonra ikinci uşağını qucağına alacaq.





# 40 milyonluq saat

Londondakı Nyu-Bond küçəsində (New Bond Street) yerləşən "Graff" zərgərlik şirkəti dünyanın ən bahalı, indiyədək misli-bərabəri olmamış qol saatını hazırlayıb. İsveçrənin Bazel şəhərində keçirilən ənənəvi Beynəlxalq Saat Sərgisində (BaselWorld) nümayiş olunan bu unikal qol saatının dəyəri nə az, nə çox - düz 40 milyon dollardır. Milli.az "The Guardian"a istinadən bildirir ki, korpusu ağ qızıl və platindən olan saat ən yüksək keyfiyyətli 153 karatlıq brilyantlarla bəzədilib. Brilyantların ortasında isə 38 karatlıq almaz var.

"Dünyanın ən bahalı və ən yaxşı transformasiya olunan qol saatı" kimi təqdim olunan bu qol saatını həm birbaşa funksional, həm də bilərzik kimi istifadə etmək olar.

"Graffination" adlanan bu qol saatının təqdimatında o da bildirilib ki, unikal əsərin qiymətinə Britaniyada 20 lüks villa almaq olar.






## Ərini öldürdü, yemək istədi...

Amerikalı polislər ərini öldürmüş qadından son arzusunu soruşub. O da yemək istədiyini deyərək polislərə uzun bir siyahı verib. Kelly Renee Gissendaner adlı qadın son illər ərzində Amerikada edam edilən az saylı qadınlardan biridir. 46 yaşlı qadın illər əvvəl ərindən boşanmaq istədiyini deyib. Əri onun istəyini qəbul etmədiyi üçün sevgilisi ilə plan quraraq ərini öldürüb. Ərinin boğazını kəsdikdən sonra yandıraraq öldürən qadına 1998-ci ildə ölüm cəzası verilib. Həbs edilərkən olduqca arıq olan qadın hazırda çox kökdür. Bir neçə gün sonra edam ediləcək olan qadın son istəyinin yemək olduğunu deyərək polislərə onların adlarını deyib. Kelly ölməzdən əvvəl ayran, pendirli sendviç, qızardılmış kartof, gilaslı dondurma, qarğıdalı, pomidor, salat, limonad və pendir istəyib.




**QOÇ** - Öz bürcünüzün Göy qübbəsinə hakim kəsilməsi potensial enerjinizi artıracaq. Bu səbəbdən də qarşınıza qoyduğunuz planları reallaşdırma yolları haqqında düşünməlisiniz. Bayramı sidq-ürəklə qeyd edin.

**BUĞA** - Hər üç günü səmərəli şəkildə keçirmək üçün ətrafınızdakı adamlarla səmimi davranın. Maraqlı səfərlər də yolunuzu gözləyir. Ötən günlərdə baş qaldıran maddi sıxıntılarınız azalacaq.

**ƏKİZLƏR** - Martın 22-si istisna olunmaqla, bu ərəfədə uğurlarınız kifayət qədər artacaq. Uzaqda yaşayan doğmalarınızdan isə xüsusi sayğı görəcəksiniz. Maliyyə məsələləri də qismən qaydasına düşəcək.

**XƏRÇƏNG** - Şəxsi münasibətlərdəki soyuqluğu aradan qaldırın. Unutmayın ki, Novruzun müqəddəsliyi umu-küsüləri silib aparmağındadır. Bundan yararlanın. Bugünlərdə təzə xəbər eşidəcəksiniz.

**ŞİR** - Səbrsizlik etməyə lüzum yoxdur. Əksinə, əzmkarlığınızı artırmaqla çox şeyə nail ola bilərsiniz. Bayram günlərində özünüzə xoş şeylər arzulayın. Ailə-sevgi münasibətlərinə həssas yanaşın.

**QIZ** - Yaxşı olar ki, bu ərəfədə dini ayinlərə əməl edəsiniz. Müqəddəs ziyarətgahlara getmək də səmərəlidir. İnsanlara xeyirxahlıq göstərin. Bu arada dilinizdən yalnız xoş sözlər çıxmalıdır.

**TƏRƏZİ** - Bu günlərin bərəkəti sizə daha çox sizə çatmalıdır. Çünki öz bürcünüz start götürəcək, bu isə hamıdan daha enerjili, daha şanslı olacağınıza dəlalət edəcək. Ayın 22-də sürprizlərlə dolu görüşləriniz gözlənilir.

**ƏQRƏB** - Planetlərin yerdəyişməsinə təsadüf edən bu arada şəxsi büdcənizdə bəzi problemlər ola bilər. Mövcud situasiyalardan təkbaşına qurtula bilməsəniz, etibarlı insanlara müraciət edin.

**OXATAN** - Göy qübbəsinin qənaətlərinə inansaq, ixtiyarınızda olan bu müddətdə yeni dostlar qazanacaq, maraqlı hadisələrin şahidi olacaqsınız. Amma yersiz mübahisələrə yol verməməli, uzaq yola çıxmamalısınız.

**OĞLAQ** - Hər üç gündə olduqca səmərəli sövdələşmələriniz olacaq. İstənilən danışıqda təşəbbüskarlığı ələ ala bilsəniz, gələcək perspektivlərinizə yaxınlaşacaqsınız.

**SUTÖKƏN** - Ulduzların düzümü çoxsaylı səfər və qonaqlıqlarda iştirakınızın labüdlüyündən xəbər verir. Sevdiyiniz adamların ətrafında olmaqla daxili sıxıntılarınızı aradan qaldıra bilərsiniz.

**BALIQLAR** - Hər üç gün ümumi məziyyətlərinə görə bürcünüz üçün əlamətdar zəngin olacaq. Əlalxüsus da qarşılıqlı münasibətlərdə vəziyyət xeyrinizə dəyişə bilər. Səfərə çıxmağa dəyər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Ana südü yeyənlər daha ağıllı olur



BBC-nin xəbərinə görə, 30 il davam edən araşdırmalardan sonra məlum olub ki, bir il ana südü ilə qidalananlar daha ağıllı və bacarıqlı olurlar. 30 il əvvəl dünyaya gələn və 1 il ana südü ilə qidalanan 6 min uşaqdan 3 min 500-ü bugünlərdə sınaqdan keçirilib. Nəticədə məlum olub ki, ana südü ilə qidalanan uşaqlar uzun müddət təhsil aldıqları üçün savadlı və ağıllı olurlar. 12 ay ana südü yeyən uşaqların məntiqi cəhətdən də bir aydan az ana südü ilə qidalananlara nisbətdə daha düşüncəli olurlar. Həmin uşaqlar orta hesabla ayda 70 kin sterlinqdən çox qazanırlar. Mütəxəssislərin sözlərinə görə, ana südü beyni qidalandırır və qoruyur.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300